AEM

e-ISSN: 2789-6919

# Elmi Tədqiqat

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR
## XI TEZİSLƏR TOPLUSU

## MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION
## XI THESES COLLECTION

# ELMİ TƏDQİQAT
**Beynəlxalq Elmi Jurnal**


# ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR

## XI TEZİSLƏR TOPLUSU

https://doi.org/10.36719/2024/XI


# SCIENTIFIC RESEARCH
**International Scientific Journal**


# MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION

## XI THESES COLLECTION


**Bakı – Baku**
**2024**

## Beynəlxalq indekslər / International Indices

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Rey estr № 4336

On 01.03.2021, the journal
was included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
"Azerbaijan" Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tezis.tedqiqat@aem.az

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
sevincsadigova@gmail.com

**Redaktor köməkçiləri**

**PhD Almaz BƏDƏLOVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
doctorant@live.com

**Könül ABDULLAYEVA,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
abdullazadehkonul75@gmail.com

**Şamxal ŞABİYEV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
shebiyev85@mail.ru

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**PhD Türkan İSMAYILOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof.Dr. Cavid QASIMOV,** Van Yüzüncü Yıl Üniversitesi / Türkiyə
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elçin İBRAHİMOV,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof.Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ

**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI,** ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoiy Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Amil ƏSGƏROV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əlöysəd ƏSGƏROV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA,** AR ETN, Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan
**Assoc.Prof. Dr. Əsəd QURBANLI,** AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu/ Azərbaycan
**Assoc. Prof. Dr. Toğrul XƏLİLOV**, AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**PhD Seymur MEŞAİK**, Gəncə Dövlət Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Editor

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
sevincsadigova@gmail.com

## Assistant editors

**PhD Almaz BADALOVA,** Azerbaijan University of Languages / Azerbaijan
doctoral@live.com

**Konul ABDULLAYEVA,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
abdullazadehkonul75@gmail.com

**Shamkhal SHABIYEV**, Azerbaijan Science Center / Azerbaijan
shebiyev85@mail.ru

## Language editors

**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan
**PhD Turkan ISMAYILOVA**, Nakhchivan State University / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Haji HASANOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Javid GASIMOV,** Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yaqut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof.Dr. Elchin IBRAHIMOV,** Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Rafiq CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Akbar AGAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan

**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI,** Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi SHARIFOV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Amil ASKEROV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aloysad ASGAROV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA,** Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Natural Resources / Azerbaijan
**Assoc. Prof. Dr. Asad GURBANLI,** ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Toghrul KHALILOV**, Nakhchivan branch of ANAS / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**PhD Seymur MESHAIK,** Ganja State University / Azerbaijan

https://doi.org/10.36719/2024/XI

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Teymur Abbasov**
Nakhchivan State University
Doctor of Economic Sciences, Professor
teymurabbasov56@mail.ru

## Basic Principles of the Organization Innovation Activity

***Keywords:*** *innovation, planning, planning principles, management system, classification, flexibility, elasticity*
***Açar sözlər:*** *innovasiya, planlaşdırma, planlaşdırma prinsipləri, idarəetmə sistemi, təsnifat, çeviklik, elastiklik*

The scientific article discusses the principles of organizing innovative activities. The article notes that planning is one of the main elements of the internal management system of innovative activities of an enterprise. It is also noted that innovation planning is the process of systematically creating and implementing new ideas, products, services or processes in an enterprise or organization.

It includes various stages, ranging from analyzing the current situation and finding opportunities for improvement, to developing, testing and implementing innovations. The key stages that innovation planning usually includes are indicated. It is emphasized that effective innovation planning allows a company to remain competitive, improve the quality of products and services and increase market share.

https://doi.org/10.36719/2024/XI

The article analyzes the reasoned choice of the main directions of innovation activity and emphasizes that the reasoned choice of the main directions of innovation activity is a strategically important process aimed at selecting promising areas for introducing innovations that will provide the company with a competitive advantage, improving the quality of products and services, as well as increasing profitability. To do this, it is necessary to take into account a number of factors and follow certain stages of analysis. The author lists a number of principles that define the general rules of innovation planning. It is noted that in general the principles of organizing innovation activities can be classified. The article provides a schematic classification of these principles and indicates that the planning process should be guided by it.

Next, the principles are discussed separately and it is noted that these principles form the methodological basis for the formation of an innovation planning system.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 9-12
Modern Requirements in Science and Education XI Theses Collection / 9-12
https://doi.org/10.36719/2024/XI

**Şəhla Süleymanova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
shahla.suleymanova@bk.ru

# Kiçik məktəbyaşlı şagirdlərdə bədii istedadın aşkara çıxarılmasının pedaqoji əsasları

***Açar sözlər:*** *şagird, müəllim, təlim, tərbiyə, bədii istedad, bədii yaradıcılıq*
***Keywords:*** *student, teacher, training, upbringing, artistic talent, artistic creativity*

Şüurda yeni ideyaların maariflənməsi ilə meydana çıxan yaradıcılıq məfhumu müəyyən mərhələlərdən keçmiş, XV və XIX əsrlərdə incəsənət sahəsində mühüm dəyişikliklərə səbəb olaraq mistik bir hadisəyə çevrilmişdir. Əsrlər keçsə də bədii yaradıcılıq, bədii fəaliyyət itməmişdir. Nəzərə alsaq ki, incəsənət insan hisslərini təsvir edən vasitədir, deməli bu yöndə tədqiqatların aparılması, müəyyən işlərin görülməsi lazımdır. Ancaq bu zaman bəzi nüanslara diqqət etmək lazımdır. Bunu alimlər sosial-pedaqoji və sosial-psixoloji aspektdə şərh edirlər. Bu istiqamətdə görülən işlərin ən yüksək tələblər səviyyəsində olması üçün davamlı olaraq sistemli işləmək lazımdır.

XXI əsrdə də uşaqların yaradıcılığına və inkişafına töhfə vermək üçün yollardan biri bədii yaradıcılıq fəaliyyətidir. Bədii yaradıcılıqla məşğul olmaq uşaqları dünyanı daha dərindən kəşf etməyə, emosional intellektini inkişaf etdirməyə və özünü sərbəst ifadə etməyə təşviq edən bir vasitədir.

Bədii yaradıcılıqla məşğul olaraq uşaq, təxəyyülünün sərhədlərini genişləndirməklə yanaşı, həm də öz ifadə tərzini tapmağa müvəffəq olur. Uşaqlar düşündüklərini və hiss etdiklərini rənglər, xəttlər və formalar vasitəsilə ifadə edərkən özünə

inam qazanır. Eyni zamanda, bədii fəaliyyətlər empatiya bacarıqlarını artıra, uşaqlara fərqli baxışlar bəxş edə və dünyanı daha dərindən dərk etmələrini təmin edə bilər. Bədii yaradıcılıq fəaliyyəti uşaqların bədii istedadının inkişafına böyük töhfə verən güclü bir vasitədir. Həmçinin, bədii fəaliyyət uşaqların zehni bacarıqlarını inkişaf etdirir.

Uşaqlar rəsm çəkərkən və ya musiqi oynayarkən problem həll etmə bacarıqlarını təkmilləşdirirlər. Rəng seçimi, naxışlar yaratmaq və kompozisiya yaratmaq kimi proseslər zehni bacarıqları inkişaf etdirən mühüm addımlardır. Təlim prosesi zamanı "Təsviri incəsənət" fənninin tədrisində yaradıcı uşaqların təxəyyülünün inkişafı naminə səmərəli fəaliyyətin nəticəsi bu ola bilər.

Hətta "Texnologiya" fənnində də əl bacarıqlarının inkişafı görülməkdədir. Hər hansı bir tapşırığı yerinə yetirərkən uşaqlar incə motor bacarıqlarından istifadə edirlər və bu bacarıqlar zaman keçdikcə yaxşılaşır. Bu proses zamanı əl-göz koordinasiyası da yaxşılaşır. Belə də ifadə edə bilərik ki, rəssamlıq, heykəltəraşlıq və ya musiqi alətlərində çalmaq kimi fəaliyyətlər uşaqların daxili aləmlərini və özünü ifadə etməsinə kömək edir. Bu sərbəst ifadə emosional zəkanın inkişafını təşviq edir və uşaqlara emosional olaraq özlərini anlamağa kömək edir. Həmçinin bu fənlərin tədrisi zamanı təlimin, tərbiyənin prinsiplərindən düzgün istifadə mühüm rol oynayır. Şagirdin yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması bu baxımdan daha məqsədəuyğundur. Təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici prinsipinə istinad etməyin bir çox üstünlükləri vardır. Bədii yaradıcılıq fəaliyyətinin təşkilində təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici prinsipi üzrə işlərin həyata keçirilməsi məktəblilərin təhsilləndiricilik imkanlarını genişləndirərək elmi dünyagörüşlərini artırır, onların tərbiyəlilik səviyyəsini yüksəltmiş olur. Bu zaman əxlaq, mənəvi, estetik, ekoloji, iqtisadi, hüquq, işgüzarlıq və əmək tərbiyəsi

https://doi.org/10.36719/2024/XI

üzrə görülən işlər şagirdlərə bir sıra müsbət keyfiyyətlər aşılayır. Bu baxımdan görülən işlər kiçik məktəbyaşlı şagirdləri həm təhsilləndirir, həm tərbiyələndirir, həm də hərtərəfli inkişaf etdirmiş olur. Həmçinin tərbiyənin inandırma, alışdırma, stimullaşdırma üsullarının yerində istifadəsi müsbət nəticələrə gətirib çıxarır.

Bundan əlavə, bədii fəaliyyətlər uşaqların problem həll etmə bacarıqlarının inkişafına kömək edir. Şəkil tərtib edərkən və ya heykəl yaradarkən uşaqlar problemləri tanımaq, alternativ həll yolları tapmaq və nəticələri qiymətləndirmək kimi mühüm bacarıqları tətbiq edirlər.

Digər tərəfdən məktəbdə uşaqların bədii fəaliyyətə cəlb edilməsi, onların bədii istedadlarının inkişafında mühüm əhəmiyyətli dəyişikliklər yaradır. Bunlara aşağıdakıları aid etmək olar.

1. Yaradıcılığı təşviq edir: məktəblərdə “Təsviri incəsənət”, “Musiqi”, “Texnologiya”, “Azərbaycan dili” fənlərinin tədrisi uşaqlara yaradıcı təfəkkür qabiliyyətlərini inkişaf etdirməyə kömək edir. Bu, orijinal ideyalar yaratmağa təşviq edir və şagirdlərə özlərini ifadə etməyə imkan verir.
2. Problemin həlli bacarıqlarını təkmilləşdirir: bədii yaradıcılıq fəaliyyəti problem həll etmə bacarıqlarını təkmilləşdirmək üçün əla vasitədir.
3. Emosional intellektin inkişafına təşviq edir: bədii fəaliyyət emosional zəkanın inkişafına təkan verir. Şagirdlər hiss etdiklərini və düşündüklərini incəsənət vasitəsilə ifadə edərək emosional inkişaf yaşayırlar.
4. Estetik qavrayışı yaxşılaşdırır: bədii yaradıcılıq kiçik məktəbyaşlı uşaqlarda estetik qavrayışı təmin edir. Rənglər, naxışlar, formalar və kompozisiyalar haqqında düşünmə bacarıqlarını təkmilləşdirir və gözəllik qavrayışını artırır.
5. Mədəni məlumatlılığı artırır: incəsənət müxtəlif mədəniyyətlərin bədii ifadəsini tanımağa və anlamağa imkan verir.

https://doi.org/10.36719/2024/XI

Şagirdlər incəsənət vasitəsilə müxtəlif mədəniyyətləri öyrənirlər.

6. Sosial bacarıqları təkmilləşdirir: bədii yaradıcılıqla bağlı layihələr əməkdaşlıq bacarıqlarını artırır. Şagirdlər qrup layihələri və sərgi hazırlıqları zamanı birlikdə işləməyi öyrənirlər. Kollektiv fəaliyyətdə özünü göstərir.

Aparılan tədqiqatdan belə nəticəyə gəlmək olar ki, şagirdlərin istedadlılıq səviyyəsinin aşkarlanması və inkişafı üçün onlar üçün yaradıcı mühit məhdudlaşdırıcı olmamalı, avtoritar və ya həddindən artıq strukturlaşdırılmamalıdır. Bədii yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasında mühüm rolu olan müəllimin özünə güvənən, bilikli, təbii, səmimi, həvəsli olması, şagirdlərin fərdi xüsusiyyətlərini bilməsi, pedaqoji prosesdə təlimin və tərbiyənin prinsiplərindən düzgün istifadəsi əsasdır. Həmçinin bu istiqamətdə valideynlərlə birgə işin önəmi çoxdur. Kiçik məktəbyaşlı şagirdlərin bədii istedadının, bədii yaradıcılıq qabiliyyətinin inkişafı üçün uyğun proqramlarla işləmək lazımlıdır.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 13-16**
**Modern Requirements in Science and Education XI Theses Collection / 13-16**
**https://doi.org/10.36719/2024/XI**

**Sevinc Vəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə dokrotu
veliyeva_1979@bk.ru

# Ekoloji təhsil və ekoloji məsuliyyət hissinin formalaşdırılmasının əhəmiyyəti

***Açar sözlər:*** *ətraf mühit, ekoloji təhsil, ekoloji maarifləndirmə, təhsil müəssisələri, peşəkar kadr hazırlığı, dövlət siyasəti istiqamətləri*

***Keywords:*** *environment, ecological education, ecological enlightment, educational institutions, professional specialist preparation, state policy directions*

Ekoloji təhsil ayrı-ayrı şəxslərə ətraf mühit problemlərini dərk etməyi, bu problemlərin həlli istiqamətində birgə qərarlar verib, birlikdə hərəkət etməyi öyrədir. Bu birgə fəaliyyətin köməyi ilə ətraf mühitin mühafizəsində əməkdaşlıq yaranır, həm də cəmiyyətin bütün üzvlərində ekoloji problemlərə tənqidi və yaradıcı düşüncə vasitəsilə yanaşmaq bacarığı formalaşır. Hər bir vətəndaşda yaşadığı ətraf mühitin qorunması üçün ekoloji məsuliyyət hissinin formalaşdırılması müasir ekoloji təhsilin qarşısında duran əsas şərtlərdən biridir. Cəmiyyətin hər bir üzvü insanların sağlamlığı, daha keyfiyyətli həyat təminantı, gələcək nəsillərin sağlam bir dünyada yaşaması üçün həm özü təbiətə qarşı məsuliyyətli yanaşmalı, həm də öz ətrafında olan insanlardan bunu tələb etməlidir.

Ekoloji mədəniyyət və ekoloji şüurun formalaşmasında ekoloji maarifləndirmənin əhəmiyyəti çox böyükdür. Ekoloji maarifləndirmənin təşkili hər bir təhsil müəssisəsində təşkil olunmalıdır. Təhsil müəssisələrində ekoloji təhsilin həyata keçirilməsi üçün həm nəzəri, həm də praktik imkanlar yara-

dılmalıdır. Təhsilalanlar nəzəri cəhətdən öyrəndiklərini praktik fəaliyyətdə də tətbiq etməlidirlər. Ekoloji təhsil təşkilində təhsil müəssisələri, dövlət, cəmiyyət və ailə birlikdə fəaliyyət göstərməlidir. Yalnız bu zaman qarşıya qoyulmuş məqsədə çatmaq mümkündür. Təhsil müəssisələrində tədbirlər keçirməklə, ekoloji mövzuları mövcud tədris proqramlarına inteqrasiya etməklə, təbiət fənlərinə ayrılan zamanı artırmaqla, təhsilalanlarda daimi bu mövzularla söhbət aparmaqla və onları praktik fəaliyyətə cəlb etməklə və digər vasitələrlə təhsil müəssisələrində ekoloji maarifləndirmə üzrə işi təşkil etmək mümkündür. İnsanları ətraf mühit barəsində məlumatlandırmaqla yer kürəsini fəlakətin əlindən xilas etmək olar. Bu planetin gələcək nəsillərinin daha rifah həyat sürməsi üçün çox əhəmiyyətlidir, bunun üçün hamımız birlikdə çalışmalıyıq.

Ekoloji təhsil və maarifləndirmə bugünkü cəmiyyətin gözlədiyi böyük mövzulardan biridir. Düzdür, xoşbəxtlikdən bu mövzu, getdikcə populyarlaşan bir mövzu olsa da, buna baxmayaraq mütəşəkkil şəkildə həyata keçirilməsinə hələ çox var.

Azərbaycan Respublikasının ərazisində, əhalinin ekoloji təhsilini və maarifləndirilməsinin təşkili üçün Azərbaycan Respublikasının Konstitusiyasından, "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"ndan, "Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu"ndan, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlardan və müqavilələrdən və digər hüquqi normativ sənədlərdən istifadə olunur. Ekoloji təhsil dedikdə, bu bir çoxları üçün maraqsız, sadəcə statistik məlumatlardan ibarət biliklər toplusu kimi gələ bilər. Ekoloji təhsili elə təşkil etmək lazımdır ki, bu hamıya maraqlı gəlsin. Ətraf mühitin çirklənməsinin - plastik tullantıların, zərərli qazların, içməli suyun israfının və s. birbaşa onların və gələcək

nəsillərin sağlamlığına və firavan yaşamasına təsir etdiyini bilməlidir.

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasəti ətraf mühitin mühafizəsi və təhsil haqqında qanunvericiliyin tələblərinə, müvafiq dövlət proqramlarına, habelə bunlara dair ölkədə və beynəlxalq təcrübədə mövcud olan prinsiplərə uyğun həyata keçirilir. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin prinsiplərinə aşağıdakılar aiddir:

- ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması;
- orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi;
- ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi;
- ekoloji təhsil və maarifləndirmə sahəsində aşkarlığın təmin olunması
- ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin həyata keçirilməsində əhalinin və qeyri-hökumət təşkilatlarının iştirakına şərait yaradılması".

Ekoloji təhsil, ekoloji tərbiyə təhsilin ilk pilləsi olan məktəbəqədər təhsildən başlayaraq, fasiləsiz olaraq ömür boyu davam etməlidir. Bunun üçün isə, cəmiyyət, dövlət, təhsil müəssisələri birgə çalışmalı, qanunla müəyyən olunmuş tələblərə, istisnasız riayət edilməlidir. Yuxarıda qeyd etdiyimiz, prinsiplərin hər birinə əməl olunsa, ekoloji təhsili və maariflənməsi problemsiz həyata keçər.

Ekoloji təhsil və maarifləndirmə üçün digər mühüm məsələlərdən biri də peşəkar kadr hazırlığıdır. Ekoloji təhsil və maarifləndirmə üçün peşəkar kadr hazırlığı dedikdə, ekoloqların, elmi, pedaqoji və digər kadrların hazırlanması və ixtisaslarının artırılması nəzərdə tutulur. Bu mütəxəssislər sadəcə bizim cəmiyyətimiz üçün yox, dünya üçün hazırlanmalıdır. Ekoloji problemlər qlobal problemlərdir. Bu problemlərin həl-

https://doi.org/10.36719/2024/XI

lində, ekosistemlərin qorunmasında bütün dünya ölkələri maraqlıdır. Ona görə bu mütəxəssislər hər biri öz sahəsində ixtisaslaşmalı, dövrün aktual problemlərindən çıxış yolu tapmalıdırlar. Cəmiyyətin düzgün şəkildə maariflənməsi də bu mütəxəssislərdən asılıdır.

Ekoloji təhsil ölkəmizdə sistemli şəkildə, bütün təhsil müəssisələrində aparılır. Ekologiya, təbiət və onların qorunması üçün olan mövzular təhsilin ilk pilləsindən başlayaraq proqramlara salınır. Dərsliklərdə bu mövzulara geniş yer verilir. Ekoloji təhsilin keyfiyyətinin yüksəldilməsi üçün, dövlət təhsil standartları qəbul edilmişdir. Ekoloji təhsil üzrə dövlət təhsil standartları qəbul edilərkən, təhsil müəssisələrinin tipləri, təhsilalma formaları mərhələləri üçün nəzərdə tutulan icbari ekoloji təhsil proqramlarının məzmunu müafiq dövlət təhsil standartlarına uyğun müəyyənləşdirilir.

Ekoloji təhsil ömür boyu davam edən və məqsədli resurslardan və gücdən səmərəli istifadəni hədəfləyən hərəkətlər və öhdəlikləri yerinə yetirmək üçün ətraf mühit haqqında şüur, ekoloji bilik, münasibət və ətraf mühitə qarşı dəyər anlayışı yaratmaq üçün bir prosesdir. Adekvat və davamlı inkişaf üçün göstərilən bir fəaliyyətdir.

https://doi.org/10.36719/2024/XI

**Sevinc Abdullayeva**
Heydər Əliyev adına Hərbi İnstitut
eyphoriya@inbox.ru

# XX əsrdə Azərbaycanda demoqrafik vəziyyət

***Açar sözlər:*** *demoqrafiya, demoqrafik vəziyyət, əhalinin qeydiyyatı, nəsilvermə əmsalı, miqrant*
***Keywords:*** *demography, demographic situation, population registration, fertility rate, migrant*

Azərbaycanda əhalinin qeydiyyata alınması tarixi təqribən 1897-ci ildən başlayır. İlk qeydiyyata alma nümunəsi ümumrusiya təcrübəsinə istinadən aparılıb. XIX əsrin sonlarından başlayaraq XX əsrin əvvəllərinə kimi Azərbaycan əhalisinin artım tempi əsasən Rus imperiyasının köçürmə siyasəti, Bakıda neft mədənlərinin fəaliyyətə başlaması ilə ölkə ərazisinə daxil olan kütləvi miqrantlar və sonradan onların yerli əhaliyə qarışıb burda məskən salmaları hesabına baş verirdi.

XX əsrin əvvəllərində Azərbaycan bölgələrində və Bakıda ermənilər tərəfindən yerli müsəlman əhaliyə qarşı aparılan soyqırım siyasəti və sovet hakimiyyətinin elan olunması ilə başlayan milli azadlıq hərəkatlarında verilən tələfatlar əhalinin inkişaf və say tempinə böyük zərbə vurmuşdu. Sonralar 1941-1945-ci il II dünya müharibəsi dövründə, SSRİ-nin tərkibinə daxil olan digər respublikalarla müqayisədə Azərbaycan daha çox insan itkisinə məruz qalmışdı. 1947-ci ildə baş vermiş ərzaq qıtlığı və ölüm hallarının olmasına baxmayaraq, həmin ərəfədə Ermənistandan deportasiya edilən azərbaycanlıların köçü, ölkədə əhali sayında artımla müşayət olundu.

1950-ci ildən 1975-ci ilə kimi isə əhali daxilindəki reproduktiv qadınların sayının çoxluğuna görə sürətli təbii artım müşahidə olundu. 1970-ci illərdə artan sənayeləşmə və

sosial-mədəni inkişaf şəhər və kənd əhalisinin sayının artaraq bərabərləşməsinə və şəhər əhalisinin ümumi əhali içərisindəki sayının sonraki illər ərzində artan xətt üzrə irəliləməsinə səbəb olmuşdur.

1990-cı ildən başlayaraq ərazilərimizin işğala məruz qalması, silahlı münaqişələr və hərbi təcavüz demoqrafik tərkibə əsaslı təsir göstərmişdi. Həlak olan insanların arasında reproduktiv qabiliyyətli kişilərlə bərabər, qadınların da çoxluq təşkil etməsi, yaralanan, əsir götürülən, öz yurd-yuvasından qaçqın və məcburi köçkün vəziyyətinə düşən əhalinin orta illik artımı 1,3%-ə qədər azalmışdı. Bu azalma miqyası təqribən 2000-ci illərə qədər davam etmişdir. 2000-ci ildən sonra qarşıdakı 20 illik zaman aralığında iqtisadi yüksəliş dövrünün başlaması ilə əhali sayında əsaslı dönüş yarandı. Azərbaycan əhalisi 2 milyon nəfər (25%) artımla 10 milyon nəfərə çatdı.

Son iyirmi ilin müsbət tendensiyalarına baxmayaraq, BMT Əhali Fondu və İnkişaf Agentliyinin Azərbaycanda əhalinin demoqrafik vəziyyətinə dair hesabatında ölkə üzrə əhali sayının 11 milyona çatma ehtimalı 2045-ci ilə proqnozlaşdırılır. Əhali artımının ötən illər üzrə dinamikasına və artım göstəriciləri vəziyyətinə görə 2050-ci ilə qədər əhalinın artım dinamikası 12 milyon nəfəri keçməyəcəyi, hətta həmin illərdən etibarən azalan tendensiya üzrə davam etmə ehtimalı irəli sürülür.

2000-ci illərdə 1,8 təşkil edən nəsilvermə əmsalı, 2008-2009-cu illərdə daha da artaraq, 2.5%-ə yüksəlib. Dünyada cərəyan edən sosial-iqtisadi, mədəni dəyişikliklər və ölkə əhalisinin də dünya ilə ayaqlaşmaq, qloballaşma, müasir tələblər nəsilvermə əmsalında azalmaya səbəb oldu. Hazırkı dövrdə isə yenidən azalan xətt üzrə davam edir. BMT-nin Əhali Fondu bu tendensiyaları əsas göstərərək, azalma səbəblərini əhalinin orta yaş həddinin yüksəlməsi, yaşlanması göstəriciləri ilə əsaslandırır. Hazırda ölkə üzrə əhali artımı dünya əhalisinin orta illik

https://doi.org/10.36719/2024/XI

artımı ilə eynilik təşkil edir. Yaşlanma tendensiyasının hazırda dünya əhalisinin göstəricilərinə uyğun olmasına baxmayaraq, səhiyyə, sosial və digər ictimai xidmət sahələrinin inkişafı, tibbin son nailiyyətlərini nəzərə alsaq, orta yaş həddinin yüksəlməsi əhalinin uzunömürlülüyünün artımı ilə izah oluna bilər.

2024-cü il üzrə respublikamızda cərəyan edən demoqrafik vəziyyət rəqəmlərlə belədir.

İlin əvvəlindən ölkə əhalisinin sayı 6769 nəfər və ya 0,1 faiz artaraq 2024-cü il mart ayının 1-i vəziyyətinə 10.187539 nəfərə çatmışdır. Əhalinin bir kvadrat kilometrə düşən sayı 118 nəfər olmuşdur. Əhalinin ümumi sayının 54,5 faizi şəhər, 45,5 faizi kənd sakinləri təşkil edir. Əhali arasında kişi və qadınların faiz nisbəti  kişi cinsi 49,8%, 50,2 % qadınlardan ibarətdir.

Son bir il ərzində doğulan körpələr arasında oğlan uşaqlarının faiz göstəricisi 52,5%, qız uşaqlarının faiz nisbəti isə  47,5% olmuşdur.

Bu ilin ilk iki ayı ərzində ölkədə 10395 ölüm halı qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi azalaraq 6,8-dən 6,2-yə düşmüşdür.

Qeyd olunan təhlillər ötən illərlə müqayisədə cari vəziyyət və dövlətin demoqrafik sahədəki siyasəti və görülən işlər yaxın gələcəkdə demoqrafik vəziyyətin kəskin dəyişməyəcəyi, mənfi istiqamət üzrə tendensiyaların müşahidə olunmayacağına əsas verir.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 20-23**
**Modern Requirements in Science and Education XI Theses Collection / 20-23**
**https://doi.org/10.36719/2024/XI**

**Eynur Rüstəmov**
Heydər Əliyev adına Hərbi İnstitut
eynur.rustamov@mail.ru

# Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının hüquqi əsasları

***Açar sözlər:*** *Milli təhlükəsizlik, hüquqi, ali baş komandan, təhlükəsizlik doktrinası, müstəqil dövlət*
***Keywords:*** *National security, legal, supreme commander, security doctrine, independent state*

Hər bir dövlət müstəqilliyinin qorunması məqsədilə ilk növbədə həyata keçirdiyi əsas tədbirlərdən biri də milli təhlükəsizlik məsələləridir. Azərbaycan Respublikası da son iki yüz ildə müstəqilliyi uğrunda apardığı mübarizə nəticəsində 1991-ci ildə BMT çərçivəsində öz müstəqilliyini bəyan etdi və dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanındı.

Azərbaycanı müstəqil dövlət kimi tanımaq istəməyən ölkələr də tapıldı. Belə ölkələr fürsətdən istifadə edərək tarixi düşmənimiz ermənilərin əli ilə 1991-1994-cü illərdə 20% torpaqlarımızı işğal etdilər və 30 ilə yaxın bir müddətdə torpaqlarımızı işğal altında saxladılar. Bütün bunlara baxmayaraq, qədirbilən Azərbaycan xalqı öz lideri, Silahlı qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında xalq və qəhrəman ordumuzla birlikdə 20% torpaqlarımızı düşmən tapdağından azad etdilər.

Ərazilərini bərpa etmiş müstəqil dövlətimiz bir daha xarici aqressorun təcavüzünə məruz qalmamaq, vətənimizin müdafiə və təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə təhlükəsizlik məsələlərinə xüsusi diqqət ayırır.

Dövlətimizin müdafiə və təhlükəsizlik məsələləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 26

sentyabr 2024-cü ildə Milli Məclisin 7-ci çağırışı deputatlarının qarşısında təbrik nitqi ilə çıxışı zamanı dövlətimizin təhlükəsizlik məsələlərinə xüsusi önəm verərək onların qarşısında bir sıra tapşırıqlar qoyaraq eyni zamanda bu istiqamətdə xalqa da müraciət etmişdir.

“Xalq, ordu və hakimiyyət birliyi müstəqil, təhlükəsiz Azərbaycanımızın təminatçısıdır”.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir (Azərbaycan Respublikasının Konstitusiyası, 2022).

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin subyektləri insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır.

Azərbaycan Respublikasının milli maraqları - Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inкişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur (Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 2021).

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi vahid dövlət siyasətinin hazırlanması, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, eкoloji, elm, mədəniyyət və mənəviyyat, habelə digər sahələrdə milli maraqların qorunması prosesinin кompleкs fəaliyyət şəklində səmərəli tətbiqi üçün yarardılır.

Azərbaycan Respubliкasının milli təhlüкəsizliyinin təmin olunması məqsədlərinə - insanın təhlüкəsizliyi, cəmiyyətin təhlüкəsizliyi, dövlətin təhlüкəsizliyi daxildir.

https://doi.org/10.36719/2024/XI

Azərbaycan Respublikasının milli təhlükəsizlik doktrinası aşağıdakı qüvvə və dövlət orqanlarının fəaliyyəti hesabına təmin edilir:

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları-dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin etmə qabiliyyətinə malik olan qurumlardır.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları aşağıdakılardır:

- Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr;
- Azərbaycan Respublikasının xüsusi xidmət orqanları;
- polis, prokurorluq, gömrük, vergi və digər hüquq mühafizə orqanları;
- sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları və milli təhlükəsizliyinin təmin olunmasında iştirak edən digər dövlət orqanları.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada qarşılıqlı fəaliyyət göstərir və səlahiyyətləri ilə bağlı məsələlərlə əlaqədar bir-birini qarşılıqlı surətdə məlumatlandırırlar.

Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanları öz səlahiyyətləri daxilində:

- Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlər planlaşdırır və həyata keçirirlər;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər verirlər;

- Azərbaycan Respublikasının milli təhlükəsizliyi sahəsində qanunlara və digər normativ-hüquqi aktlara riayət olunmasını təmin edirlər;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görürlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası (2022). Hüquq ədəbiyyatı.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi (2021). Qanun nəşriyyatı.

**Zita Hüseynova**
Azərbaycan Dövlət Aqrar Universiteti
zita_huseynova@mail.ru
**Gülruyyə Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
mammadovagulriyya@gmail.com

# Aqrar sahədə xarici dilin tədrisinin müsbət xüsusiyyətləri

***Açar sözlər:*** *xarici dil, peşəkar terminologiya, innovativ tədris metodları, informasiya və kommunikasiya texnologiyaları, tədris sahələri*

***Keywords:*** *foreign language, professional terminology, innovative teaching methods, information and communication technologies, teaching areas*

Hazırda Azərbaycan Respublikasının beynəlxalq iqtisadi və siyasi məkanda artan rolu və ölkəmizdə yerləşən müxtəlif yerli və xarici şirkətlərdə çalışan xarici mütəxəssislərin böyük axını ilə əlaqədar olaraq, ümumilikdə respublika vətəndaşlarının biliklərinin əhəmiyyəti və aqrar-sənaye, maşınqayırma, dəmir yolu energetikası və digər şirkətlərin işçiləri, xüsusən də ingilis və alman dilləri mədəniyyətlərarası və işgüzar ünsiyyətin ən mühüm vasitələrindən biri kimi mühüm rol oynayır.

Ona görə də bu və digər ixtisaslar üzrə təhsil alan tələbələrin effektiv ünsiyyət qurmaq üçün kifayət qədər peşəkar ingilis və alman dili biliklərinə ehtiyacı var.

Bu baxımdan, peşəkar ünsiyyət vəziyyətlərinə mümkün qədər yaxın olan müəyyən situasiyalarda verilmiş mövzular üzrə dinləmə bacarıqlarının, dialoq və monoloq nitqinin təkmilləşdirilməsini nəzərdə tutan "Peşəkar yönümlü xarici dili" fənni üzrə praktiki məşğələlər xüsusi əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2024/XI

Aydındır ki, universitet tələbələrinin xarici dili yalnız gündəlik səviyyədə mənimsəməsi kifayət deyil, həm də onlara ədəbiyyat, o cümlədən peşəkar ədəbiyyat oxumağa imkan verən peşəkar xarici dilin normalarını bilməlidirlər. Bu onlara elmi ədəbiyyat, beynəlxalq təcrübədə istifadə olunan ən son metod və texnologiyalardan istifadə etməklə öz elmi tədqiqatlarını aparmaq üçün lazımi məlumatları əldə etməyə köməklik göstərəcək.

Üstəlik, tədqiqatlarının nəticələrini təqdim etmək və beynəlxalq səviyyədə tanınmaq üçün elmi məlumatları təkcə öz ana dillərində təqdim etmək kifayət deyil və bir çox hallarda gənc tədqiqatçılara xarici dilin (ingilis və ya alman)  elmi üslubunda ünsiyyət bacarıqları lazımdır.

Buna görə də, peşəkar ünsiyyət vəziyyətlərində xarici dilin öyrənilməsinin aktuallığı aydın olur, çünki bu, tələbələrin verilən kommunikativ vəziyyətlərdə peşəkar yönümlü materialı öyrənməsini əhatə edir. Bu fənnin tədrisinin əsas məqsədləri peşəkar yönümlü materialın öyrənilməsi, ondan verilmiş peşəkar situasiyalarda istifadəsi və gələcək peşə fəaliyyətlərində xarici dildən praktiki istifadə üçün kifayət qədər bacarıqların formalaşdırılması kimi sahələrdir.

Bundan əlavə, ingilis dilinin və ya alman dilinin ünsiyyət bacarıqlarının daha da təkmilləşdirilməsi tələbələrin xarici dildə belə bir səviyyəli linqvistik səriştəyə yiyələnməsinə kömək edəcək ki, bu da onlara öz ixtisasları üzrə ədəbiyyatı müstəqil öyrənməyə, xarici ölkələrdən olan tərəfdaşlar və onların iş təcrübələri ilə tanış olmağa, ən əsası isə birbaşa ünsiyyət qurmağa imkan verəcəkdir.

Bu gün tələbənin intellektual səviyyəsini şərtləndirən əsas keyfiyyətlərdən biri onun yaradıcı düşünmək və reallığın yeni çağırışlarına cavab vermək bacarığıdır. İnnovativ təlim metodlarının tətbiqi nəticəsində tələbələrdə bu bacarıqları inkişaf etdirmək biz müəllimlərin əsas məqsədidir.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 26-28
Modern Requirements in Science and Education XI Theses Collection / 26-28
https://doi.org/10.36719/2024/XI

**Sevinc Abdullayeva**
Heydər Əliyev adına Hərbi İnstitut
eyphoriya@inbox.ru

# Hərbçi şəxsiyyətinin formalaşmasına psixo-emosional halların təsiri

***Açar sözlər:*** *hərbçi şəxsiyyəti, liderlik, şəxsiyyət, empatiya, emosional keyfiyyətlər*
***Keywords:*** *military identity, leadership, personality, empathy, emotional qualities*

Hərbçi şəxsiyyətinin formalaşmasına təsir edən amillərdən danışanda, birinci növbədə ona fərd kimi şəxsi yanaşmanı nəzərdə tutaraq fərqləndirmək lazımdır.

Hərbi qulluqçunun sosial inkişaf şəraitini təhlil etmək üçün, onun kollektivdə tutduğu yeri, onun öz mövqeyinə münasibətini, ətrafdakı döyüşçülərlə qarşılıqlı münasibətlərinin xüsusiyyətlərini və fəaliyyətinin xarakterini aydınlaşdırmaq lazımdır. Hərbi qulluqçunun düşdüyü sosial birlik tipindən asılı olaraq, fərqli sosial situasiyalarda şəxsiyyətin inkişafının uyğunlaşma, fərdiləşmə və birləşmə kimi üç əsas mərhələsi fərqləndirilir. Uyğunlaşma dedikdə yeni şəraitdə inkişafın birinci mərhələsi kimi həmin qrupda işlənən normaların fəal surətdə qavranılması və fəaliyyətin müvafiq forma və vasitələrinə nail olmanı ifadə edir. İnsanda "hamı kimi" olmaq üçün obyektiv zərurilik yaranır. Bu, "ümumi kütlə"də ərimənin baş verə biləcəyi xəyali şəraitdə özünün bəzi fərqliliklərinin itirilməsi, onun subyektiv yaşantıları hesabına əldə edilir. Qrup şəklində keçən fəaliyyətdə həmin fərddə olmayan, qrupun digər üzvlərində olan və qrup formasında inkişafın səviyyəsinə uyğun yeni törəmələr üçün əlverişli şərait yaranır.

**https://doi.org/10.36719/2024/XI**

Fərdiləşmə - əldə edilmiş uyğunlaşma səviyyəsi nəticəsində maksimal personallaşmaya olan tələbatın qeyri-məqbulluğu arasında kəskinləşən ziddiyyətlərdən yaranır. Bu mərhələdə insan öz fərdiliyinin təsbit edilməsi üçün vasitə və üsullar axtarır. Digər insanların qarşısında ideal təmsil olunmaq üçün maksimum dərəcədə öz qabiliyyətlərini həm göstərməyə, həm də istifadə etməyə can atır.

Birləşmə mərhələsində fərdiləşməyə can atma ilə daxil olduğu birliyin nümayiş edilən yalnız fərdi xüsusiyyətlərinin qəbul edə bildiyi və onun dəyərlərinə uyğun gələn tələbatı arasında determinasiya baş verir. Nəticədə üzə çıxmış bu müsbət fərqlər qəbul olunur və dəstəklənir, şəxsiyyətin və birliyin inteqrasiyası baş verir. Bu halda fərd öz liderlik keyfiyyətlərini göstərmiş olduqda, qrupun müəyyən hissəsini öz arxasınca apardığı hallarda qrup dəyərlərində və normalarda hansısa bir dəyişiklik də baş verə bilər. Bu mərhələdə fərddə şəxsiyyətin yeni keyfiyyətləri formalaşır. Deməli, hərbçinin bir şəxsiyyət kimi formalaşması prosesi vasitəli xarakter daşıyır. O, fəaliyyət və ünsiyyət prosesində ictimai münasibətləri mənimsəyir. Hərbçi şəxsiyyəti formalaşdıqca, onun fəaliyyətinin xarakteri köklü surətdə dəyişir. Onun tələbatları əsasında, onun fəaliyyətinin motivləri formalaşır. Bundan asılı olaraq fəaliyyətin tərkibinə daxil olan bütün idrak proseslərinin də xarakteri dəyişir. Onlar şəxsiyyətin xüsusiyyətləri ilə şərtlənməyə başlayırlar. Beləliklə, fəaliyyət prosesində hərbi qulluqçunun tələbat-motiv, emosiya və idrak sahələri bir-birinə nüfuz edir, onlar tədricən qarşılıqlı əlaqədə inkişaf etməyə başlayırlar.

Psixika, şüur və şəxsiyyətin özü kommunikativ təbiətə malikdir. İnsanın psixi fəaliyyəti digər insanlarla kommunikativ əlaqələrdən də asılıdır. Yəni ünsiyyət prosesi xüsusi əhəmiyyəti daşıyan amildir. Hərbçi ünsiyyət prosesində özünə digər insanların gözü ilə baxmağı, empatiya qurmağı, davranış və

rəftarını təhlil etməyi, onlarla birlikdə sevinməyi və kədərlənməyi öyrənir. Bununla ünsiyyət prosesində digər insanların sevinci və kədəri onun öz sevinci və kədərinə, sərvətinə çevrilir, döyüşçü başqalarının həm sosial, həm də psixoloji təcrübəsinə yiyələnir, mənəvi cəhətdən zənginləşir, onun inkişafı üçün yeni şərait yaranır.

Beləliklə, ünsiyyət prosesində hərbi qulluqçu emosional cəhətdən inkişaf edir. O, hisslər mədəniyyətinə yiyələnir, onda özünə hörmət, ləyaqət, qürur hissi formalaşır.

Şəxsiyyətin formalaşmasında xüsusi emosional keyfiyyətlərə onun hissi davranışı, emosiyalarının dayanıqlılıq tərzi, öz emosiyalarını tez büruzə vermək və ya əksinə bunları daim nəzarətdə saxlaya bilmək; şəxsiyyətin intellektual (koqnitiv) keyfiyyətləri – rasional yanaşma, beyinin assosiativ qabiliyyəti, ümumi-xüsusi, səbəb-nəticə arasında əlaqəni görə bilmək qabiliyyəti, çıxarılan nəticələrin ehtimallıq faizi, motivlərinin subyektiv-obyektivlik dərəcəsi, erudisiya potensialı xüsusi rola malikdir.

Hərbçi şəxsiyyətinin formalaşmasında xüsusi rolu olan digər keyfiyyətlər onun məqsəd və motivləri seçə bilmək qabiliyyəti, ortaya çıxan maneələrin dəf edilməsi üçün fiziki və psixi imkanları səfərbər edə bilmək qabiliyyətləri də aiddir.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, hərbçi şəxsiyyəti cəmiyyətdə olan ictimai münasibətlərin, həyat tərzinin, ideologiya və siyasətin təsiri ilə formalaşır. Bununla yanaşı, hərbçi şəxsiyyətinə hərbi xidmətin çoxsahəli olması - döyüş təlimləri, döyüş növbəsi, qaravul və gün xidməti, komandir tərəfindən verilmiş tapşırıqların yerinə yetirilməsi və i.a. təsir edir.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 29-32**
**Modern Requirements in Science and Education XI Theses Collection / 29-32**
**https://doi.org/10.36719/2024/XI**

**Rəcəb Bəyəliyev**
Heydər Əliyev adına Hərbi İnstitut
beyeliyevreceb@gmail.com

# Dövlətin milli strategiyasında İlham Əliyevin rolu

***Açar sözlər:*** *Azərbaycan, İlham Əliyev, prezident, milli strategiya, kommunikasiya*

***Keywords:*** *Azerbaijan, Ilham Aliyev, president, national strategy, communication*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı cənab Prezident İlham Əliyevin dövlətin Milli Strategiyasının formalaşmasında xüsusi rolu vardır. İlham Əliyev ilk növbədə Milli strategiyamızın prioritet sahələri kimi - ilk növbədə dövlətin müdafiəsi, xarici aqressor qarşısında milli müdafiə məsələlərinin həlli; milli təhlükəsizlik strategiyası; milli inkişaf strategiyası; milli su strategiyası; Qarabağ iqtisadi zonasının bərpası və s. müəyyən etmişdir.

Son illər Azərbaycanda sosial, siyasi və iqtisadi sahədə olduğu kimi Milli Strategiya sahəsində də uğurlu islahatlar aparılmış, müdafiə və təhlükəsizlik sahəsində xüsusi işlər aparılmış, nəticə olaraq böyük uğurlara imza atılmışdır.

Milli strategiya – hakimiyyət və dövlət münasibətlərinin xarakteristikasından danışarkən hansı dövlət barəsində söhbətin getməsindən asılı olmayaraq həmin dövlətin siyasi quruluşuna, sözügedən dövlətin tarixi və dövlət quruluş formalarına nəzər salınmalıdır. Milli strategiyamızda hakimiyyət və dövlət münasibətlərini xarakterizə edərkən görürük ki, Azərbaycan cənubi Qafqazın lider ölkəsi olması ilə bərabər, dünya dövlətləri və siyasi elitası arasında kifayət qədər nüfuza malikdir. Ölkədə gedən siyasi proseslər və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi bunu deməyə əsas verir. 2003-cü ildə

https://doi.org/10.36719/2024/XI

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hakimiyyətə gəldikdən sonra isə dövlətimizə rəhbərliyi dövründə ölkəmizin beynəlxalq aləmdə nüfuzu daha da artmışdır. Ordumuz yeni inkişaf mərhələsinə qədəm qoymuş, ən müasir silahlarla təmin edilmiş, Türkiyə Silahlı Qüvvələri ilə birgə təlimlərdə iştirak edərək döyüş hazırlığını müasir tələblərə uyğun səviyyəyə çatdırmağa nail olmuşdur. 2020-ci il 44 günlük Vətən müharibəsinin nəticələri bunun faktiki sübutu kimi qiymətləndirilməlidir. 2-ci Qarabağ müharibəsindəki Qələbəmiz son 200 ildə Azərbaycan tarixində işğal edilmiş torpaqların geri qaytarılmasında bir ilk idi. Bu hadisəyə qədər tarixi Azərbaycan torpaqları ancaq işğallara məruz qalmışdır. Xalq Prezidentin, Silahlı Qüvvələrin Ali Baş Komandanının bu sahədə fəaliyyətlərini yüksək qiymətləndirir və həmişə prezidentini dəstəkləyir. Prezidentini dəstəkləyərək yüksək vətənpərvərlik ruhunda döyüşən Azərbaycan əsgərinin qarşısından erməni əsgərləri hətta döyüş bölgəsində silahlarını tərk edib qaçırdılar. Nəhayət 44 günlük müharibənin nəticəsi olaraq Qarabağ ermənilərdən azad edildikdən sonra Ermənistanın baş naziri N.Paşinyanın Rusiyanın iştirakı ilə kapitulyasiya aktına imza atması ilə Vətən müharibəsinin  başa çatması barədə elan edilmişdir.

44 günlük Vətən müharibəsinin Azərbaycanın tam qələbəsi ilə, 20% işğalda olan torpaqlarımızın azad edilməsilə başa çatması beynəlxalq aləmdə Azərbaycan əsgərinin və xalqının nüfuzunu artırdı, xalq və hakimiyyət birliyini daha da artırdı. Düşmənin müharibədən sonrakı revanşist hərəkətləri Azərbaycan rəhbərliyini hər an baş verə biləcək xarici təsirlərə qarşı hazır olmağa, bu məqsədlə ordu quruculuğu və onun texniki təminatı barədə məsələləri daima gündəlikdə saxlamağa, ordunun döyüş hazırlığı istiqamətindəki fəaliyyətlərini daima nəzarətdə saxlamaqla əməli işlər görməyə məcbur edir.

Bütün bunlarla bərabər, Azərbaycan dünya dövlətləri ilə siyasi, iqtisadi, ticari, mədəni sahələrdə əlaqələri möhkəmləndirir, beynəlxalq təşkilatların işlərində fəal iştirak edir, beynəlxalq münaqişələrin beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində tövhələr verir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik rəhbərliyi və komandanlığı sayəsində 2-ci Qarabağ müharibəsində 20% işğal altında olan torpaqlarımızın azad edilməsilə bitən qələbəmiz nəticəsində dünyada Azərbaycanın hər sahədə olduğu kimi dilimizin də nüfuzunun daha da yüksəklərə qaldırmasına nail olduq.

Son illərdə ölkəmizdə siyasi dialoqun, demokratik təsisatların inkişafı, siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində mühüm addımlar atılıb. Siyasi dialoqun təşviq olunması istiqamətində dövlətin təşəbbüsləri konstruktiv siyasi münasibətlər sisteminin möhkəmlənməsinə ciddi töhfə verib.

Azərbaycanın həm daxili, həm də xarici təhlükəsizliyinin təmin edilməsi ilə bağlı aparılan məqsədyönlü siyasət və görüləcək uğurlu işlər haqqında prezident İlham Əliyev demişdir: “Təhlükəsizliklə bağlı tədbirlər indi bütün ölkələri düşündürür. Biz bu işlərlə ciddi məşğuluq və məhz buna görə də Azərbaycanda kriminogen durum çox müsbətdir. Biz adambaşına düşən cinayətlərin sayının azlığına görə ən yaxşı yerlərdən birini tuturuq. Azərbaycanda siyasi, iqtisadi islahatlar insanların rifahı halının yaxşılaşdırılması, eyni zamanda, təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində bu gün deyə bilərəm ki, ölkədə daxili təhlükə mənbəyi yoxdur. Əlbəttə ki, xaricdən təhdidlər ola bilər, xüsusilə terrorizmlə bağlı təhdidlər. Ancaq bizim hüquq-mühafizə orqanları bu məsələlərlə bağlı ciddi fəaliyyət göstərirlər. Əminəm ki, Azərbaycan xalqı bundan sonra da təhlükəsizlik şəraitində yaşayacaqdır”.

https://doi.org/10.36719/2024/XI

Respublikamızda keçirilən çoxsaylı beynəlxalq tədbirlər və dünyanın lider ölkələrinin başçılarının Azərbaycana vaxtaşırı səfərlərini dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artması kimi də dəyərləndirmək olar. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Azərbaycanda keçirilməsinin planlaşdırılması kimi beynəlxalq miqyaslı tədbirləri dövlətimizin regionda və dünyada artan nüfuzunun bariz nümunəsi və göstəricisidir.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 33-36
Modern Requirements in Science and Education XI Theses Collection / 33-36
https://doi.org/10.36719/2024/XI

**Ramil Qasımov**
Heydər Əliyev adına Hərbi İnstitut
ramilqasimov@mail.ru

# 44 günlük müharibədə əldə edilmiş qələbənin başlıca səbəbləri

***Açar sözlər:*** *Qarabağ müharibəsi, Qarabağ konflikti, qələbə, xarici siyasət, ordu quruculuğu*
***Keywords:*** *Karabakh war, Karabakh conflict, victory, foreign policy, army building*

Vətən müharibəsində qələbənin qazanılmasının bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, qələbə milli birlik əzmi, millətin dövlət rəhbərinə dərin inamı və yüksək milli ruh nəticəsində qazanıldı. Ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların nümayəndələri olan gənclər işğalçıya qarşı azadlıq müharibəsində bir yerdə oldular. Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycandakı bütün gənclərin işğalçılara qarşı döyüşlərə bərabər getməsi ölkənin böyük sərvəti idi. Prezident İlham Əliyev bununla əlaqədar olaraq deyirdi: "Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik". Gənc vətənpərvər nəsil düşmənə qarşı mübarizədə fədakarlıq etdi. Ölkə rəhbəri torpaqların işğaldan azad edilməsində qəhrəmanlıqlar göstərmiş insanların fəaliyyətini belə qiymətləndirdi: "Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi... Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər."

Ölkədə fəaliyyət göstərən siyasi partiyalar və ictimai təşkilatlar bəyanat verərək Vətən müharibəsində dövlətin yanında olsalar da, bəzi anti-milli qruplar fərqli mövqe nümayiş etdirdilər. Həmin qrupların məqsədi Azərbaycanı qarışdırmaq, xaos və anarxiya yaratmaq, rəhbərliyi hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq idi. Dövlət başçısı belə qruplar haqqında deyirdi: "Bizim şanlı Ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb." Qələbənin qazanılmasında ikinci iqtisadi amil, Azərbaycanın iqtisadi qüdrəti vacib rol oynadı. İqtisadi hazırlıq olmadan düşmənə qalib gəlmək mümkün deyildi. Ölkədə aparılan düzgün iqtisadi siyasət qüdrətli dövlətin yaradılmasında və düşmən üzərində qalib gəlməkdə başlıca rol oynadı. Ermənistan iqtisadi güc baxımından Azərbaycanla rəqabət apara bilməzdi. Dövlət başçısının fikrincə: "...iqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik - istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından..

Müharibədə qələbə qazanmaqda üçüncü əsas amil - ordu quruculuğu başlıca rol oynadı. Ötən illər ərzində ölkədə ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, müasir ordu, müdafiə sənayesi, hərbi sənaye kompleksi yaradılmışdı. Azərbaycan Ordusu gücünə görə, dünyanın ilk 50 ordularının cərgəsindədir. Bununla əlaqədar olaraq ölkə başçısı bildirirdi: "... ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir".

Müharibədə qələbənin qazanılmasında dördüncü əsas amil yürüdülən uğurlu xarici siyasət fəaliyyəti, informasiya işi, qonşu dövlətlərlə mehriban münasibətlərin qurulmasıdır. Ötən

https://doi.org/10.36719/2024/XI

illər ərzində Azərbaycan dövləti bölgədə şəraiti dəyişdirə, tərəfdaşlarının sayını artıra bilmişdi. Qələbənin qazanılmasında beynəlxalq hüquqi baza əsaslı yer tutmuşdu.

2005-ci ilə qədər əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələri olsa da, onlar icra edilmirdi. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası, BMT Baş Məclisi, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri uzun müzakirədən sonra aparılan işlər nəticəsində Azərbaycanı qane edən qətnamə qəbul etmişdi. Bütün bunlar ərazilərin işğaldan azad edilməsində beynəlxalq hüquqi baza olmuşdu.

Nəhayət, qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahli Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üstün zəkası, yüksək sərkərdəlik məharəti, diplomatiyası qəti iradəsi və strategiyası mühüm rol oynadı.

"Qərb" ilə "Şərq" sivilizasiyası toqquşmasının qlobal hərbi, siyasi, iqtisadi təmas xətti üzərində, mərkəzində yerləşən Cənubi Qafqazda gedən savaşın əsas iştirakçılarının hərbi qarşıdurmasında Azərbaycan Respublikası qalib gəldi. "Avropa dəyərləri", "Demokratiya" simasında "Qərbi" təmsil edən Ermənistan məğlub oldu. Cənubi Qafqazda təzyiq, təhdid, təhlükə mənbəyi və siyasi, iqtisadi problem düyünü olan "Dağlıq Qarabağ Konflikti" hərbi-siyasi güclə açıldı və öz uzun müddətli həllini tapdı. Qərbin Cənubi Qafqazda təsir aləti olan Minsk Qrupu adlı qurum öz əhəmiyyətini itirdi.

"Şərq dəyərlərinin" - "Avtoritar" idarə sisteminin, "Avropa dəyərləri" - "Demokratik" idarə sistemindən bariz üstünlükləri sivilizasiyaların qlobal qarşıdurmasında öz təsdiqini tapdı. "Avropa dəyərləri"nin və "Demokratiyanın" dünyada ekspansiyası Cənubi Qafqazda dayandı, Yaxın Şərqdə isə sarsıldı.

Azərbaycan və Türkiyə müharibənin nəticəsinə həsr edilmiş qələbə paradında Rusiya, İran, Gürcüstan və Ermənistanın daxil ola bilcəyi "altılıq" platformasının yaradılması təklifini

https://doi.org/10.36719/2024/XI

səsləndirdi. Bu bəyanatla Şimal Buzlu okeandan-Hind okeanı sahilinədək ərazidə Qərb ilə Şərq, Şimal və Cənub arasında bütün kommunikasiyaları əhatə edəcək hərbi, siyasi, iqtisadi əməkdaşlıq formatın konturları elan edildi.

Türkiyə ölkənin şərq sərhədlərində “etibarlı və tərəfdaş qonşu”, Naxçıvandan yaradılacaq quru nəqliyyat dəhlizi vasitəsi ilə Azərbaycan ərazisindən Xəzər dənizinə və “Türk Dünyası”na birbaşa çıxış əldə etdi.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 37-40
Modern Requirements in Science and Education XI Theses Collection / 37-40
https://doi.org/10.36719/2024/XI

**Kəmalə Xudaverdiyeva**
AMEA-nın akad. Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
doktorant
kamala.khudaverdiyeva@bk.ru

# Mərkəzi Asiyanın türk dövlətləri və Ermənistan arasında əməkdaşlıq əlaqələri

***Açar sözlər:*** *Qazaxıstan, Mərkəzi Asiya, əməkdaşlıq, mədəni-humanitar əməkdaşlıq, türk dövlətləri, regional, diplomatik*

***Keywords:*** *Kazakhstan, Central Asia, cooperation, cultural and humanitarian cooperation, Turkish states, regional, diplomatic*

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutundan sonra bir sıra dövlətlər, o cümlədən Mərkəzi Asiyanın türk dövlətləri və Cənubi Qafqaz Respublikaları öz müstəqilliklərini əldə etmək imkanı qazanmışdılar. Bu fürsətdən yararlanan hər iki region dövlətləri ilk olaraq həm qonşu, həm də digər Sovet İttifaqı tərkibində olmuş dövlətlər ilə siyasi-diplomatik, ticarət-iqtisadi və mədəni-humanitar istiqamətli əməkdaşlığı və qonşuluq əlaqələrini inkişaf etdirmək, ölkənin daxili və xarici vəziyyətini yaxşılaşdırmaq üçün bir çox tədbirlər həyata keçirməyə başlamışdılar. Bu addımlara nümunə kimi MDB-nin yaradılması təşəbbüsünü misal göstərmək olar. MDB Belarus SSR, Rusiya SSR, Ukrayna SSR rəhbərləri tərəfindən 8 dekabr 1991-ci ildə yaradılmış, 1991-ci ilin 21 dekabrında isə Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukraynanın rəhbərləri Almatı Bəyannaməsini imzalamışdılar.

**https://doi.org/10.36719/2024/XI**

MDB daxilində yaradılan bütün münasibətlər özünü, demək olar ki, əməkdaşlığın bütün sahələrində göstərirdi. Xüsusən, Mərkəzi Asiyanın Türk dövlətlərinin Cənubi Qafqaz Respublikaları ilə əlaqələrinin inkişafını, respublikalar arasında əməkdaşlığın sürətlənməsini sonrakı illərdə də müşahidə etmək mümkündür.

Cənubi Qafqazda yerləşən respublikalardan biri olan Azərbaycanın müstəqillik elan etdikdən sonra öz daxili və xarici siyasətini nizam-intizama salmaq və gücləndirmək üçün atdığı addımlardan biri də Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini möhkəmləndirmək idi.

Bu zaman biz Prezident İlham Əliyevin ölkəmizin bu regiondakı dövlətlərlə əlaqələrini göstərən cümlələrini misal çəkə bilərik: *"Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur"* (Xalq qəzeti, 2023).

Mərkəzi Asiya ölkələrinin Azərbaycan ilə sıx əlaqələri haqqında əlbəttə ki, bir çox məsələləri nəzərə çatdırmaq mümkündür. Bəs Cənubi Qafqaz Respublikalarından biri olan Ermənistan ilə münasibətlərinə dair nələri misal göstərmək olar? Hansı siyasi-diplomatik, ticarət-iqtisadi və humanitar əməkdaşlıq proqramlarını nümunə çəkmək mümkündür? Sözün düzü, Ermənistan və Mərkəzi Asiyanın Türk dövlətləri (Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan) arasında əməkdaşlığın geniş olduğunu, əlaqələrin tarixinin çox

https://doi.org/10.36719/2024/XI

keçmişə dayandığını demək olmaz. Ölkələr arasındakı tarixi əlaqələr daha çox Sovet İttifaqı dövründə başlamış, bu da onların müəyyən dərəcədə siyasi və iqtisadi əlaqələrə malik olmasına səbəb olmuşdur. Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliyin əldə edilməsinə baxmayaraq, bu əlaqələr o qədər də güclü inkişaf etməmişdir. Ermənistanın Mərkəzi Asiyanın Türk dövlətlərindən olan Qazaxıstan ilə münasibətlərinə misal olaraq, 15 aprel 2024-cü ildə həyata keçirilən görüşü göstərmək olar. Bu görüş zamanı əməkdaşlığın gücləndirilməsi və iki ölkə arasında davam edən gərginliyin azaldılmasına yönəlmiş birgə bəyanat imzalanmışdır (Əli, 2024). Keçirilən diplomatik görüşdə tərəflər keçmiş tarixi inciklikləri aradan qaldırmağa və əməkdaşlığın yeni kursunu təyin etməyə hazır olduqlarını nümayiş etdiriblər.

Həmçinin, Qazaxıstan Prezidenti Tokayev Qafqaz regionunda sülhün bərqərar edilməsi üçün Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının qarşılıqlı münasibətlərin daha güvəndə irəliləməsinə kömək olacağını da bildirmişdir.

Bir sözlə, Ermənistan və Mərkəzi Asiyanın Türk dövlətləri arasında əlaqələrə dair nümunələr çəkmək və onların həyata keçirilmə səbəblərini, altında yatan məqsədləri dərin şəkildə öyrənmək və təhlil etmək mümkündür. Xüsusən, Cənubi Qafqaz region ölkələrinə aid olan Azərbaycanın mənafeyi baxımından bu əlaqələrin daim öyrənilməsi, proseslərin izlənməsi zəruri haldır. Respublikalar arasında siyasi, ticarət-iqtisadi, mədəni-humanitar və digər bütün münasibətlərin, gələcək planların araşdırılması müasir dövr üçün aktual olan mövzulardan biridir.

## Ədəbiyyat

1. https://xalqqazeti.az/az/siyaset/149832-merkezi-asiya-olkelerinin-avropa-ile (23.11.2023).
2. Əli, K. (15.04.2024). Qazaxıstan və Ermənistan regional diplomatik dəyişikliklər şəraitində yeni yol açır. https://turan.az/az/analitika/qazaxistan-ve-ermenistan-regional-diplomatik-deyisiklikler-seraitinde-yeni-yol-acir-779372

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 41-44
Modern Requirements in Science and Education XI Theses Collection / 41-44
https://doi.org/10.36719/2024/XI

**Elmar İsmayılzadə**
Azərbaycan Universiteti
Ismaylzadelmar@gmail.com

# Geri qayıdışa əngəllər: post-münaqişə dövründə Bosniya və Herseqovinada qaçqınlar və məcburi köçkünlərin qarşılaşdığı çağırışlar

***Açar sözlər:*** *Bosniya və Herseqovina, qaçqınlar və məcburi köçkünlər, beynəlxalq, konflikt, geri qayıtma*

***Keywords:*** *Bosnia and Herzegovina, internally displaced persons, international, conflict, return*

1990-cı illərdə Yuqoslaviyanın dağılması prosesi həmin ərazidə humanitar problemlərin kəskinləşməsinə səbəb oldu. Bu problemlərin kəskin hiss edildiyi konflikt zonalardan biri Bosniya və Herseqovina olmuşdu. 1992-1995-ci illərdə bu ərazidə baş vermiş müharibə böyük "humanitar fəlakət"ə səbəb oldu. Müharibəyəqədərki 4,3 milyon əhalinin 1 milyondan çoxu məcburi köçkün oldu, 1,2 milyona yaxını isə başqa ölkələrə miqrasiya etdi. 1995-ci ildə konflikt tərəfləri arasında beynəlxalq ictimaiyyətin səyləri nəticəsində "Bosniya və Herseqovinada Sülh naminə Ümumi Çərçivə Sazişi" (Deyton sazişi) imzalandı.

Deyton sazişinin bağlanması nəticəsində Bosniya və Herseqovina iki hissəyə: boşnak-xorvat federasiyası və "Serb Respublikası"na bölündü. Bu sazişin VII əlavəsində qaçqınlar və məcburi köçkünlərin geri qayıtması məsələsi ortaya qoyuldu (Bdoyan, Gerasymenko, Khvasevich, Kyselov and Oliveira, 2022: 104-109).

Qayıdış prosesi müxtəlif tarixi dövrləri əhatə edirdi: 1996-1997-ci illər, 1998-2000-ci illər, 2001-2002-ci illər. Bu tarixi

dövrlərdə geriqayıtma prosesinin xüsusiyyətləri bir-birindən fərqlənir. Beynəlxalq ictimaiyyət mərhələlərin gedişində geri-qayıtma prosesini sürətləndirmək üçün müxtəlif cəhdlər həyata keçirir. Məsələn, BMTQAK-ın 1997-ci ildə başlatdığı “Açıq Şəhərlər” Təşəbbüsü bu istiqamətdə siyasəti dəstəkləyirdi. 1998-ci ildə keçirilmiş Banya Luka Regional Geri Qayıdış Konfransı qaçqınlar və məcburi köçkünlər probleminin müzakirəsini təşkil etdi. 1998-ci ildə Sarayevo konfransı qaçqınların və məcburi köçkünlərin geri qayıtması ilə bağlı tərəflərin iradələrini və beynəlxalq ictimaiyyətin dəstəyini ortaya qoydu (Heimerl, 2005: 383). Ali Nümayəndə Ofisinin Bosniya və Herseqovinada mülkiyyət qanunlarına müdaxilə etməsi geri qayıdış prosesinə təkan verdi (Öner, 2013: 16). 1997-ci ildə yaradılmış Yenidən Bərpa və Qayıdış Tapşırıq Qüvvələri (RRTF) prosesin həyata keçirilməsində beynəlxalq aktorların rolunu göstərdi.

2005-ci ildə BMT, ATƏT, BMTQAK, Bosniya və Herseqovina, Xorvatiya və Serbiya tərəfindən qəbul edilmiş Sarayevo bəyannaməsi qaçqınlar və məcburi köçkünlər probleminin təkcə beynəlxalq cəhdlərlə deyil, regional əməkdaşlıqla da həll edilə biləcəyini göstərirdi.

Bosniya və Herseqovinada geri qayıtma prosesində “çoxluq geri qayıdışı”nın “azlıq geri qayıdışı”ndan daha üstün olması prosesə beynəlxalq aktorların müdaxiləsini zəruri etdi. “Çoxluq geri qayıdışı” prosesin aparıldığı müddət ərzində daha da artdı. “Azlıq geri qayıdışı” isə məhdud səviyyədə artım göstərdi. Beynəlxalq ictimaiyyətin cəhdləri isə daha çox “azlıq geri qayıdışı” ətrafında həyata keçirildi.

Bosniya və Herseqovinada qaçqın və məcburi köçkünlərin geri qayıdışı prosesində yaş faktoru xüsusi rol oynayır. Nisbətən yaşlı insanlar yaşadıqları ərazi ilə bağlı daha çox həyat təcrübəsi və xatirələrə malik olduğundan geri qayıdış prosesində daha çox iştirak edə bilirlər. Eyni zamanda bu

insanların bəziləri hal-hazırda rəqib olduqları etnik qruplarla birlikdə yaşama təcrübəsinə malik olduğundan geri qayıtmağa daha meyilli ola bilirlər. Gənc nəsil isə iqtisadi məsələlərə daha çox diqqət yetirdiyindən geri qayıdış seçimi arxa plana keçə bilir. Eyni zamanda müharibənin bitməsindən sonrakı dövrdə siyasi rəhbərliyin millətçi propaqandasına məruz qalmaları onların geri qayıdışa meyillənməsinə əngəl olur.

Geri qayıtma prosesinin ləngiməsinə bir sıra faktorlar təsir edir. Siyasi rəhbərliklərin azlıqlardan ehtiyat etməsi, dövlətçilik problemləri, təhsil sahəsində problemlər (ixtisaslı müəllim çatışmazlığı, diskriminativ təhsil proqramı, maddi-texniki problemlər), iqtisadi problemlər (Bdoyan, Gerasymenko, Khvasevich, Kyselov and Oliveira, 2022: 104-109) və s. bu faktorlardandır.

Geri qayıdış prosesini ləngidən faktorlar bir sıra problemlərə səbəb olur. Lokal siyasətçilər qarşı tərəflərdəki qayıdış siyasətinin çatışmazlıqlarını vurğulayaraq öz siyasətlərindəki qüsurları gizlətməyə çalışırlar. Təhsil sahəsində olan problemlər xarici dövlətlərə "beyin axını"na səbəb olur (Kett, 2005: 205) Müharibə travmaları nəticəsində yaranmış qarşı tərəfə güvənməmək hissi geri qayıdış prosesinin həyata keçirilməsinə maneə olur.

Bosniya və Herseqovinada qaçqın və məcburi köçkünlərin geri qayıdış prosesinə bir sıra tədbirlər təsir edə bilər. Dini məkanların bərpası dinlərarası dialoqu təşviq edərək geri qayıdışın dinamikasına müsbət təsir edə bilər. Ən əsası isə Bosniya və Herseqovina daxilində sistem strukturu ilə bağlı problemlərin həll edilməsi lazımdır. Bu prosesdə beynəlxalq və lokal amillərin aktiv və koordinasiyalı iştirakı ilə qarşıdakı problemlərin həlli mümkündür.

Nəticədə, 1995-ci ildən Bosniya və Herseqovinada başlanmış qaçqınlar və məcburi köçkünlərin geri qayıdışı prosesinin beynəlxalq dəstək almasına baxmayaraq ləng davam etdiyini

qeyd etmək lazımdır. “Azlıq geri qayıdışı”nın artırılması istiqamətində beynəlxalq cəhdlər edilsə də, bu istiqamətdə gözlənilən statistikalar hələ əldə olunmayıb. Geri qayıdışa əngəl olan amillər əsasən sistem problemləri ilə bağlıdır. Ancaq əhali, coğrafiya və s. faktorla bağlı dəyişə bilər. Prosesin sürətlənməsini təmin etmək üçün beynəlxalq, regional və lokal aktorların birlikdə çalışması vacibdir.

## Ədəbiyyat

1. Heimerl, D. (2005). The return of refugees and internally displaced persons: From coercion to sustainability?, *International Peacekeeping*, 12:3, 377-390.
2. Bdoyan,K., Gerasymenko,Y., Khvasevich,V., Kyselov,O., Oliveira,n. (2022). “Emergency response to the war in Ukraine: The role of state and non-state actors in supporting IDPs.”. *Global Campus Human Rights Journal*, 115-136.
3. Prather,L., Erik,S. (2007). Herron Enfranchising Displaced Voters: Lessons from Bosnia-Herzegovina. *Election Law Journal* Volume 6, Number 4.
4. Kett, M.E. (2005). Internally Displaced Peoples in Bosnia-Herzegovina: Impacts of Long-term Displacement on Health and Well-being, Medicine, Conflict and Survival, 21:3, 199-215.
5. Öner, N.A.Ş. (2013). Bariş İnşa Sürecinin Önemli Unsuru: Bosna Hersek’te Yerlerinden Edilmişlerin Geri Dönüşü. *Balkan Araştırma Enstitüsü Dergisi*. Cilt 2, Sayı 1, Temmuz 1-22.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 45-46
Modern Requirements in Science and Education XI Theses Collection / 45-46
https://doi.org/10.36719/2024/XI

**Günay Əkbərova**
Bakı Dövlət Universiteti
doktorant
gunay.akbarova.zabil@gmail.com

# Cəlal Bayar: İqtisadi inkişaf və demokratikləşmə yolunda

***Açar sözlər:*** *Cəlal Bayar, Şəvkət Sürəyya Aydəmir, iqtisadi modernləşmə, demokratikləşmə prosesi, çoxpartiyalı sistem, maliyyə islahatları*

***Keywords:*** *Jalal Bayar, Shavkat Sureyya Aydemir, economic modernization, democratization process, multi-party system, financial reforms*

Türk ədəbiyyatı və tarixşünaslığının görkəmli nümayəndəsi Şəvkət Sürəyya Aydəmir öz yaradıcılığında Türkiyənin modernləşmə dövrünün əsas simalarından olan Cəlal Bayarın fəaliyyətinə xüsusi diqqət yetirmişdir. Aydəmirin əsərlərində Bayar obrazı çoxşaxəli və mürəkkəb bir şəxsiyyət kimi təqdim edilir, onun həyatı və fəaliyyəti dövrün sosial-siyasi kontekstində təhlil olunur.

Aydəmirin təqdimatında Cəlal Bayarın şəxsiyyətinin formalaşmasında onun uşaqlıq illəri və Bursa məktəbindəki təhsil dövrü mühüm rol oynamışdır. Deutsche Orient Bankdakı fəaliyyəti onun gələcək iqtisadi görüşlərinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Müəllif xüsusilə vurğulayır ki, bank təcrübəsi Bayarın sonrakı dövrdə milli iqtisadiyyatın inkişafı istiqamətindəki fəaliyyətində həlledici rol oynamışdır.

Aydəmir Bayarın İttihad və Tərəqqi Cəmiyyətinə qoşulmasını və Milli Mübarizə dövründəki fəaliyyətini geniş təhlil edir. Xüsusilə, İzmir işğalına qarşı müqavimət hərəkatının təşkilində və yerli müqavimət qüvvələrinin koordinasiyasındakı rolunu

**https://doi.org/10.36719/2024/XI**

ətraflı şəkildə işıqlandırır. Bu dövrdə Bayarın təşkilatçılıq qabiliyyəti və siyasi uzaqgörənliyi özünü qabarıq şəkildə göstərmişdir.

Yazıçı Cəlal Bayarın İzmir İqtisad Konqresinin təşkilindəki və Türkiyə İş Bankının qurulmasındakı rolunu xüsusi əhəmiyyətlə qeyd edir. Bu hadisələr Türkiyənin iqtisadi müstəqillik və inkişaf strategiyasının formalaşmasında dönüş nöqtəsi kimi dəyərləndirilir. Aydəmir Bayarın iqtisadi görüşlərinin təhlilində onun dövlət və özəl sektor arasında tarazlıq yaratmaq cəhdlərini önə çəkir.

İqtisadiyyat Naziri və Baş Nazir kimi fəaliyyəti dövründə Bayarın həyata keçirdiyi islahatlar Aydəmir tərəfindən dövrün tələbləri kontekstində təhlil edilir. Demokrat Partiyasının qurulması və çoxpartiyalı sistemə keçid prosesində Bayarın rolu, müəllifin fikrincə, Türkiyənin demokratikləşməsi tarixində mühüm mərhələ təşkil edir.

Aydəmir Bayarın prezidentlik dövrünü təhlil edərkən obyektiv mövqe tutmağa çalışır, həm uğurlu islahatları, həm də tənqid edilən qərarları tarixi kontekstdə dəyərləndirir. Xüsusilə, iqtisadi liberallaşma, xarici sərmayənin cəlbi və sənayenin inkişafı sahəsindəki nailiyyətlər təfərrüatlı şəkildə araşdırılır.

Ümumilikdə Şəvkət Sürəyya Aydəmirin yaradıcılığında Cəlal Bayar obrazı Türkiyənin modernləşmə tarixinin mürəkkəb və ziddiyyətli dövrünün canlı şahidi kimi təqdim edilir. Müəllif Bayarın fəaliyyətini təhlil edərkən onun şəxsiyyətinin formalaşmasını, siyasi və iqtisadi görüşlərinin təkamülünü dövrün hadisələri fonunda araşdırır. Aydəmirin təqdimatında Bayar yalnız siyasi xadim deyil, eyni zamanda Türkiyənin müasirləşmə prosesinin fəal iştirakçısı və iqtisadi inkişafın memarlarından biri kimi canlandırılır.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 47-52
Modern Requirements in Science and Education XI Theses Collection / 47-52
https://doi.org/10.36719/2024/XI

**İlkanə Pənahova**
ADPU-nun nəzdində ADPK
panahovae@yahoo.com
htts//orcid.org/0000-0003-3537-3619

# Təhsildə etik və mənəvi dəyərlər

***Açar sözlər:*** *təhsil, etika, əxlaq, tərbiyə, peşə, kodeks, tələbə, müəllim*
***Keywords:*** *education, ethics, morality, education, profession, codex, student, teacher*

Bu gün etika həyatın hər bir sahəsində mühüm yer tutur. Təhsil həm də insan həyatının əsas üsuludur. Ona görə də təhsildə etika çox həyati və məhsuldar rola malikdir. Daha yaxşı vətəndaş olmaq üçün təhsil sisteminə etik ölçü kimi daxil edilməlidir. Tərbiyə insan həyatının əsas metodu olduğundan, etika da təhsildə mühüm və həyati bir məsələyə çevrilmişdir. Etikanın əhəmiyyətini başa düşmək üçün etikanı təhsil sisteminə daxil etmək vacibdir (Biesta, 2006).

Təhsildə etika tələbələrin etik cəhətdən böyüməsinə kömək etmək məqsədi daşıyan öyrənmə təcrübəsi üçün nəzərə alınmalı olan anlayışdır. Etika istənilən peşənin vacib elementidir. Peşəkar etika ilə bağlı təlimatlar, məsələn, etikanın həkimlərin hazırlandığı tibb təhsilində və ya həkimlərin xəstələrə yanaşmasının vacib olduğu tibb sahəsində əldə edilib-edilməməsinə qərar vermək vacibdir. Bir çox ölkələrdə, xüsusən də hüquqşünasların etika mövzusuna böyük diqqət yetirməsi, etika mövzusunu təkmilləşdirmək məqsədi ilə peşəkarlar və həmkarları ilə görüşlərdə iştirak etmək adi bir təcrübədir (Hutchings, 2016). Peşəkarlar səhvlər edə bilər və bəzən karyeralarında kiçik və böyük problemlərə səbəb ola biləcək detallara məhəl qoymurlar. Etik qaydalar peşəkarlara dəyişən mühitin öhdə-

sindən gəlməkdə və öz peşə standartlarına cavab vermək üçün özlərini tənzimləyərkən səlahiyyət sahibi hiss etmələrində kömək etmək üçün vacibdir (Havlik və Koťa, 2007).

Etika normativ elmdir və əxlaqın əhatə dairəsini müəyyən edir. Etik kodekslər, sadəcə olaraq, əxlaqi məcburi normalardır və mövcud qanunvericiliyə zidd olmamalıdır. Çünki bu hüquqi tənzimləmələrin əsasını cəmiyyətdəki etik dəyərlər təşkil edir. Sutton etikanı "əxlaq elmi, əxlaqın bir hissəsi, praktik fəlsəfə, "nəyin doğru və nəyin yanlış olduğunu, nəyin doğru və nəyin zəruri olduğunu soruşmaq" kimi müəyyən etmişdir (Sutton, 2005).

Jankovski deyir ki, "İnsan bilərəkdən və istəyərək öz öhdəliklərində ardıcıl davranırsa, o, əxlaqlı davranır, əks halda əxlaqsız davranışdan danışmaq olar" (Jankovski, 2003: 223).

Etika kodeksləri həm də iş yerində davranış standartlarını müəyyən edir. Etik kodekslərin mövcudluğu daha böyük və çoxmillətli şirkətlərdə daha aydın görünür. Şirkətlər əsas etik dəyərlər üzərində işləyir və onları effektiv idarəetmə vasitəsi kimi görürlər. Qloballaşan şirkətlərdə etik kodekslər işgüzar münasibətlərdə ən çox istifadə olunan vasitələrdən biridir (Hutchings, 2016).

Etika kodeksi davranışın müəyyən arzu olunan hədlərini müəyyən etməlidir. Etik kodekslər davranış prinsiplərini və qaydalarını müəyyən etməyə xidmət edir və çox vaxt müəyyən bir qurumun və ya təşkilatın müəyyən edilmiş məqsəd və dəyərlərinə əsaslanır. Ümumiyyətlə, etik qaydalar iş dünyası, müştərilər, digər peşəkar qruplar və ictimaiyyətlə münasibətləri müəyyən etmək üçün yaradılır (Pikhart, 2014b). Təşkilatların öz etik kodeksini necə müəyyən etmələri, kodun vaxtaşırı yenidən işlənib-hazırlanmaması, işçilər üçün məcburi olub-olmaması və onun pozulmasının cəzalandırılıb-verilməməsi qiymətləndirmə tədbiri kimi istifadə olunur (Weinstein, 2017).

https://doi.org/10.36719/2024/XI

Vaynşteynə görə, bütün inanclar və intizamlar üçün ümumi olan beş əsas əxlaqi prinsip var:

- Zərər verməyin: hərəkətlərinizlə başqalarına zərər verməməyə çalışın.
- İşləri yaxşılaşdırın. İnsanlara kömək edin və kömək etmək və incitmək arasındakı fərqi bilin. Harada olursunuzsa olun, bir cəmiyyət kimi hərəkət edin.
- Başqalarına hörmət edin. Həmişə həqiqəti söyləyin və vədlərinizə əməl edin. Əgər kimsə sizə məlumat verirsə, onu özünüzdə saxlayın, lakin qeyri-dəqiqliklər barədə məlumat verin.
- Ədalətli olun. Duyğularınızı balanslı tutun və insanları lazımsız yerə cəzalandırmayın.
- Sevgi dolu olun. Başqalarına mərhəmət göstərin və onlara qayğı göstərdiyinizi hiss etdirin (Weinstein, 2017). Bu dəyərlər dünyanın bəzi yerlərində fərqli şəkildə müəyyən edilə bilər, lakin onlar mədəniyyətlərarasıdır və ümumiyyətlə, bütün insan qrupları arasında gözlənilir. Bunları həyata keçirmək üçün ətrafımızdakı fərdlərin mahiyyətcə etik rəhbərliyə ehtiyacı var və onlara müraciət edirlər.

Təhsil bir sahə kimi həmişə qanunlar və düzgün iş görmək üçün peşəkar prosedurlar ətrafında fırlanır. Bundan əlavə, başqalarının etik təcrübələrə uyğunlaşmasını və öyrənməsini təmin etmək və öz mənfəətləri üçün başqalarını aldatmaqdan və istifadə etməkdən çəkinmək vacibdir.

Strike və Soltisə görə, təhsildə etikanın dörd prinsipi var.

*Dürüstlük:* Dürüstlük təhsildə olması çox vacib bir xüsusiyyətdir. Dürüstlük- sadiq, doğruçu, etibarlı, səmimi və ədalətli olmaq deməkdir. Məktəbdə yaxşı şagird-müəllim münasibəti qarşılıqlı inam və hörmətdən irəli gəlir. Müasir dünyada etik dəyərlərə üstünlük verən müəllimlər və təhsil müəssisələri tələbələr üçün vacibdir. Uğurlu olmaq üçün təhsil biliyini tamamlayan əxlaqa sahib olmaq vacibdir. Bütün qeydlər arasında

dürüstlük bütün tələbələr üçün vacib dəyərlərdən biridir. Dürüstlük öz-özünə gəlmir, lakin onu geniş baxışla qəbul etmək bir üsuldur. Dürüstlük ən yaxşı siyasət hesab olunur. Siz vicdanlı insan olduğunuz zaman insanlar sizə ən gözəl iltifatı verirlər və bu xoş iltifatı almaq hər bir insanın arzusudur. Odur ki, təhsil sistemi şagirdi əxlaqa yaxınlaşdıracaq bəzi mühüm əməlləri və rutinləri özündə ehtiva etməsini təmin etməlidir. Şagirdlər uşaqlıqdan başlayaraq ətrafdakılara dürüstlük göstərməyə və bunu həyatlarının bir hissəsinə çevirməyə yönəldilməlidir.

*Məxfilik:* Məxfilik təhsildə digər vacib etik dəyərlərdən biridir. Məxfilik məlumatı icazəsiz şəxslərə açıqlamamaq və ya ötürməmək öhdəliyinə aiddir. Buraya insanlar və ya təşkilatlar haqqında məlumatlar daxildir. Şagirdlər hər hansı bir stress, çətinlik və ya böhranla qarşılaşdıqda, məktəbdə peşəkarları, xüsusən də müəllimləri axtarırlar. Tələbələr çox vaxt məxfiliyin qorunacağına ümid edərək şəxsi məlumatları dərindən paylaşırlar. Bununla belə, məlumatı başqaları ilə paylaşmağın risklərini onlara aşılamaq və bunun nəyə başa gələ biləcəyini izah etmək vacibdir.

*Maraqların toqquşması:* Təhsildə maraqların toqquşması, prioritetlərin daxil edilməsi yolu ilə tələbə qarşısında əsas məsuliyyətin müzakirə edildiyi bir vəziyyətdir. Maraqların toqquşması müxtəlif kontekstlərdə və müxtəlif səbəblərdən yarana bilər. Maraqlar toqquşması o zaman baş verir ki, bir şəxsin ən yaxşı mənafeyi həmin şəxsin sadiq olduğu digər şəxsin və ya təşkilatın da ən yaxşı mənafeyinə uyğun gəlmir. Maraqların toqquşması təsadüfən başqa bir prioritetin öz mühakiməsinə təsir etməsinə icazə verməkdən tutmuş şəxsi mənfəət üçün məktəb siyasətini qəsdən pozmağa qədər dəyişə bilər.

*Məsuliyyət:* Bütün etika ilə yanaşı, məsuliyyət təhsildə həyati etik dəyərlərdən biridir. Müəllimin məsuliyyəti o zaman

https://doi.org/10.36719/2024/XI

dərk edilir ki, tələbələr öz işlərində enerjili iştirak edir, akademik uğurlarına cavabdeh olduqlarını qəbul edirlər. Şagirdin məsuliyyəti məktəbin müəllimləri və digər sinif yoldaşları ilə hörmətli və diqqətlə ünsiyyət qurmaqdır. Tələbə məsuliyyəti tələbələr seçim etdikdə və onları təhsil məqsədlərinə doğru istiqamətləndirən addımlar atdıqda nümayiş olunur. Mühazirələrdə, seminarlarda və laboratoriyalarda iştirak vacibdir, lakin müəllimin müəyyən bir müddət ərzində tapşırdığı bütün işləri səmərəli şəkildə yerinə yetirmək vacibdir.

Hər bir müəllim təhsilin ilk illərindən başlayaraq hər bir şagirdə bir şəxsiyyət kimi bərabər ləyaqətlə yanaşmalıdır. Müəllimlər öz peşə öhdəliklərini yerinə yetirməklə yanaşı, şagirdlərinin ləyaqətinə qarşı həssaslıqları da davranışları ilə nümayiş etdirməlidir. Bunlardan biri tələbələrə ilk növbədə mövzunun təfərrüatlarını, işin necə aparılacağını, qiymətləndirmə meyarlarını aydınlaşdırmaqdır. Təhsilin bütün pillələrində müəllimlər şagirdlərinin idrak, intellektual və əxlaqi inkişafını təmin etməli, onlara hörmət etməli, lazım gəldikdə onları qiymətləndirməlidirlər. Şagirdlərin öz öhdəliklərini yerinə yetirmələri üçün qayda və tələbləri müəyyən etmək və onların çox zərurət olmadıqca dəyişməməsini təmin etmək vacibdir.

## Ədəbiyyat


1. Biesta, G.J.J. (2006). *Beyond learning: Democratic education for a human future*. Boulder, CO: Paradigm Publisher.
2. Havlik, R., Koťa, J. (2007). *Sociologie vychovy a skoly*. Portal.
3. Hutchings, T. (2016). *Professional Ethics and the Classroom.*
4. Pikhart, M. (2014a). New Horizons of Intercultural Communication: Applied mLinguistics Approach. *Procedia - Social and Behavioral Sciences*, Vol. 152.

5. Sutton, M. (2005). The Globalization of Multicultural Education. *Indiana Journal of Global Legal Studies,* 12(1), 96-108.
6. Weinstein, A. (2017). *Ethics in the Classroom: What You Need to Know. https://www.education.com/magazine/article/cheating-ethics*

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 53-56
Modern Requirements in Science and Education XI Theses Collection / 53-56
https://doi.org/10.36719/2024/XI

**Zümrüd Zeynalova**
SDU-nun nəzdində SDTK
zeynalovazumrud2020@gmail.com

# Hüseyn Cavid yaradıcılığının əsas ideyası

***Açar sözlər:*** *romantizm, klassik-lirika, lirik-fəlsəfi düşüncələr, dram, müharibə*
***Keywords:*** *romanticism, classical-lyric, lyrical-philosophical thoughts, drama, war*

Mütəfəkkir şair, görkəmli dramaturq kimi tanınan Hüseyn Cavidin Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus rolu vardır. XX əsr Azərbaycan romantizmi daha çox onun adı ilə bağlı olmuşdur. "Şeyx Sənan" və "İblis", "Xəyyam" və "Səyavuş" kimi əsərləri dramaturgiyamızda romantizmin bütün problematikliyini, ideya və məzmun xüsusiyyətlərini özündə əks etdirən ən dəyərli nümunələr olmuşdur.

Hüseyn Cavidin poeziyası romantik şeirlərdən və poemalardan ibarətdir. İdealla varlıq arasında olan ziddiyyət, ideal həqiqət axtarıcılığına yönələn xəyallarından formalaşan lirik-fəlsəfi düşüncələr Cavid şeirinin əsas məzmununu təşkil edir. Şair yaratdığı lirik "mən"i qayğıkeş, düşüncəli və xəyallarla dolu olan filosof xarakterli aşiq kimi təsvir etmişdir.

Bana anlatma ki, eşq, aləmi-sevda nə imiş,
Bilirim bən səni, get! Hər sözün əfsanə imiş.
Get, gülüm, get, gözəlim! Hər sözün əfsanə imiş.
Duydum artıq sənin eşqindəki məna nə imiş!..
Bivəfasın, mələk olsan belə uymam daha, get!
Kim ki, uymuş sana, gönlüm kibi divanə imiş.
Yetişir, get! Bəni qəhr eyləmə, tərsa qızı, get!
Anladıq şəfqəti-ayini-məsiha nə imiş... (Cavid, 2025: 9).

Hüseyn Cavidin şeir yaradıcılığının ilkin mərhələsinə nəzər yetirəndə janr baxımından ikiüslubluluğun olduğunu görmüş olarıq. O, həmin vaxtlarda həm klassik lirika üslubunda qəzəllər, həm də xalq-aşıq şeri ruhunda qoşma, gəraylılar yazıb yaratmışdır. "Get", "Könlümü" rədifli şeirlər, həmçinin "Hər yer səfalı, nəşəli" şeirini qəzəl formasında, "Xuraman-xuraman" şeirini isə qoşma formasında yazmışdır. Müxəmməs və müsəddəslərin əlamətləri "Rəqs", "Uyuyur" və digər şeirlərində hiss edilir.

Cavidin romantik-fəlsəfi üslubunu səciyyələndirən qüvvətli poetik əlamətlərdən biri onun yazdığı monoloqlarıdır. Cavidin yaradıcılığında monoloqlardan ibarət olan "Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Uyuyur", "Məzlumlar üçün", "Neçin" şeirlərinin hər bəndində olan monoloq konkret fikrin, mənalı bir hikmətin poetik ifadəsini göstərmişdir. Şair "Uyuyur" şeirinin birinci bəndini bahar nəsiminə, sonrakı bəndlərini quşlara, günəşə, çiçəklərə, mələyə həsr etmişdir.

Şairin şeirlərində dialoqlardan ibarət şeirlər də vardır. Onun bəzi şeirləri kiçik səhnəcik xarakteri daşıyır. Dialoqlardan ibarət olan "Öksüz Ənvər", "Çiçək sevgisi", "Qız məktəbində" olan şeirlərini nümunə göstərmək olar. Onun "Qız məktəbində" olan poetik mükalimə Gülbaharın nəcibliyini, ülviliyini nümayiş etdirmişdir. Bu şeiri Azərbaycan ədəbiyyatında sujetli lirikanın ən mükəmməl nümunəsi kimi saymaq olar.

Hüseyn Cavid yaradıcılığında poema janrının xüsusi yeri vardır. Onun ilk poemaları lirik-romantik, və yaxud romantik-fəlsəfi əsərlərdən ibarət olmuşdur. Bu poemalarının bəzilərində sujet əlamətləri və obrazlar, demək olar ki, yoxdur. Həyata, insanlara olan romantik münasibət, bədii və fəlsəfi ümumiləşdirmələr bu poemaların əsas hissəsini təşkil edir. Onun "Bir ahi-məzlumanə", "İştə bir divanədən bir xatirə", "Hübuti-Adəm" poemalarında lirik-romantik düşüncələr özünü göstərmişdir.

https://doi.org/10.36719/2024/XI

İdeya-sənətkarlıq baxımından şairin yaradıcılığında ən kamil poema "Azər" əsərini xüsusi qeyd etmək olar. Bu poema Hüseyn Cavidin Qərbə və Şərqə, həmçinin Şərq-Qərb müstəvisində Azərbaycana olan baxışlarını əks etdirmişdir. Digər dramatik qəhrəmanlardan fərqli olaraq Hüseyn Cavid əsərin əsas qəhrəmanı olan Azəri tarixdən deyil, real həyatdan alınmış bədii obraz kimi göstərmişdir.. Əsərdə onu özünün müasiri, proobrazı olaraq yaratmışdır. Azərin yaşadığı mühit, üzvü olduğu cəmiyyət, Qərbə və Şərqə olan baxışları müəllifin şəxsi qəanətlərinin, düşüncələrinin ifadəsi idi. Şair Azəri cəmiyyətə yeni fikirlərlə baxan, dünyada baş verən hadisələri obyektiv şəkildə dərk etmək imkanına malik olan yeni tipli bədii obraz kimi bizlərə çatdırmışdır.

Hüseyn Cavidi ədəbiyyat tarixində ən çox məşhur edən dram əsərləridir. O, Azərbaycan romantik mənzum dramaturgiyasının ən görkəmli yaradıcısı və banisi olmuşdur.

Şairin ilk dram əsəri Dağıstan həyatından alınmış "Ana" mənzum faciəsidir. Əsərdə qonaqpərvər, cəsur, əsas qəhrəman obraz olan Səlma Azərbaycan ədəbiyyatında yeni tipli Ana obrazı kimi yaradılmışdır. Əsərdə Səlma ana oğlu Qanpoladı öldürən qatili tanısa da çəkidiyi əzablara, sarsıntılara baxmayaraq, ona heç nə etmir, "namərd qonağı" evindən uzaqlaşdırır və bunun səbəbini, öz qanlı taleyini Allahın qisməti ilə bağlayır. Öz övladının qatilini bağışlamağı bacaran Səlma ana dünya ədəbiyyatı tarixində təkrarsız bədii obraz olaraq yaddaşa düşmüşdür.

Cavidin "Maral" pyesi pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi fəlakətləri əks etdirmişdir. Bu əsər ailə-məişət mövzusuna həsr olunmuşdur. Əsərdə Nadirbəy-Turxanbəy xətti cəmiyyətdə yenilik və köhnəlik arasındakı olan münasibətləri göstərmişdir.

"Şeyda" pyesi Bakı mətbəə işçilərinin həyatından bəhs etmişdir. Bu əsərdə çətin, ağır həyat tərzi, azadlıq düşüncəsi ön

mövqedə verilmişdir. O biri dram əsərlərindən fərqli olaraq ədib bu əsərdə real, həyati məsələlərə geniş yer vermişdir. Bütünlükdə bu əsərdə üsyankar çıxışların edilməsinə baxmayaraq, hələ də real mübarizə yollarını tapa bilməyən insanların faciəsini ümumiləşdirərək bizlərə çatdırmışdır.

Hüseyn Cavidin şah əsəri kimi "İblis" faciəsini qeyd etmək olar. Sənətkarın şeir yaradıcılığının və dramaturgiyasının bütün vüsəti geniş şəkildə bu faciədə əks olunmuşdur. XX əsrin əvvəllərində dünyada gedən hərbi-siyasi proseslərlə bağlı olaraq müharibə mövzusunda "İblis" kimi qiymətli əsəri yazmışdır. Şair ilk növbədə bu əsərdə müharibənin səbəbini aydınlaşdırmış, qan tökməklə, dağıtmaqla nələrə nail olmağın faciəsini açıb göstərmişdir. Bu əsərdə Mələyin müharibələrin törədilmə səbəbini insanların İblisə uymasında, İblis isə bunun səbəbini insanların özündə axtarmasını demişdir. Ədib bu əsərdə Arifin vasitəsilə müharibələri pisləmiş, insanları İblisə uymamağa və tanımağa çağırır.

Bu əsər müharibələrə uymuş insanlığın faciəsini özündə əks etdirən, nəticə etibarı ilə cəmiyyəti bu müharibələrdən xilas olmağa çağıran dramatik əsərdir. Lakin buna baxmayaraq, bu əsərdə real müharibə səhnələri və gerçək döyüş vəziyyətləri olmamışdır. Hüseyn Cavid bu əsərlə müharibəni deyil, müharibənin iştirakçısı və şahidi olan insanların simasında müharibəyə olan münasibəti göstərmişdir.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 57-60
Modern Requirements in Science and Education XI Theses Collection / 57-60
https://doi.org/10.36719/2024/XI

**Tənzilə Qasımova**
ADPU-nun nəzdində ADPK
qasimovatanzila@gmail.com

# Ana dilinin uşaqların inkişafında rolu

***Açar sözlər:*** *ana dili, millət, təlim-tərbiyə, ünsiyyət, vətənpərvərlik*

***Keywords****: mother tongue, nation, education, communication, patriotism*

“Ana dili millətin mənəvi diriliyidir. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır.” Dilimizin qorunması, inkişafı uğrunda mübarizə aparan Firudin bəy Köçərliyə aid olan bu cümlələrdə ana dilinin bir millətin formalaşmasında necə əhəmiyyətli olduğu əks olunur. Dil təkcə ünsiyyət vasitəsi olmayıb milləti var edən, insanları formalaşdıran, şəxsiyyət kimi yetişdirən, mədəniyyətin əsasını təşkil edən ən vacib ünsürlərdəndir.

Ulu öndər Heydər Əliyevin və davamçısı cənab prezident İlham Əliyevin siyasi strategiyasının əsas motivlərindən birinin “Ana dili məsələsi” olması təsadüfi deyildir. Ümummilli liderin söylədiyi bu fikirdə dilin bir millətin var olması üçün nə qədər əhəmiyyətli olduğu öz təsdiqini tapır: “İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə sahibdir.”

Dövlət başçısı İlham Əliyev doğma ana dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşaraq bu sahədə bir sıra addımlar atmış, problemlərin həll olunması üçün əlverişli şərait yaratmışdır.

Körpəlik dövründən uşaqlara ana dilinə məhəbbət aşılanmalıdır. Onlar bilməlidirlər ki, dünyanın ən gözəl dillərindən biri olan Azərbaycan dili onların ana dilidir. Bu prosesə uşaq

https://doi.org/10.36719/2024/XI

ana bətnində olarkən  başlamaq lazımdır. Tədqiqatlardan belə məlum olur ki, uşaq ana bətnində olarkən ətrafdakı səsləri eşidir və doğuşdan sonra ananın hamiləlik dövründə ünsiyyət etdiyi dili daha asanlıqla tanıyır, öyrənir və daha rahat dil açır. Uşaq dil açanadək emosional ünsiyyət saxlayır. Bu dövr nitqə yiyələnməyə hazırlıq dövrü hesab olunur, həmin dövrdə ətrafdakı böyüklərin ana dilindən istifadə etməsi çox vacibdir. Bu uşağın həm idraki inkişafına, həm də onlarda düzgün nitqin formalaşmasına müsbət təsir göstərir.

Ünsiyyət qurma vərdişinin formalaşması dövründə düşüncələrini, hisslərini, duyğularını ana dilində ifadə etməsi uşağın ümumi inkişafının əsas şərtidir. Ana dilinin gözəlliklərinə yiyələnməklə uşaqlar öz fikirlərini kifayət qədər düzgün, sərbəst, dəqiq və incəliklə dilləndirə bilir və bu, insanlarla ünsiyyət zamanı dildən doğru şəkildə istifadə edilməsinə, aydın qavramasına gətirib çıxarır. Uşaq ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvürlər əldə edir ki, bu onun lüğət ehtiyatının zənginləşdirilməsində, əşya və hadisələr haqqında fikir formalaşdırılmasında rol oynayır. Uşaqlar ətraf aləm haqqında ilkin bilikləri, nəsildən-nəslə ötürülən bəşəri təcrübəni, ünsiyyət bacarığını nitqin köməyi ilə onların inkişafında mühüm əhəmiyyət kəsb edən şəxslərdən-valideyn və müəllimlərdən öyrənirlər. Ana dilinə yiyələnmə ilk olaraq  ailədə başlanır. Bu baxımdan ilk öyrədilən dil insanın öz genetik kodlarını da ifadə etməli və  buna xidmət göstərməli olduğu üçün uşağın ilk ünsiyyət qurduğu  dil doğma ana dili-mənsub olduğu millətin dili olmalıdır. Bu da körpənin böyüdüyü ailədən asılıdır. Gələcək nəsli yetişdirməkdə olan valideynlər bu məsələdə həssaslıq göstərməli, ana dilinə laqeyd yanaşmamalıdırlar. Çünki yetişməkdə olan nəslin təlim-tərbiyəsində, həqiqi bir vətəndaş kimi yetişməsində, təhsilində ilk hansı dilə yiyələnməsinin çox böyük əhəmiyyəti, təsiri vardır.

Ana dilimizin saflığını, düzgünlüyünü qorumaq, zənginləşməsi, inkişaf etməsi üçün ilk olaraq, dilimizdən ədəbi dil normalarına uyğun olaraq istifadə etməliyik. Həm ailədə, həm də təlim-tərbiyə mühitində ana dilinin leksikologiyasına daxil olan doğma sözlərimizdən istifadə etməli, Azərbaycan dilində bədii qiraətlə daha çox məşğul olmalıyıq. Bunun üçün də uşaqlarda erkən yaşlardan mütaliə vərdişlərini təbliğ etməliyik. Mütaliə vərdişlərinə yiyələnənə qədər isə övladlarımız erkən uşaqlıqdan nənə və babalarının nağıllarını, bayatılarını və əfsanələrini dinləyərək vətənimizin gözəlliklərini bədii nümunələrdə yaşayır. Anaların, nənələrin körpələr üçün oxuduğu laylaylar, oxşamalar, əzizləmələr estetik zövqü formalaşdırmaqla yanaşı, idrak fəallığını da artırır.

Ana dili məktəbəqədər yaşlı uşaqların əqli və əxlaqi tərbiyəsinin aparıcı qüvvəsidir. İki yaşında danışmağa başlayan uşağın tam olaraq 6-7 yaşında nitqi inkişaf edir, ətrafındakılarla ünsiyyət qurur ki, bu dövrdə ana dilini heç bir şey əvəz edə bilməz. Nitq inkişafının əsasını ana dilinə düzgün yiyələnmək təşkil edir ki, bu, nitq mədəniyyətinə yiyələnmiş, fikirlərini səriştəli və məntiqi şəkildə ifadə etməyi bacaran, intellektual və mənəvi cəhətdən inkişaf etmiş bir şəxsiyyətin formalaşmasında vacib şərtdir.

Dil mədəniyyətin əsasını təşkil ediyi üçün ana dilinin öyrənilməsi estetik tərbiyə və mədəni hissləri formalaşdırır. Uşaq ana dilində nitq bacarıqlarına yiyələndirilərkən onda təbiətə, insana, cəmiyyətə və sənətə zərif münasibət aşılanır. Ana dili mədəni inkişaf vasitəsi olaraq estetik zövqü formalaşdırma xüsusiyyətinə malikdir.

Mədəni və mənəvi inkişafın aparıcı vasitəsi olan ana dilini ünsiyyət vasitəsi kimi istifadə edərək uşaq öz nəslinin mədəniyyətini, ətrafındakı dünya və özü haqqında öyrənir.

Ana dilinin mənimsədilməsi üzrə aparılan işlər tədris və təhsillə yanaşı, uşaqların mənəvi tərbiyəsinə, əqli inkişafına

xidmət göstərir. Ana dilinin köməyi ilə uşaqlarda doğma vətənimizə, yurdumuzun gözəlliklərinə məhəbbət, xalqımızın adət və ənənələrinə, haqqa, ədalətə hörmət və sədaqət tərbiyə edilir. Ana dilində düzgün danışa bilməyən, doğma dilini anlamayan uşaq vətənpərvər böyüyə bilməz. Buna görə də gələcəyimizi sağlam qurmaq vətənpərvər gənclər yetişdirmək üçün ana dilimizi sevməli və gələcək nəsillərə də sevdirərək doğma dilimizi saf şəkildə növbəti nəsillərə ötürməliyik.

Dilin qorunması millətin hər bir nümayəndəsinin borcudur. Dilini qorumayan xalqın gələcəyi də yoxdur. Ana dilinin saflığının qorunmasında ilk addım uşaqlara körpəlikdən öz ana dillərini öyrətməkdir. Bu addım dilin qorunması ilə yanaşı uşağın təfəkkürünün inkişafında, vətənə layiqli şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 61-64
Modern Requirements in Science and Education XI Theses Collection / 61-64
https://doi.org/10.36719/2024/XI

**Nabat Əliyeva**
SDU-nun nəzdində SDTK
mammadova.nabat@gmail.com

# Dram janrının spesifik xüsusiyyətləri

***Açar sözlər:*** *dram, təşəkkül tarixi, mövzu, dil xüsusiyyətləri, süjet, qəhrəman*
***Keywords:*** *drama, history of formation, theme, language features, plot, hero*

Bədii ədəbiyyatda dram janrının xüsusi yeri vardır. O digər janrlar arasında ən mürəkkəb, ən çətin növ hesab edilir. Dramaturgiyanın, dramın təşəkkülü antik dövrə gedib çıxır. Dram nəzəriyyəsinin öyrənilməsi tarixi kökləri qədim yunanlarla bağlıdır. Onlar bəşər tarixinə Homer, Evripid, Sofokl, Aristofan, Esxil kimi onlarca tanınmış sənət xadimləri vermişlər. Bu sıranı tamamlayan, deyərdik ki, pik nöqtəyə çatdıran sima dedikdə Aristotel yada düşür. O, dünya mədəniyyətinə "Analitika", "Metafizika", "Etika", "Politika", "Ritorika", "Poetika" kimi samballı əsərlər bəxş etmişdir. İskəndəriyyə kitabxanasında ona aid 400 kitab saxlanırdı. Dediklərimizdən də bəlli olduğu kimi, Aristotel dram nəzəriyyəsinin atası hesab edilir. Dahi mütəfəkkir Platon xüsusi olaraq incəsənət, onun həyatdakı yeri haqqında düşünür və gözəlliyin mahiyyətini öyrənir. Lakin o, dramı ayırır və hətta tragiklik haqqında anlayışı tamamilə dramatik janrla bağlayır. Dramaturgiya teatr sənəti ilə paralel şəkildə inkişaf edir və dünya ədəbiyyatının istər mövzu, istərsə də ideya və janr baxımından irəlilənməsinə xidmət edirdi.

Təbii ki, dünya ədəbiyyatında baş verən hadisələr Azərbaycan ədəbiyyatına da təsirsiz ötüşmür, bu və ya digər dərəcədə iz buraxır. Azərbaycan ədəbiyyatında da dramaturgiyanın

https://doi.org/10.36719/2024/XI

yaranması yeni ədəbi hadisə hesab edilmiş, yüksək istedada malik sənətkarların yetişməsinə zəmin yaratmışdır. XIX əsr M.F.Axundzadənin yaratdığı dram əsərləri bu sahədə yeni inkişaf ənənələri demək idi. Əsası M.F.Axundzadə tərəfindən qoyulan Azərbaycan dramaturgiyası sosial, əxlaqi, milli-mənəvi dəyərlərin qorunmasına xidmət edirdi. Təbii ki, Azərbaycanda dram janrı dünya teatr sənətinin inkişafına təkan verdi.

XIX əsrin 70-ci illərindən müxtəlif məzmunlu dram əsərləri yaranmağa başladı. M.F.Axundov ənənələrini uğurla davam etdirən Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov kimi sənətkarların adı xüsusilə qeyd olunmalıdır.

Maraqlısı və hətta deyərdim ki, dramaturqların mənfi xüsusiyyəti ondan ibarətdir ki, onlar tarixi hadisələrə və şəxsiyyətlərə müraciət edərək istədikləri mövzuları qabartmağa çalışırdılar. Müasirlik süzgəcindən istifadəyə, demək olar ki, rast gəlinmirdi. Klassik ənənələrə müraciət etmək dramaturqlar arasında sanki dəb halını almışdı. Xüsusilə də XX əsrin ikinci yarısından sonra klassik yazıçılarımızla bərabər, yeni dövr ədəbi şəxsiyyətlərinə - onların həyat və fəaliyyətlərinə müraciət edilir, onları yetişdirən mühit və şərait ayrı-ayrı epizodlar vasitəsilə oxuculara çatdırılırdı. Süjet xəttinə daxil edilən bu məqamlar dram əsərlərinə başqa bir rəng qatır, onları oxunaqlı edirdi. Amma bu halı mənfi xüsusiyyət kimi qiymətləndirməyimizin əsas səbəbi odur ki, bu əsərlərin tamaşaya qoyulması geniş auditoriya kütləsi toplaya bilmirdi. Fikrimizcə, bunun əsas səbəbi də müasir problemlərin klassik ənənə və hadisələrə söykənərək işıqlandırılmasıdır. Bu xüsusiyyətləri özündə daşıyan əsələrə S.Vurğunun “Vaqif”, İlyas Əfəndiyevin “Xurşudbanu Natəvan”, B.Vahabzadənin “Fəryad”, Anarın “Sizi deyib gəlmişəm”, Mehdi Hüseynin “Nizami” və başqalarını misal göstərə bilərik.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 61-64**
**Modern Requirements in Science and Education XI Theses Collection / 61-64**
**https://doi.org/10.36719/2024/XI**

Dram yazan şəxs əvvəlcə öz əsərinin qayəsini təyin etməlidir, yəni tamaşaçıya nə demək istədiyini konkret müəyyənləşdirməlidir. Bunsuz dram əsəri yarana bilməz. İkinci şərt odur ki, müəllif öz əsəri üçün zəngin material toplamalıdır. Dramda qarşı-qarşıya qoyulacaq qüvvələr, onların qarşısındakı maneələr, hadisə və xarakterlərin tipikliyi təyin edilməlidir. Bu da çox mühümdür. Bu mərhələləri keçmədən yazıçı əlinə qələm alıb dram əsəri yaza bilməz.

Dram qəhrəmanının səciyyəsi mübarizədə, toqquşmalarda təzahür edir. Dram qəhrəmanları özləri düşünməli, eyni zamanda tamaşaçıları düşünməyə vadar etməlidir. Tamaşaçılar yalnız əylənmək deyil, düşünmək də istəyir. Qəhrəman tamaşaçıları öz fikirləri ilə aşılamasa da, öz hisslərinin təsiri altına salmalıdır.

Ədəbiyyatşünaslığın digər növləri kimi dram əsərlərinin də spesifik qanunları vardır. Bu qanunlara əməl edərək yazılmış əsərlər istər süjet, istərsə də kompozisiya baxımından mükəmməl hesab edilə bilər.

Dram əsərlərində finalların, hətta pauzaların da böyük əhəmiyyəti vardır. Pərdənin düşməsi bir zərurət olmalıdır. Əsərin başlanması və inkişafı müəyyən bir dramatik qanuna əsaslanmalıdır. Bu özünü doğrultmadıqda süjet və kompozisiya zəifliyinin müşahidə olunduğu əsər meydana çıxır.

Hər bir xalqın ədəbiyyatı onun öz dilində yaranıb inkişaf edir, təkmilləşir. Yaranma tarixi və qədimliyi ilə bu dillər bir-birindən fərqlənir. Lakin bu fərqliliklə yanaşı yazılı dillərin hamısında xüsusi üslub yaranır. Bu üsluba ədəbi üslub və ya bədii dil də deyilir. Bədii dil janrlara uyğun olaraq yazıçı, şair və müəlliflərin dilidir. Bu üslub ilkin olaraq yaranıb formalaşmış, leksik və sintaktik gözəlliyi ilə digərlərindən fərqlənmiş və yeni üslubların yaranması üçün zəmin rolunu oynamış, əsas səbəb olmuşdur. Ədəbi üslubun ən mühüm xüsusiyyəti onun yazılı olması və müxtəlif fərdi yazıçı üslublarını özündə

https://doi.org/10.36719/2024/XI

birləşdirməsidir. İstənilən ədəbi mətnin konkret müəllifi və mətni olur. Yəni hər bir əsərin müəllifi var və hər bir müəllif də təkrarsız, yalnız bir nüsxədə olan fərddir. Müəllif fərdiyyəti onun öz iradəsindən asılı olmayaraq bütün mətnlərində öz izini qoyur. Müəllifin yazdığı mətnlərdə onun təkrarsız fərdiyyətini əks etdirən xüsusiyyətlərin məcmusu fərdi üslub adlanır.

Müəllifin fərdi üslubu bədii mətnin lüğət tərkibində, sintaksisində, intonasiyasında, mövzuya və obrazlara münasibətində və s. öz əksini tapır. Fərdi üslub nəsrdən çox poeziyada özünü daha qabarıq biruzə verir. Bu fərdilik bədii ədəbiyyatı tükənmə təhlükəsindən xilas edir. Belə ki dəfələrcə, təkrarən işlənmiş mövzulara (sevgi, vətənə məhəbbət, valideyn-övlad münasibəti və s.) hələ də müraciət olunmasının əsas səbəbi də məhz fərdi üslubdur. Həmin mövzulara fərdi yanaşma onlara hələ də müraciət olunmasının əsas səbəbidir. Məhz bu fərdiyyətçilik ədəbi əsərin orijinallığını şərtləndirir. Orijinallıq bədii mətnin birbaşa fərdi üsluba aidliyi, onun təkrarsızlığı və bir nüsxədə olmasıdır. Orijinallığın azlığı və ya çoxluğu əsərin bədiiliyini artıran əsas xüsusiyyətdir.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 65-69**
**Modern Requirements in Science and Education XI Theses Collection / 65-69**
**https://doi.org/10.36719/2024/XI**

**Humay Hacıyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
haciyevahumay08@gmail.com

# Məktəb proqramlarında dil qaydalarının tədrisi üçün müasir texnologiyaların tətbiqi

***Açar sözlər:*** *müasir texnologiyalar, dil qaydalarının tədrisi, interaktiv təhsil, oyun əsaslı öyrənmə, rəqəmsal dərsliklər, süni intellekt, virtual tədris, tədrisin effektivliyi*
***Keywords:*** *modern technologies, teaching language rules, interactive education, game-based learning, digital textbooks, artificial intelligence, virtual teaching, effectiveness of teaching*

Məktəb proqramlarında dil qaydalarının tədrisi hər zaman tədris prosesinin əsas istiqamətlərindən biri olmuşdur. Lakin sürətlə inkişaf edən texnoloji tərəqqi bu sahədə yeni yanaşmaların meydana gəlməsinə şərait yaratmışdır. Müasir texnologiyaların təhsilə inteqrasiyası ilə dil qaydalarının öyrədilməsi daha innovativ və interaktiv şəkildə həyata keçirilir. Rəqəmsal təlim resursları, interaktiv lövhələr, mobil tətbiqlər və dil oyunu platformaları kimi vasitələr şagirdlərin dil qaydalarını daha əyləncəli və təsirli şəkildə mənimsəmələrinə kömək edir. Bununla yanaşı, fərdi öyrənmə tempinə uyğunlaşma imkanı da təmin olunur ki, bu da tədris prosesinin effektivliyini artırır. Məqsəd təkcə qaydaların əzbərlənməsi deyil, həm də şagirdlərin dil bacarıqlarını aktiv şəkildə tətbiq edə bilmələridir. Müasir texnologiyaların tətbiqi ilə dil qaydalarının tədrisi yalnız dərs prosesini daha maraqlı və interaktiv etmək məqsədini güdmür, eyni zamanda şagirdlərin fərdi tədris ehtiyaclarına daha uyğunlaşan bir tədris mühiti yaradır.

Ənənəvi təlim metodları çox vaxt standart qaydalar və tapşırıqlarla məhdudlaşdığı halda, texnologiyaların tətbiqi ilə müəllimlər hər bir şagirdin öyrənmə tərzinə uyğun fərdi yanaşmalar tətbiq edə bilirlər. Rəqəmsal məzmun yaratmaq, oyunlar vasitəsilə dil qaydalarını tətbiq etmək və müxtəlif interaktiv tapşırıqlar üzərində işləmək şagirdlərin tənqidi düşünmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirir. Bu yanaşma yalnız qaydaların mənimsənilməsini deyil, həm də onların real həyatda tətbiqini təşviq edir.

Məktəb proqramlarında dil qaydalarının tədrisi üçün müasir texnologiyaların tətbiqi mövzusunda bir çox tədqiqatlar aparılmışdır və bu sahədə texnologiyaların təhsilə inteqrasiyası ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Alimlər və tədqiqatçılar göstərir ki, müasir texnologiyalar təhsil prosesində yalnız dil qaydalarının izahını asanlaşdırmaqla qalmır, həm də şagirdlərin dərslərə marağını artırır və interaktiv öyrənmə mühiti yaradır (Garrett, 2019). Xüsusilə, interaktiv lövhələr, dil tədris oyunları, mobil tətbiqlər və virtual tədris mühitləri dil qaydalarının daha praktik şəkildə mənimsənilməsinə imkan verir (Kim & Kwon, 2021). Bəzi tədqiqatçılar, xüsusilə, oyun əsaslı tədris metodlarının dil qaydalarının tədrisində böyük effektivliyə malik olduğunu vurğulayırlar. Oyun əsaslı yanaşmalar şagirdlərdə motivasiyanı artırır və öyrənmə prosesini əyləncəli hala gətirir (Gee, 2017). Bu yanaşma tədqiqatlarda xüsusilə dil qaydalarının abstrakt aspektlərini izah edərkən faydalı olduğu qeyd edilmişdir (Plass et al., 2020). Bu cür tətbiqlər həmçinin şagirdlərin hər an rəy almasına və öz səhvlərini düzəltməsinə şərait yaradır (Chaudhry & Kaur, 2022). Virtual təhsil platformaları da dil qaydalarının tədrisində öz effektivliyini sübut etmişdir. Pandemiya dövründə bu platformalar vasitəsilə şagirdlər distant təhsil almağa imkan tapmış və dil qaydalarının virtual mühitdə tədrisi üçün yeni imkanlar yaranmışdır. Tədqiqatlar göstərir ki, bu cür plat-

formalar şagirdlərə öz tempində təhsil almağa və tədris prosesini fərdiləşdirməyə imkan verir (Bozkurt, 2021). Dil qaydalarının tədrisində müasir texnologiyaların tətbiqi yalnız şagirdlər üçün deyil, həm də müəllimlər üçün əhəmiyyətlidir. Müəllimlər texnologiya vasitəsilə daha çox resurslara çıxış əldə edərək tədris prosesini zənginləşdirə bilirlər (Anderson, 2018). Bununla yanaşı, texnologiyaların tətbiqi müəllimlərə daha çox rəqəmsal tədris materialları hazırlamaq və dərslərin keyfiyyətini artırmaq imkanı verir (Garrison & Vaughan, 2018). Ümumilikdə, müasir texnologiyaların dil qaydalarının tədrisinə inteqrasiyası təhsil prosesində böyük yeniliklər vəd edir. Texnologiyaların şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək, fərdi tədris prosesini dəstəkləmək və motivasiyanı artırmaq potensialı bir çox tədqiqatçılar tərəfindən dəstəklənir və bu sahədə daha çox araşdırma aparılması tövsiyə olunur (Selwyn, 2016).

Müasir texnologiyaların dil qaydalarının tədrisində istifadəsi ilə bağlı əlavə tədqiqatlar göstərir ki, interaktiv və oyun əsaslı metodlar şagirdlərin dərsə aktiv şəkildə cəlb olunmasına kömək edir. Məsələn, *Blended learning* (qarışıq tədris) yanaşması, ənənəvi sinif mühiti ilə onlayn resursların birləşməsini təklif edir. Bu metod dil qaydalarının tədrisində şagirdlərin daha yüksək nəticələr göstərməsinə səbəb olur, çünki onlar həm müəllimdən dərhal rəy ala bilir, həm də müstəqil öyrənmə resurslarından faydalanırlar (Hrastinski, 2019).

Eyni zamanda, tədqiqatçılar qeyd edirlər ki, texnologiyanın dil tədrisinə inteqrasiyası şagirdlərin daha çox fərdi öyrənmə tərzlərini dəstəkləyir. Bu yanaşmada hər bir şagird öz tempinə uyğun şəkildə təhsil ala bilər və müəllimlər fərdi ehtiyacları nəzərə alaraq şagirdlərə fərqli vəsaitlər təklif edə bilərlər (Mayer, 2019). Bu, dil tədrisində fərdi yanaşmaların önəmini bir daha vurğulayır və texnologiyanın bu fərdi yanaşmaları

https://doi.org/10.36719/2024/XI

gücləndirdiyini göstərir. Digər tədqiqatlar isə süni intellektin (AI) dil tədrisində tətbiqi məsələsinə diqqət çəkirlər.

Məsələn, AI əsaslı dil öyrənmə platformaları şagirdlərə dərhal fərdi rəy verir və onların zəif tərəflərini müəyyən edərək tədris prosesində əhəmiyyətli dəstək rolunu oynayır (Lu, 2020). Süni intellektin avtomatik tərcümə, qrammatika yoxlaması və dil oyunu tətbiqlərində istifadəsi şagirdlərin qaydaları daha yaxşı mənimsəməsinə kömək edir və səhvləri daha tez düzəltmək imkanı yaradır. Virtual reallıq (VR) və artırılmış reallıq (AR) kimi texnologiyalar da dil tədrisində tətbiq edilməyə başlanmışdır. Bu cür texnologiyalar şagirdlərə dil qaydalarını praktiki olaraq tətbiq edə biləcəkləri simulyasiya edilmiş mühitlər yaradır və onların real həyat şəraitində dil bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır (Kapp, 2019). Belə texnologiyalar şagirdləri dil tədrisinin ənənəvi məhdudiyyətlərindən kənarlaşdırır və onları yeni və maraqlı mühitlərə daxil edir. Nəticə etibarilə, texnologiyanın dil qaydalarının tədrisində tətbiqi təhsilin gələcəyində mühüm rol oynayır. Müasir tədris metodları və texnoloji vasitələrin istifadəsi, şagirdlərin dil bacarıqlarının inkişafına və qaydaların daha effektiv mənimsənilməsinə mühüm töhfələr verir. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, texnologiyanın istifadəsi tədris prosesini daha səmərəli və şagirdlər üçün daha maraqlı edə bilər. Buna görə də, texnologiyaların dil tədrisində tətbiqi ilə bağlı daha dərin tədqiqatların aparılması təhsil sisteminin inkişafı üçün zəruri hesab olunur (Dörnyei, 2020).

Məktəb proqramlarında dil qaydalarının tədrisi üçün müasir texnologiyaların tətbiqi tədris prosesində mühüm irəliləyişlərə səbəb olmuşdur.

Texnologiyalar şagirdlərin dil qaydalarını daha interaktiv və əyləncəli şəkildə mənimsəməsinə imkan yaradır, bu da tədris prosesini daha səmərəli və cəlbedici edir. Müasir texnologiyaların, xüsusilə də interaktiv lövhələr, mobil

https://doi.org/10.36719/2024/XI

tətbiqlər, süni intellekt və oyun əsaslı öyrənmə metodlarının istifadəsi şagirdlərin öyrənmə nəticələrini yaxşılaşdırmış və onların dil bacarıqlarını inkişaf etdirmişdir.

## Ədəbiyyat

1. Barannikov, A.V. (2002). O vvedenii inostrannykh yazykov vo II klassakh nachal'noi shkoly v usloviyakh ehksperimenta po obnovleniyu struktury i soderzhaniya obshchego obrazovaniya v 2002/2003 uchebnom godu. *Inostrannye yazyki v shkole*. №2.
2. Budakova, O.V. (2012). Igrovye tekhnologii kak ehffektivnoe sredstvo aktivizatsii uchebnogo protsessa na uroke inostrannogo yazyka. Pedagogicheskoe masterstvo: materialy Mezhdunar. nauch. konf. (g. Moskva, aprel' 2012 g.). Buki-Vedi, c. 152-154. URL: https://moluch.ru/conf/ped/archive/22/2161/ (data obrashcheniya: 20.01.2019).
3. Pakhomova, T.E. (2018). Geimifikatsiya kak sredstvo podgotovki studentov pedagogicheskogo kolledzha k resheniyu professional'nykh zadach. *Uchenye zapiski Zabaikal'skogo gosudarstvennogo universiteta.* No6 (65). – ULR: http://cyberleninka.ru/article/n/geymifikatsiya-kak-sredstvo-podgotovki-studentov-pedagogicheskogo-kolledzha-k-resheniyu-professionalnyh-zadach#ixzz4XnQPYO9l
4. Joey, J.L. (2018). Gamification in Education: What, How, Why Bother? // Academia.edu.2015. URL:http://www.academia.edu/570970/Gamification_in_Education_What_How_Why_Bother.

https://doi.org/10.36719/2024/XI

**Əli Qədirli**
Lənkaran Dövlət Universiteti
magistrant
qadirliali28@gmail.com

# Təlim priyomlarının təsnifatı və praktik əhəmiyyəti

***Açar sözlər:*** *təlim komponenti, priyom, təfəkkür, idrak, hafizə, nəzəri və praktik fəaliyyət*
***Keywords:*** *Learning component, perception, thinking, cognition, memory, theoretical and practical activity*

Təlim komponentləri sırasında önəmli olan komponentlərdən biri də təlim priyomlarıdır. Təlim prosesinin əsası hesab olunan dərsdə təlim fəaliyyətini əsasən nizamlayan amil priyomlardır. Onların təkmilləşdirilməsinə və mütəmadi olaraq inkişaf etdirilməsinə hər zaman diqqət verilməlidir. Klassik metodoloji araşdırmalarda, təlim prosesində idraki proseslə elmin qarşılıqlı formada inteqrasiyası xüsusi yer tutur. Qeyd olunan iki amil arasında sadə olmayan mürəkkəb bir yanaşma mexanizmi vardır. Bu mənada, təlim fəaliyyətində müəllimlər tərəfindən istifadə edilən təlimi və didaktik priyomlar şagirdlərdə biliklərin sistemləşdirilməsinə, inkişafetdirici olmasına yönəldilən əsas problemlərdən biridir.

Metodikaya dair mövcud ədəbiyyatlardan toplanan bilgilərə əsasən, idrak fəaliyyətinin son nəticəsi əldə olunan biliklə xarakterizə olunur və biliyin mənimsədilməsinin təmin olunması prosesində şagirdlərin təfəkkür və idraki fəaliyyətinin müəllimlər tərəfindən hansı ölçüdə, səviyyədə idarə olunmasından bir mənalı olaraq asılılığı ilə müəyyən olunduğu məlum olur. Gəldiyimiz nəticəyə əsasən bilik və fəaliyyətin planlı qarşılıqlı münasibəti verilən biliyin mənimsənilmə faizinə,

**https://doi.org/10.36719/2024/XI**

keyfiyyət göstəricisinə, onların nəticə olaraq mənimsədilən biliklərin təlim prosesində mənimsəməyə, idraki fəaliyyətin məqsədyönlü formada əksər halda təkmilləşdirilərək yenilənməsinə səbəb olur. Xüsusi qeyd etmək lazımdır ki, təlim prosesində mənimsəmənin təfəkkür və təxəyyül əməliyyatları o zaman gözlənilən müsbət nəticələr verir ki, idraki və məntiqi metodlardan məqsədyönümlü istifadə olunsun, fəaliyyətin bu üsullarının tətbiqi praktik bacarıq, bilik və vərdişlərin formalaşdırılmasında tətbiqini tapsın.

Belə nəticəyə gəlmək olar ki, bu zaman istifadə və tətbiq edilən priyomlar, mexanizmlər və digər üsullar şagirdlər tərəfindən mənimsəməni asanlaşdırır, məntiqi sonluq kimi biliklərin sistemləşdirilməsi prosesi baş verir. Bir növ şagird mənimsəmə prosesində subyektə çevrilir. Önəmli amillərdən biri də məhz budur. Bu isə zəmin yaradır ki, təlimçinin və ya müəllimin rəhbərliyi ilə məlum idraki priyomlarla qismən tanış olan şagirdlər ümumi halda təlimi fəaliyyətdə sərbəst bu amillərdən istifadə edə bilirlər, tapşırıq kimi verilən təlimi problemləri normal həyata keçirmək məqsədi ilə öz təxəyyülünün məhsulu kimi daha yeni təlimi priyomlar, mexanizmlər tapa bilərlər. Təbii belə yanaşmalar dərs prosesinə, ümumiyyətlə, təlim prosesinə müsbət, emosional yanaşmanı təmin edir, onun daha da maraqlı, cəzbedici olmasına imkan verir. Son nəticədə şagirdlərdə mənəvi idraki keyfiyyətləri inkişaf etdirir, formalaşdırır, əldə etdikləri elmi nailiyyətləri təcrübələrə yönəltmələrinə və praktiki tətbiqinə həvəsləndirir.

Tədqiqatlardan məlum olur ki, klassik (ənənəvi) təhsildə idrak üsullarından qismən istifadə olunurdu, yəni, istifadəsi bir o qədər də populyar olmamışdır. Bu təlim prosesində əsas diqqət verilən tapşırığın yerinə yetirilmə istiqamətinə yönəlmişdir. Yəni düşün, tap amili arxa planda qalmışdır. Amma müasir ədəbiyyatlarda məsləhət olunduğu kimi təlim zamanı şagirdlər mənimsədikləri nəzəri bilikləri, praktiki bacarıqları və

https://doi.org/10.36719/2024/XI

vərdişləri ancaq təcrübi (praktiki) olaraq deyil, ümumi idraki biliklərin, əqli, zehni fəaliyyətin əsas mexanizmlərini də öyrənmiş olurlar.

Tədris proqramında nəzərdə tutulan mövzuların öyrədilməsində təlim forması kimi istifadə olunan üsul və priyomların zənginliyi, bolluğu sırasında hamısı ancaq təlim məsələlərinin nəticəyönümlü məzmun tələblərinə deyil, əsas hissəsi təlim-tədris prosesinin icrasına və prosesin təşkilinə yönəlir. İstifadəsi təklif olunan priyom və üsullardan istifadə edilməsi dərsdə tədris işini stimullaşdırır, onun nisbi fəallığının, müstəqilliyinin yaranmasına bir növ təminatçı olur.

Fikrimizi izah etmək üçün konkret desək, istifadəsi təklif olunan priyomlar sırasına daxil olan müasir internet məlumatlarıyla, metodik kitablarla, illüstrativ materiallarla və s. işləmək tövsiyə edilə bilər. Burada müəllimin yerinə yetirməli olduğu işlərdən biri də dərsin aparılmasında istifadə olunan və səmərəli hesab edilən priyomların şagirdlərə başa salınaraq mənimsədilməsidir. Hələ də bəzi alimlər qeyd olunan metod, üsul və priyomların tam izah olunmadığını çox israrla sübut etməyə çalışırlar. Həqiqətən bu məsələ daimi təkmilləşməyə və araşdırmaya ehtiyac hiss olunan sahədir. Bu istiqamətdə metodik araşdırmalar Y.K.Babanskinin, L.V.İtelson və digərlərinin əsərlərində daha qabarıq formada izah olunub. Mövcud metodik ədəbiyyat incələmələrindən belə nəticəyə gəlmək olar ki, təlim materialının həcmi, tərkib hissəsi və xüsusi ilə növü hafizəyə müsbət təsir edir. Yadda saxlamanın önəmli amili bilik vermə prosesində təlimin idraki motivlərinin aydın və düzgün qurulmasıdır.

Bu mənada hafizənin formalaşması priyomlarını qeyd etmək önəmli olar: mövzunun mənaca uyğunluğu; təlim materialını planlaşdırması; mətiqi ardıcıllıq gözlənilməsi; motivasiyanın qurulması; idrak fəaliyyətinin mütəmadi nəzarətdə olması və s. Anlamanın iş planından fərqli olaraq, yadda

https://doi.org/10.36719/2024/XI

saxlanılması tələb olunan məzmun materialı kiçik həcmdə verilir və verilən başlıq konkret olaraq nə öyrədiləcəyini xarakterizə edir.

Buradan belə nəticə əldə olunur: nəzəri biliklərin verilməsində təlim priyomlarının iki tərkib hissəsini göstərmək olar olar: nəzəri və praktik fəaliyyət. Praktik fəaliyyətin icrasında nəzəri biliklər əsas rol oynayır. Praktik fəaliyyət fəndləri isə əksinə görünən və asan təhlil edilərək qiymətləndirilən prosesdir.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 74-76**
**Modern Requirements in Science and Education XI Theses Collection / 74-76**
**https://doi.org/10.36719/2024/XI**

**Айтен Салехли**
Бакинский Славянский Университет
ayten.salehli@outlook.com

# Российско-сербское взаимодействие как гарант возвращения России на Балканы

***Ключевые слова:*** *Россия, Балканы, экономика, политическое значение, сотрудничество*
***Keywords:****Russia, Balkans, economy, political significance, cooperation*

Балканский регион всегда привлекал внимание мировых держав своею экономической разнообразностью, многонациональностью, географическим положением, политической важностью и нестабильностью. Собственно, в этом регионе и сталкиваются геополитические, геоэкономические и геостратегические интересы таких мировых держав как Россия, США и ЕС. Проблемы, происходящие на Балканах, на протяжении долгих лет являются центром изучения в международных отношениях. Для Российской Федерации страны Балкан остаются центром внимания и привлекают особой значимостью, которое необходимо периодически поддерживать и укреплять. Сотрудничество России и Сербии основываются на договорно-правовой базе. Сохраняется в силе ряд соглашений, которые были заключены между СССР и Социалистической Федеративной Республикой Югославия. Остаётся важность договоров, заключённых Россией с Союзной Республикой Югославия с 1992 по 2003 г., а также Сербией и Черногорией с 2003 по 2006 г., и за последние годы подписанных ряд договоров стратегического характера с Сербией. Из наиболее важных следует выделить:

**https://doi.org/10.36719/2024/XI**

- Договор о сотрудничестве в нефтегазовой отрасли (25 января 2008 г.);
- Договор о поставках природного газа с 2012 по 2021 г. (13 октября 2012 г.);
- Договор о предоставлении экспортного кредита на реконструкцию и строительство железнодорожной инфраструктуры Сербии в размере 800 млн долл. (11 января 2013 г.);
- Декларация о стратегическом партнёрстве между Российской Федерацией и Республикой Сербия (24 мая 2013 г.).

Российская Федерация в 2000-х годах стала возобновлять потерянные позиции на Балканах. Посредством экономической помощи, Россия начала восстановление нефтегазовой отрасли пострадавшей Сербии. После войны у Республики Сербия, средств, а также сил для восстановления и модернизации не имелось. Дополнительно усугублялось положение страны из-за наложенных экономических санкций. Однако, ситуацию удалось изменить благодаря тому, что российские инвесторы смогли вывести сербскую нефтегазовую отрасль из длительного кризиса. Вновь начавшееся сотрудничество между Российской Федерацией и Республика Сербия началось с проекта, реализуемого компанией «Лукойл» в Сербии. Последующий толчок развитию экономики Сербии и укреплению двустороннего сотрудничества придал российский проект – приобретение компанией «Газпромнефть» сербской государственной компании «Нефтяная индустрия Сербии». Компания «Нефтяная индустрия Сербии», благодаря управлению российским инвесторам, добилась определенных результатов. Компания обеспечила надёжную поставку нефти и газа в Сербию, увеличилась добыча и поставки нефти, а также газа в третьи страны, улучшилась про-

https://doi.org/10.36719/2024/XI

изводительность и финансовые показатели компании. Компания НИС стала крупнейшим налогоплательщиком в Сербии. Также, благодаря росту эффективности деятельности при одновременном снижении затрат, компании удалось из убыточной стать прибыльной.

Успехи компании «Нефтяная индустрия Сербии», выработали основу для дальнейших планов в обеспечении энергетического лидерства на Балканском регионе, тем самым показывая конкурентоспособность страны на рынке ЕС.

https://doi.org/10.36719/2024/XI

**Leyla Mahmudova**
Baku, Azerbaijan
leylaibrahimgizi1999@gmail.com

# The Role of Leadership in Promoting Play-Based Learning in Early Childhood Programs

***Keywords:*** *Leadership, Early, Childhood, Development, Educational*

***Açar Sözlər****: liderlik, erkən, uşaqlıq, inkişaf, maarifləndi-rici*

Play-based learning has been widely recognized as an essential component of early childhood education, fostering children's cognitive, social, and emotional development (Bakken, Brown, & Downing, 2017). The benefits of play include not only physical and motor skill enhancement but also improvements in problem-solving abilities, creativity, and social interactions (Smith, 2014). Given these benefits, it is critical for early childhood education leaders to support and promote play-based learning in their programs.

Effective leadership in early childhood settings plays a crucial role in shaping educational practices and creating supportive environments for young learners. Leaders who understand the value of play-based learning can influence curriculum decisions, encourage professional development for teachers, and engage with families to reinforce play as a vital learning approach (Rodd, 2013). Furthermore, leadership in early childhood education involves creating inclusive spaces that allow for diverse play experiences, which are critical for the holistic development of young children (Davis, Krieg, & Smith, 2015).

Research shows that leadership practices impact the successful implementation of play-based learning frameworks

within early childhood programs. Leaders who adopt transformational and supportive leadership styles can inspire educators to integrate play into daily activities effectively (Bush, 2013). Moreover, fostering a culture that values play requires leaders to address potential challenges, such as curriculum restrictions and resource limitations, by advocating for necessary changes within educational policies (Hujala & Eskelinen, 2013). By prioritizing play-based learning, early childhood education leaders can significantly contribute to the development of well-rounded and resilient children.

Despite the evidence supporting play-based learning, implementing it in early childhood programs can encounter various challenges, often stemming from curriculum mandates, standardized testing pressures, and limited resources (Rasli, Aziz, Saari, Mustafa, & Yassin, 2021). Leaders in early childhood education must navigate these obstacles by advocating for play as an essential component of child development and promoting policies that recognize its value (Nagar, Schwabsky, & Ertsater, 2021). Effective leadership not only addresses these systemic challenges but also fosters a school culture that encourages teachers to integrate play-based learning strategies with confidence and creativity (Khan, Asimiran, Kadir, & Basri, 2020).

Moreover, leadership in early childhood education is not just about administration but involves creating a collaborative environment that empowers teachers to be agents of change within their classrooms (Sims, Forrest, Semann, & Slattery, 2015). Teachers often have valuable insights into the needs and interests of young children, and leaders who encourage teacher participation in decision-making processes can foster a more engaged and motivated workforce (Li, 2015). This collaborative approach aligns with transformational leadership theories, which emphasize the role of leaders in inspiring,

supporting, and empowering their staff to achieve common goals (Bush, 2013). By adopting such leadership styles, administrators can support play-based learning, ultimately enhancing the developmental outcomes for children.

In addition, a strong play-based learning framework requires leaders to engage with families and the community. Parents and caregivers play a significant role in reinforcing play as a legitimate form of learning outside of the classroom. Leaders who actively communicate with families about the benefits of play-based learning can help bridge the gap between home and school environments, ensuring that children receive consistent support in their developmental journey (Khan et al., 2020).

## Reference

1. Bakken, L., Brown, N., & Downing, B. (2017). Early childhood education: The long-term benefits. *Journal of Research in Childhood Education*, 31(2), 255-269. https://doi.org/10.1080/02568543.2016.1272385
2. Smith, J.T. (2014). The physical play and motor development of young children: A review of literature and implications for practice. *The Center for Early Childhood Education*.
3. Rodd, J. (2013). Leadership in early childhood: The pathway to professionalism. *NY: Routledge.*
4. Davis, K., Krieg, S., & Smith, K. (2015). Leading other-wise: Using a feminist-poststructuralist and postcolonial lens to create alternative spaces for early childhood educational leaders. *International Journal of Leadership in Education*, 18(2), 131–148. https://doi.org/10.1080/13603124.2014.943296

5. Bush, T. (2013). Leadership in early childhood education. Educational Management Administration & Leadership, 41(1), 3-4. https://doi.org/10.1177/1741143212462968
6. Hujala, E., & Eskelinen, M. (2013). Leadership tasks in early childhood education. *Tampere University Press*.
7. Rasli, R.M., Aziz, N.A.A., Saari, E.M., Mustafa, M.C., & Yassin, S.M. (2021). Early childhood care and education trainees' perspectives of their career path. *International Journal of Evaluationand Research in Education*, 10(3), 1001-1007. https://doi.org/10.11591/ijere.v10i3.20856
8. Nagar, N., Schwabsky, N., & Ertsater, E. (2021). The role of self-efficacy components in predicting Israeli kindergarten teachers' educational leadership. *International Journal of Leadership in Education*, 24(6), 815-837. https://doi.org/10.1080/13603124.2019.1613569
9. Khan, A. A., Asimiran, S., Kadir, S. A., & Basri, R. (2020). Principals' instructional leadership practices in Pakistan elementary schools: Perceptions and implications. *Universal Journal of Educational Research*, 8(1), 16–23. https://doi.org/10.13189/ujer.2020.081103
10. Sims, M., Forrest, F., Semann, A., & Slattery, C. (2015). Conceptions of early childhood leadership: Driving new professionalism? *International Journal of Leadership in Education*, 18(2), 149-166. https://doi.org/10.1080/13603124.2014.962101
11. Li, Y. L. (2015). The culture of teacher leadership: A survey of teachers' views in Hong Kong early childhood settings. *Early Childhood Education Journal*, 43(5), 435–445. https://doi.org/10.1007/s10643-014-0674-1

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 81-83
Modern Requirements in Science and Education XI Theses Collection / 81-83
https://doi.org/10.36719/2024/XI

**Айтен Салехли**
Бакинский Славянский Университет
ayten.salehli@outlook.com

# Российско-сербское гуманитарное сотрудничество

***Ключевые слова:*** *Россия, Балканы, экономика, политическое значение, сотрудничество*
***Keywords:*** *Russia, Balkans, economy, political significance, cooperation*

Отношения между странами Республики Сербия и Российской Федерацией характеризуются динамичным сотрудничеством во всех областях, во взаимной поддержке и понимании. Отношения Республикой Сербия и Российской Федерацией в гуманитарной сфере представляют собой значимый аспект двустороннего сотрудничества между двумя странами. Эти отношения охватывают различные области, включая культурные обмены, образовательные инициативы, поддержку со стороны государственных и неправительственных организаций, а также гуманитарные проекты. Укрепляется и близость народов сербско-российских межкультурных отношений. Обе стороны работают над повышением интенсивности сотрудничества. Особое развитие выделяет исторически заложены, прочные экономические отношения, характеризующиеся сотрудничеством в различных секторах.

Гуманитарное сотрудничество между Россией и Сербией имеет глубокие исторические корни. Россия традиционно поддерживала Сербию во время конфликтов, таких как войны на Балканах в 1990-х годах, что способствовало укреплению гуманитарных связей. Укрепление гуманитар-

https://doi.org/10.36719/2024/XI

ного сотрудничества между Россией и Сербией отмечено в Концепции внешней политики Российской Федерации утвержденная Президентом Российской Федерации В.В. Путиным 30 ноября 2016 года, где в качестве одной из основных задач России закрепляется развитие «на межгосударственном уровне культурных и гуманитарных связей славянских народов». Россия и Сербия разделяют крепкие культурные и религиозные связи, уходящие корнями в их славянское наследие и восточное православное христианство. Обе страны отмечают схожие традиции, праздники и обычаи, которые укрепляют их родство. Сербская православная церковь тесно связана с Русской православной церковью, способствуя духовным связям. Культурная близость отражена в искусстве, литературе и музыке, подчеркивая их прочные отношения. Развивается также сотрудничество в области образования между странами. Было переведено 237 произведений с русского языка на сербский. Уделялось внимание программам для молодежи, обмену студентами, стипендиям, а также организации бесплатных курсов для изучения русского языка. Кроме того, обе страны исторически поддерживали друг друга во времена кризиса, углубляя свою связь через общие ценности и общую идентичность. Россия реализует программы гуманитарной помощи в Сербии через Российско-сербский гуманитарный центр (РСГЦ), а также через организацию «Российская гуманитарная миссия» в Белграде. Россия оказывала помощь во время стихийных бедствий в Сербии, включая наводнения в 2014 г., и другие чрезвычайные ситуации. Это включало отправку медикаментов, продовольствия, финансовую помощь и других необходимых ресурсов. Во время пандемии COVID-19 Россия отправила медицинские группы и оборудование в Сербию, что помогло стране справиться с последствиями

кризиса. Гуманитарная помощь России и Сербии отражает не только историческую солидарность, но и современные потребности в поддержке. Несмотря на существующие вызовы, сотрудничество продолжается в различных формах.

Особая роль отводится торговле между странами. Объем торговли между двумя странами является значительным. Сербия экспортирует в Россию сельскохозяйственную продукцию, технику и текстиль, а импортирует энергоресурсы и промышленные товары. Обе страны подписали соглашения об увеличении двусторонней торговли. Россия является крупным поставщиком энергии в Сербию, особенно природного газа и нефти. Такие проекты, как трубопровод «Южный поток», направлены на повышение энергетической безопасности Сербии. Кроме того, Сербия получает выгоду от выгодных цен и соглашений, которые помогают укрепить её энергетическую инфраструктуру. Инвестиции являются еще одной важной областью, поскольку российские компании вкладывают средства в сербские отрасли, включая телекоммуникации, банковское дело и инфраструктуру. Эти инвестиции не только обеспечивают капитал, но и создают рабочие места и способствуют экономическому развитию Сербии. В целом, гуманитарное сотрудничество между Россией и Сербией характеризуется сочетанием исторических связей и современных проблем. Их партнерство отражает более широкую геополитическую динамику, но при этом остается сосредоточенным на решении гуманитарных потребностей и укреплении взаимной поддержки. В условиях современных вызовов, таких как пандемия и природные катастрофы, сотрудничество остаётся важным элементом их отношений.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 84-87
Modern Requirements in Science and Education XI Theses Collection / 84-87
https://doi.org/10.36719/2024/XI

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Vüsal Rzayev**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
iqtisad üzrə fəlsəfə doktoru
phd.vrzayev@gmail.com

## Su təsərrüfatında yaşıl iqtisadiyyat: yeni strategiya, innovativ yanaşmalar və tətbiqlər

***Açar sözlər:*** *su təsərrüfatı, yaşıl iqtisadiyyat, su stresi, innovativ yanaşma, su strategiyası*

***Keywords:*** *water management, green economy, water stress, innovative approach, water strategy*

Azərbaycan Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmasıdır.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi ilə yanaşı, su ehtiyatlarından səmərəli istifadə də əsas istiqamət kimi göstərilmişdir.

Hazırda bəşəriyyət iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşmişdir. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli

artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mühüm təsir göstərmişdir.

Birləşmiş Millətlər Təşkilatının və Ümumdünya Su Şurasının (WWC) su ehtiyatlarının vəziyyətinə dair 2024-cü ildə dərc etdiyi hesabata görə dünyada təxminən 2,2 milyard nəfər əhalinin təmiz içməli suya, 3,5 milyard nəfərin isə təhlükəsiz idarə olunan sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın təxminən 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı problemini daha da kəskinləşdirəcəkdir.

Son 20 ilin statistik təhlilləri götərir ki, dünyada 1,4 milyarddan çox insan quraqlıqdan əziyyət çəkməkdədir. 2022-ci ilədək dünya əhalisinin təxminən 50 faizi ilin ən azı bir hissəsində ciddi su stresi ilə üzləşmişdir. Qlobal iqlim dəyişikliyi isə bu hadisələrin tezliyini və təsirini artıraraq ümumilikdə sosial sabitlik üçün ciddi risklər yaratmışdır.

Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə Azərbaycanda su ehtiyatları məhduddur və su stresi ən yüksək həddədir. Ölkəmizdə 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından və 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan formalaşan bərpa olunan şirin su ehtiyatlarının ümumi həcmi 26,2 milyard kubmetr təşkil edir.

Son 20 ildə müşahidə edilən sosial-iqtisadi inkişaf, rifah səviyyəsinin yüksəlməsi və əhali artımı öz növbəsində Ölkədə su istehlakını da artırmışdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2010-2023-cü illərdə təbii mənbələrdən götürülən suyun həcmi 10,7 faiz, su istehlakı isə 26,7 faiz artmışdır.

Lakin su qıtlığı sadəcə təbii amillərlə deyil, eyni zamanda antropogen amillərin təsiri ilə də müşahidə edilir. Qiymətləndirmələrə görə, su itkilərinin yaranmasının səbəblərinə su-

varma kanallarının torpaq məcralı olması, müasir suvarma sistemlərinin məhdud tətbiqi, içməli su infrastrukturunun köhnəlməsi, fiziki itkiləri və suların dövlət uçotunun mükəmməl olmaması, suların dövlət uçotundan yayınma, nəzarətdənkənar qoşulmalar nəticəsində yaranan kommersiya itkiləri də daxildir.

Təəssüflə qeyd edə bilərik ki, illik su təsərrüfatı balansının göstəricilərinə görə, ölkə üzrə su mənbələrindən əkin sahələrinin suvarması məqsədilə götürülən suyun 50 faizi, əhalinin içməli su təchizatı məqsədilə götürülən suyun isə 37 faizi son istehlakçıya çatmır. Bu isə, su itkilərinin orta illik həcminin təxminən ölkə ərazisində formalaşan yerüstü su ehtiyatları (təqribən 4,6 milyard kubmetr) qədər olması deməkdir.

Hazırda əhalinin içməli su ilə təmin edilməsi üçün ölkə üzrə 28,4 kubmetr/saniyə su tələb olunur. Lakin faktiki olaraq mərkəzləşdirilmiş formada xidmət göstərilən yaşayış məntəqələrinə mövcud içməli su mənbələrindən 21 kubmetr/saniyə su verilir. Bu isə, mövcud su itkilərinin 37 faizini təşkil etməkdədir.

Dövlət problemin həllinə  həm hüquqi, həm də institusional yanaşma edərək, su resurslarının əldə edilməsi, istifadəsi və qorunması ilə bağlı mərkəzləşmə siyasətini həyata keçirməkdədir. Bu isə öz növbəsində, su təsərrüfatının iqlim dəyişmələrinə adaptasiyası, yaşıl iqtisadiyyata uyğunlaşması, innovativ mexanizmlərin işlənib hazırlanması kimi vacib elementlərin başlanğıcı kimi qiymətləndirilə bilər.

Su təsərrüfatında yaşıl iqtisadiyyatın qurulması, innovativ yanaşmaların tətbiqi ilə bağlı məsələlərin həlli istiqamətində Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2024-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın hazırlanması problemin həllinə köklü yanaşmanın bariz nümunəsi kimi qiymətləndirilə bilər.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 84-87**
**Modern Requirements in Science and Education XI Theses Collection / 84-87**
**https://doi.org/10.36719/2024/XI**

Yeni su strategiyasının hədəf göstəriciləri kimi müəyyən edilən: su ehtiyatlarının yenidən qiymətləndirilməsi; su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi; su ehtiyatlarından səmərəli istifadə edilməsi; əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri ilə təminatının yaxşılaşdırılması; əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması; ekosistemin dayanıqlığı və enerji təhlükəsizliyinin təmin olunması; su təhlükəsizliyinin təmin edilməsi; hidroekoloji böhranla mübarizənin gücləndirilməsi kimi prioritet istiqamətlərin 2040-cı ilədək 3 mərhələdə həyata keçirilməsi problemin həllinə vacib töhfələrini verəcəkdir.

Yaşıl iqtisadiyyatın qurulmasında su resurslarından düzgün istifadə səmərəlilik və ekodavamlılıq məqsədinə nail olunmada xüsusi əhəmiyyətə malikdir. Şəhərlərdə və regionlarda davamlı "yaşıl iqtisadi sistem"in qurulmasında su təsərrüfatının təhlükəsizliyi, bu sahədə itkilərin minimuma endirilməsi və suyun səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edən faktorlardandır. Bu isə öz növbəsində sahənin inkişafı naminə yeni innovativ yanaşmaları və tətbiqləri zəruri edir.

## Ədəbiyyat

1. Rzayev, V.R. (2023). Qlobal iqlim dəyişikliyi və onun su resurslarına təsiri məsələlərinə mültidisiplinar baxış. *Meliorasiya Elmi-Tədqiqat İnstitutu, Elmi Əsəsrlər Toplusu*, 391(301-310)s.
2. Əhmədzadə, Ə.C. (2016). Ensiklopediya: Meliorasiya cə su təsərrüfatı. *Radius nəşriyyatı*, 632 (48-68)s.
3. Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya (2024).

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 88-91**
**Modern Requirements in Science and Education XI Theses Collection / 88-91**
**https://doi.org/10.36719/2024/XI**

**İsa Hüseynov**
Lənkəran Dövlət Universiteti
kimya üzrə fəlsəfə doktoru, dosent
isabey57@gmail.com
**Nisə İsayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
niseisayeva50@gmail.com

# Kimyada xassə, zaman, fəza, məkan, sürət anlayışları üzrə biliklərin formalaşması

***Açar sözlər:*** *kimya, xassə, zaman, fəza, məkan*
***Keywords:*** *chemistry, property, time, space, location*

Kimya təbiətşünaslıq elmlərindən biri kimi maddi aləmlə çox sıx bağlı olması səbəbindən məhz ətrafımızda baş verən fiziki hadisələrin xaotik şəkildə deyil, təbiət qanunlarına uyğun olaraq müəyyən meyarlar və ölçülər əsasında öyrənir. Baş verən hadisələrin kimyəvi proseslərə rəvac verməsini onun əsas qanun və nəzəriyyələri, kimyəvi proseslərin kinetik və icra mexanizmləri, kimyəvi maddələrin təbiəti, quruluşu və xassələrinin kimyəvi reaksiyalarda rolu üzrə bir çox məsələləri təbiət qanunları ilə harmonik uzlaşma şəraitində baş verdiyini öyrənməyə imkan verir.

Gündəlik həyatımızda baş verən dəyişikliklərin səbəbi ətrafımızda müəyyən hərəkətlərin olması ilə bağlıdır və təhsilalanlar bu hərəkətlər nəticəsində kimyəvi reaksiyalarda maddələrin fiziki-kimyəvi xassələrinin dəyişilməsi, onlardan birinin dəyişilməsinin digərinin dəyişilməsinə gətirib çıxarması haqqında elmi biliklər alırlar.

***Xassə, fiziki-kimyəvi xassələr.*** Maddələri bir-birindən fərqləndirən, onların arasındakı oxşarlığı müəyyən edən əlamətlərə

xassə deyildiyini, onun da iki cür- fiziki və kimyəvi xassə şəklində olduğunu və maddənin digər maddələrlə qarşılıqlı təsirdə olmasına kimyəvi xassə deyildiyini öyrənən təhsilalanlar tədris prosesində kimyəvi xassələrin dəyişməsinin kimyəvi proses nəticəsində baş verdiyini və bunun kimyəvi hadisə-kimyəvi reaksiya adlandığını öyrənirlər. Kimyəvi xassənin dəyişməsi isə kimyəvi reaksiyalar zamanı baş verir və bu da yeni maddənin əmələ gəlməsi deməkdir. Odur ki, onlar həmçinin kimyəvi hadisə və kimyəvi reaksiya anlayışları sinonim olmalarını, həmçinin kimyəvi hadisələr nəticəsində maddənin fiziki xassələrinin dəyişməsini dərk edirlər. Yanma, çürümə, qıcqırma, paslanma, neftin krekinqi, sabunlaşma və s. kimyəvi hadisələrdir.

***Kimyada fəza, zaman və məkan.*** Kimyanın tədrisində təhsilalanlar bir çox sırf kimyəvi və kimyaya dolayısı ilə bağlı olan digər anlayışlarla da yaxından tanış olurlar. Bu anlayışlardan zaman, fəza, məkan, sürət, tarazlıq kimi anlayışlar ilk baxışdan fizikada daha çox işlənən terminlər olmasına baxmayaraq, bunlar əslində kimyəvi hərəkətin, kimyəvi çevrilmənin baş verdiyi müddəti, onun tezliyini - baş vermə sürətini, baş vermə yerini ifadə edən çox mühüm, kimyada tes-tez ifadə olunan, işlənən fiziki-kimyəvi mahiyyəti kimyanın öyrənilməsində həmişə maraq doğuran məsələlər içərisində yer alan anlayışlardır və aşağıda onlara toxunulmuşdur.

***Kimyada fəza anlayışı.*** Təhsilalanlar kimyanın tədrisi prosesində kainatda materiaya ilə dolmamış boş yerin mövcud olmaması və materiyanın kütlə, forma kimi xassələri ilə maddi mövcud olmadığı yerdə müəyyən quruluşa malik maddi sahə və xassələrin- elektromaqnit, cazibə qüvvələri və s. olması barədə elmi biliklərə sahib olurlar. Onlar kimya dərslərinin gedişində fəzanın materiyanın əsas atributlarından biri olmasını, onun daim hərəkətdə olan materiya kimi daimi və sonsuz olmasını və xassəsinin də materiya ilə müəyyən olunduğunu

dərk edirlər. Təhsilalanlar kimyada kimyəvi quruluşdan asılı olaraq maddələrin müxtəlif fəza quruluşlarına da malik olmasını öyrənirlər. Maddələrin fəza quruluşlarının, molekulun həndəsi quruluşunun, kimyəvi rabitələrin uzunluğu və istiqamətinin öyrənilməsini, maddələr və onların kimyəvi çevrilmələrini daha yaxşı başa düşməyə kömək edir.

***Kimyada zaman və sürət anlayışları.*** Bildiyimiz kimi bütün kimyəvi proseslər müəyyən zaman hüdudlarında baş verir, yəni kimyəvi reaksiyanın baş verməsi və sona çatması üçün müəyyən zaman, vaxt lazımdır. Kimyəvi çevrilmə anlayışı ümumi olaraq müəyyən uyğun şəraitdə maddənin tərkibində dəyişiklərin baş verməsidir ki, bu dəyişikliklərin də olması, həyata keçməsi üçün vaxt, zaman gərəkdir. Bu elmi bilikləri, məlumatları alan təhsilalanlar dərk edirlər ki, üçölçülü fəza anlayışından fərqli olaraq zaman anlayışı birölçülüdür, keçmişdən gələcəyə doğru yönəlmişdir.

Bu məsələ ilə bağlı hələ 100 il öncə amerikan alimi A.Vilyamson özünün "Efirləşmə nümunəsi üzərindən kimyanın dinamikası üzrə mülahizələr" əsərində aşağıdakıları yazırdı: "Statikada biz hadisələri sükunətdə, dinamikada isə biz onların dəyişilməsini öyrənirik". Bu görünən aydın fərqi sözlərlə ifadə etsək, deyə bilərik ki, statik formadan dinamik formaya keçid müəyyən zaman və fəza ölçülərində baş verir.

Materiya barədə dialektik təlimə görə hərəkət edən materiya, fəza və zaman bir-biri ilə qırılmaz tellərlə sıx bağlanmışdır və bu hal kinetikada tam əksini və təsdiqini tapmışdır. Reaksiya sürətinin diferensial tənliyinə fikir versək görərik ki, kimyəvi reaksiyanın sürəti reaksiyaya daxil olan ilkin maddələrin müəyyən zaman müddətində qatılıqlarının dəyişilməsi ilə ifadə olunan kəmiyyətdir

$v = dc/dt$

Kimyəvi reaksiyanın sürətini ifadə edən bu sadə riyazi düstura əsasən deyə bilərik ki, fəza və zaman bir-biri ilə çox

sadə bir şəkildə əlaqəlidirlər. Təhsilalanlar dünyada hərəkət edən materiyadan başqa bir şey mövcud olmadığını və hərəkət edən materiyanın da öz-özlüyündə yalnız müəyyən zamanda, fəzada və məkanda hərəkət edə bildiyini yuxarıda ifadə olunan bu düstura əsasən öyrənərək anlayırlar ki, qatılıq və ya molekulların sayı reaksiya qarışığının vahid həcmində olan maddə miqdarından başqa bir şey deyildir. Deməli istənilən kimyəvi reaksiyanın sürəti fəza və zaman parametrləri vasitəslə ifadə olunur. Bununla da fəza və zamanın kimyada bir-biri ilə necə də sıx bağlı olması ifadə olunur. Bu düsturu öyrənməklə təhsilalanlar sürət və zaman anlayışlarını daha yaxşı dərk edir, onların bir-birini tamamladıqlarını görürlər.

***Kimyada məkan anlayışı.*** İstənilən kimyəvi çevrilməni labüd edən əsas zəruri şərtlərdən biri də vahid zaman müddətində baş verən aktiv enerjiyə malik molekulların aktiv toqquşmalarının sayıdır ki, bu molekullar da bir-biri ilə yalnız müəyyən bir yerdə, məkanda qarşılaşa bilirlər. Kinetikada çox zaman aktiv toqquşma prosesini ifadə etmək üçün sterik amildən-fəza amilindən istifadə edirlər ki, bu da məkan anlamına gəlir. Təhsilalanlar zaman, fəza və məkan anlayışlarını öyrənməklə, onların bir-biri ilə bağlılığının reaksiyaya girən maddələrin quruluşlarında, fəzada yerləşməsində və reaksiyanın sürətində də özünü göstərməsi üzrə biliklər əldə edirlər.

Fəza, zaman və məkan anlayışları maddələrin xassələrinin öyrənilməsi zamanı prosesin harada, hansı zamanda və məkanda olmasına aydınlıq gətirir və təhsilalanlar kimyanın tədrisində maddənin bir aqreqat halından digərinə keçməsini müşahidə edərək görürlər ki, maddəni əmələ gətirən kristalların forması və ölçülərinin, həcmi və xarici quruluşunun müəyyən zamanda və məkanda dəyişməsi, həmçinin kimyəvi reaksiyanın kinetikası-sürəti, kimyəvi tarazlıq, reaksiya mexanizmi, kataliz üzrə geniş biliklərə sahib olurlar ki, bu da onlara kimyanı öyrənməyə əlavə motivasiya verir.

https://doi.org/10.36719/2024/XI

**Nigar Sadıqova**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
sadiqovanigar15@gmail.com

# İqlim dəyişikliklərinin su iqtisadiyyatına təsiri: infrastrukturun və su resurslarının idarəetməsinin uyğunlaşması problemləri və perspektivləri

***Açar sözlər:*** *Su təchizatı, iqlim dəyişikliyi, innovativ texnologiya, səmərəlilik, qlobal problem*

***Keywords:*** *Water supply, climate change, innovative technology, efficiency, global problem*

Məqalə iqlim dəyişikliyinin su təsərrüfatının iqtisadiyyata təsiri mövzusuna həsr olunur. Burada dəyişən iqlim şəraitində su ehtiyatlarının idarə edilməsi problemləri, perspektivləri, ekosistemlər, infrastrukturlarla əlaqəli risklər, su qənaətini stimullaşdırmaq və su ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq üçün iqtisadi alətlər müzakirə olunur. İqlim dəyişikliyi su ehtiyatlarına, havanın temperaturunun artması və yağıntı rejiminin dəyişməsinə təsir edir ki, bu da mövcud su ehtiyatının kəmiyyət və keyfiyyətində dəyişikliklərə səbəb olur. Yaxın illərdə su çatışmazlığı kəskin xarakter alacaq. Hesab edirəm ki, istifadəyə yeni - qeyri-ənənəvi su mənbələrinin, məsələn, dəniz, kollektor-drenaj, dərin suxurlarda və yeraltı sututarlarda cəmlənmiş suların cəlb edilməsi məcburiyyəti ortaya çıxacaq. Çayların, göllərin və su anbarlarının təmizlənməsində yeni metodlar tətbiq olunmalı, bu işə xarici şirkətlər cəlb edilməli, yerli mütəxəssislərin bilik və bacarıqları artırılmalıdır.

Su ehtiyatları ən vacib təbii ehtiyatlardan biridir. Bunlar iqtisadiyyatın həyatı, istehsalı və inkişafı üçün əhəmiyyətlidir. Yer kürəsində şirin su ehtiyatları getdikcə azalır və su

ehtiyatlarının israf edilməsinin qarşısı alınmasa, bu əksər böl-gələrdə şirin su qıtlığına, sonra da qlobal ekoloji fəlakətə gətirib çıxara bilər. Müasir dünyada qlobal problemin həlli ekoloji tarazlığın qorunması, ehtiyatlardan səmərəli istifadə, o cümlədən suyun, havanın, torpağın çirklənməsinin qarşısının alınmasıdır. Şübhəsiz ki, bu problemlərin həlli Azərbaycanın qarşısında duran strateji vəzifələrin həlli üçün planlı və uzunmüddətli fəaliyyət proqramları, böyük dövlət və beynəl-xalq investisiyalar tələb olunur.

Su ehtiyatlarının çatışmazlığı problemini həll etmək üçün suyun istifadəsi və su istehlakının idarə edilməsi ilə bağlı effektiv qərarlar qəbul etmək, su ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq lazımdır. Bu cür qərarların qəbulu ictimaiyyət də daxil olmaqla bütün maraqlı tərəflərin maraqları nəzərə alınmaqla aparılmalıdır. Buna müxtəlif iqtisadi vasitə-lərlə nail olmaq olar.

İqlim dəyişikliyinin su iqtisadiyyatına təsiri çoxşaxəli və kompleksdir. Bu təsirlər su resurslarının mövcudluğuna, key-fiyyətinə və idarə olunmasına birbaşa və dolayısı ilə təsir edə bilər. Aşağıda bu təsirləri ətraflı izah edən əsas məqamları qeyd etmək olar:

1.**Su mənbələrinin tükənməsi** - yağış rejiminin dəyişməsi, buzlaqların və qar örtüyünün əriməsi.

2.**Su keyfiyyətinin pisləşməsi** - Su istifadəsinin artması, suyun temperaturunun artması, su təchizatının idarə edilməsi, infrastrukturun təsiri, su planlaşdırması, ictimai təsirlər, ekoloji təsirlər.

3.**Kənd təsərrüfatına təsir**- İnkişaf etmiş əkinçilik.

**İqtisadiyyat və sosial təsirlər -** Su istifadə haqları, sığorta və maliyyə təsirləri.

Bu təsirlərlə mübarizə aparmaq və su iqtisadiyyatını qorumaq üçün, su resurslarının idarə olunmasında innovativ yanaşmalar, uzunmüddətli planlaşdırma və davamlı inkişaf

**https://doi.org/10.36719/2024/XI**

prinsipləri tətbiq edilməlidir. İqlim dəyişikliyinin təsirini azaltmaq məqsədilə həm yerli, həm də qlobal səviyyədə tədbirlər görülməsi vacibdir.

İqlim dəyişikliyinə uyğunlaşmaq və onun su təsərrüfatına təsirini azaltmaq üçün aşağıdakı kompleks tədbirlər həyata keçirilməlidir:

Bu təsirlərlə mübarizə aparmaq və su iqtisadiyyatını qorumaq üçün su resurslarının idarə olunmasında innovativ yanaşmalar, uzunmüddətli planlaşdırma və davamlı inkişaf prinsipləri tətbiq edilməlidir.

İqlim dəyişikliyinə uyğunlaşmaq və onun su təsərrüfatına təsirini azaltmaq üçün su resurslarının idarə edilməsi, iqlimə uyğun kənd təsərrüfatı, infrastrukturun gücləndirilməsi və risklərin qiymətləndirilməsi tədbirləri həyata keçirilməlidir.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 95-99**
**Modern Requirements in Science and Education XI Theses Collection / 95-99**
**https://doi.org/10.36719/2024/XI**

**İsa Hüseynov**
Lənkəran Dövlət Universiteti
kimya üzrə fəlsəfə doktoru, dosent
isabey57@gmail.com
**Könül Əmiraslanova**
Lənkəran Dövlət Universiteti
magistrant
k.amiraslanova @mail.ru

# Kimyanın tədrisində həll olma prosesləri üzrə biliklərin formalaşması

***Açar sözlər:*** *kimya, kimyəvi reaksiya, pedaqoq, təhsilalanlar, fiziki-kimyəvi hadisələr*
***Keywords:*** *chemistry, chemical reaction, teacher, students, physical-chemical phenomena*

Kimyanın təhsilalanlarda kimyaya marağın formalaşdırılmasına və inkişafına müsbət təsir edən şəraitdə kimya dərslərinin aparılmasına, müxtəlif fiziki-kimyəvi hadisələr, fiziki-kimyəvi parametrlər, kimyəvi qanunlar və nəzəriyyələrə əsaslanan geniş biliklər almağa imkan verən metodunun tədrisdə tətbiqi zəruridir.

Bu məqsədlə pedaqoq dərsin gedişində təhsilalanların fənni daha maraqla öyrənmələri və asan qavramaları üçün hər hansı bir kimyəvi qanunun, kimyəvi reaksiyanın öyrənilməsi zamanı bu qanun və reaksiyaları əhatə edən fiziki hadisələr və fiziki parametrlərinin mahiyyətinin təhsilalanlar tərəfindən düzgün dərk edilməsini təmin etməlidir.

Kimyanın tədrisində maddələrin həllolma, çökmə, kristallaşma, donma, qaynama prosesləri üzrə biliklərin formalaşmasının bir sıra kimyəvi problemlərin həllinin ətrafda baş verən fiziki-kimyəvi hadisələrin parametrləri üzərindən ətraflı

öyrənilməsi mühüm elmi-tərbiyəvi əhəmiyyət kəsb edir. Belə ki, təhsilalanlar materiya, sahə, fiziki-kimyəvi hadisələr, kimyanın ilk anlayışları və əsas qanunları, maddələr və onların fiziki-kimyəvi xassələrinə təsir edən proseslərin əsas fiziki-kimyəvi göstəriciləri-parametrləri üzrə müəyyən elmi-nəzəri biliklər əldə edirlər.

Təhsilalanlar maddələr, qarışıqlar haqqında öyrənərkən onların həll olmaları, bir-birindən ayrılma mümkünlüyünü nümayiş və ya laboratoriya təcrübələri vasitəsi ilə müşahidə edərək müəyyən biliklərə sahib olurlar.

Pedaqoq maddələr, qarışıqlar və onların ayrılması məsələlərindən danışarkən məhlullar, həll olan komponent və həlledici mühit barəsində müəyyən məlumatlar verir. Bunları təcrübədə təhsilalanlara nümayiş etdirən pedaqoq ilkin olaraq aşağıdakı bir neçə isitqamətdə bəzi kimyəvi təcrübələr aparmaqla məsələnin həllinə nail ola bilər:

I. Həll olmayan maddələrin ayrılması.

1. Bu proses zamanı təhsilalanlar həm qarışıqların nədən ibarət olmasını anlayır, onların ayrıla bilməsini dərk edirlər, həm də, onlar maddələrin həll ola bilməsi, həll ola bilməməsi və çətin həll olan olması barədə biliklər əldə edirlər. Pedaqoq bunu aşağıda çox sadə kimyəvi təcrübələr üzərindən təhsilalanlara nümayiş etdirir:

2. Əvvəlcə o, həll olmayan maddələr və onların ayrılma üsullarını təhsilalanlara göstərir. Bunun üçün həll olmayan maddə qismində qum dənəcikləri və həlledici qismində sudan, yəni qum dənəcikləri + su qarışığından istifadə edilir və təhsilalanlar baş verənləri müşahidə edərək qum dənəciklərinin suda həll olmadığını görürlər.

3. Qum dənəciklərinin sudan ayrılması təcrübəsini izləyərkən təhsilalanlar ayrılma prosesində qum dənəciklərinin sudan ayrılmasının necə baş verməsi, suyun və qumun yığıldığı yerləri görürlər, istifadə olunan müxtəlif kimyəvi avadanlıqlar

https://doi.org/10.36719/2024/XI

və kimyəvi materiallarla, o cümlədən, süzmə qıfı-süzgəc, süzgəc kağızı, qəbuledici-kimyəvi stəkan və ya kolba, ştativ və istifadə olunan digər kimyəvi avadanlıqlarla tanış olmaq imkanı əldə edirlər.

Bununla da, onlarda məhlul, bərk maddə, həll olan maddə, çətin həll olan və olmayan maddə, həlledici, süzmə, süzgəc və filtrat barədə biliklər formalaşır.

II. Həll olan maddələrin ayrılması.

Təhsilalanlar həll olan maddələr və bu cür qarışıqların ayrılması məsələlərini təcrübi olaraq izləyirlər. Belə ki, onlara bu dəfə suda həll olan maddə kimi xörək duzu götürülür və onun həll olması nümayiş etdirilir, təcrübənin bir neçə variantda, həm soyuq və isti suda aparılması, həm həllolma vaxtının ölçülməsi, həllolmaya təsir edən amillər-soyuq və temperatur şəraitində həyata keçirilməsi, həm də həllolmanın istiliyin ayrılması və udulması- endotermik və ekzotermik xüsusiyyətli olması qeyd edilir:

1. Birinci halda pedaqoq təcrübəni soyuq suda aparır və xörək duzu kristallarının əvvəlki təcrübədə istifadə olunan qum dənəciklərindən fərqli olaraq soyuq suda həll olmasını nümayiş etdirir. Təhsilalanlar bununla xörək duzunun suda həll olmasını müşahidə edərək, ilk dəfə həllolma adlanan fiziki göstərici ilə tanış olurlar.

2. İkinci halda pedaqoq əvvəlki maddədən-qum dənəciklərindən fərqli olaraq xörək duzu kristallarının suda həll olması zamanı müəyyən qədər istiliyin ayrılmasının baş verdiyini təhsilalanlara göstərir. Pedaqoq xörək duzunun həllolması zamanı həllolma baş verən qabın divarlarının və məhlulu müəyyən qədər qızmasını təhsilalanlara əllə toxunmaları ilə hiss etmələrinə şərait yaradır. Onlar əllə qaba və ya duz məhluluna toxunmaqla məhlulun müəyyən qədər isindiyini hiss edə bilirlər. Onlar görürlər ki, xörək duzunun həllolması prosesi istiliyin ayrılması ilə müşaiyət olunur. Bununla da, təhsilalanlar

bu prosesdə iki fiziki kəmiyyətlə-həllolma hadisəsi və həllolma zamanı istiliyin ayrılması hadisəsi ilə tanış olurlar. Yəni onlar həllolmanın istilik fiziki parametri ilə tanış olurlar.

3. Üçüncü halda pedaqoq bu təcrübəni-xörək duzunun isti suda həll olmasını nümayiş etdirir. Təhsilalanlar təcrübəni müşahidə edərək görürlər ki, qabın dibində hər hansı bir miqdarda tam həll ola bilməmiş xörək duzu kristalları qalmamışdır və bütün duz kristalları isti suda tamamilə həll olmuşdur. Bu zaman pedaqoq istiliyin təsirindən bütün duz kristallarının həll olduğunu və bununla da təhsilalanlarda tam və ya qismən həllolma barədə müəyyən fikirlər yaradır və qismən və ya tam həllolma fiziki parametrlər kimi onların hafizələrinə həkk olunur.

4. Dördüncü halda pedaqoq təcrübənin gedişində həllolmaya sərf olunan zamanı qeyd edir və onu ölçmək üçün saniyəölçəndən istifadə etməklə eyni miqdar xörək duzunun soyuq və isti suda necə həll olmasını göstərir. Hər iki halda həllolmaya sərf olunan vaxtı qeyd etməklə hansı halda həllolmanın daha sürətli getməsini nümayiş etdirir və bu barədə ətraflı məlumatlar verir.

5. Bu təcrübələr vasitəsi ilə təhsilalanlar müxtəlif fiziki hadisələr - həllolma, qarışıqların ayrılması, maddələrin aqreqat hallarında baş verən dəyişikliklər və bu dəyişiklikləri zəruri edən əsas fiziki parametrlər- istilik-temperatur, həllolma və həllolmama parametri, istiliyin təsirindən həllolmanın sürəti, müxtəlif zaman kəsiyində sürətli və ya zəif baş verməsi-zaman parametri və s. kimi fiziki parametrlərlə tanış olmaq imkanı əldə edirlər ki, bu da onların sonrakı tədris prosesində kümya üzrə daha mükəmməl biliklər almasında stimullaşdırıcı və inkişafetdirici rol oynayır.

Tətbiq edilən bu müasir yanaşma üsulları, yeni pedaqoji tədris texnologiyaları metodları ilə yaxından tanış olan, onların imkanlarından düzgün istifadə etməyi bacaran təcrübəli

https://doi.org/10.36719/2024/XI

kimyaçı pedaqoq çox ustalıqla öz təhsilalanlarının diqqətini tamamilə kimya fənninə yönəltməyə, təhsilalanları müxtəlif kimyəvi təcrübələri aparmaq vərdişlərinə və səriştəsinə yiyələnməsinə və yüksək elmi-nəzəri-təcrübi biliklərlə sahib olmalarına nail olur.

Bununla da, ətrafımızda baş verən fiziki-kimyəvi hadisələr və proseslərin fiziki-kimyəvi mahiyyətinin elmi-nəzəri əsaslarını qavramış, kimyəvi təcrübələr aparmaq səriştəsinə sahib olmuş təhsilalanlarda kimyanın maraqlı fənn olması fikrini yaradır.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 100-104
Modern Requirements in Science and Education XI Theses Collection / 100-104
https://doi.org/10.36719/2024/XI

**Xalıqverdi Babayev**
AMEA Lənkəran Regional Elmi Mərkəzi
aqrar elmləri üzrə fəlsəfə doktoru
babayev. xaliqverdi58@mail.ru
**Nahid Əzizli**
Lənkəran Dövlət Universiteti
nahidezizli43@gmail.com
**Niyaz Tağıyev**
Lənkəran Dövlət Universiteti
niyaztagyev@yandex.com

# Limon bitkisinin məhsuldarlığına və məhsulun keyfiyyətinə mineral və üzvi gübrələrin təsiri

***Açar sözlər:*** *sitrus meyvələri, mineral gübrələrin təsiri, azot, torpağın münbitliyi, məhsuldarlığı, meyvələrin əmtəə keyfiyyəti*
***Keywords:*** *citrus plants, influence of mineral fertilizers, nitrogen, soil fertility, productivity, commercial quality of fruits*

Regional iqlim dəyişikliyinin baş verdiyi indiki şəraitdə Lənkəran-Astara bölgəsinin əsas torpaq fondunu təşkil edən podzollu-sarı torpaqlarda becərilən sitrus plantasiyalarından sabit və yüksək məhsulun əldə olunması üçün torpaqların münbitlik göstəricilərinin tənzimlənməsində gübrələrdən səmərəli istifadə edilməsi və baş vermiş ekoloji dəyişikliklərin aradan qaldırılması günün ən vacib məsələsidir. Bu problemin həlli üçün sitrus bitkilərinə verilən mineral və üzvi gübrələrin keyfiyyətinin qiymətləndirilməsi, elmi surətdə əsaslandırılmış gübrələmə sisteminin tətbiqi vacibdir. Ölkəmizdə sitrus meyvə bitkiləri içərisində limon naringidən sonra ikinci, dünyada isə üçüncü yerdə durur. Sitrus bitkiləri, o cümlədən limon bitkisi torpağa və onda olan qida maddələrinə çox tələbkardır. Lakin

https://doi.org/10.36719/2024/XI

torpaq-iqlim şəraitindən asılı olaraq verilən gübrələrin bir hissəsi su ilə dərin qatlara axıb gedir, digər hissəsi havaya uçur (azot), üçüncü hissəsi isə mənimsənilməyən formaya çevrilir. Buna görə də torpağın əkin qatında NPK-nın ümumi miqdarının kifayət qədər olmasına baxmayaraq, planlaşdırılan məhsulun alınması tam təmin edilmir. Bu baxımdan müasir aqrokimyanın ən aktual problemlərindən biri torpaqda bitkinin su və qida rejiminin nizamlanmasıdır (Azərbaycan Respublikasının aqroiqlim atlası, 1993: 104; Babayev, 2021). Gübrələmə və suvarma sistemində limon ağaclarına veriləcək gübrə dozaları və suvarma normalarının müəyyən edilməsi vacib məsələlərdən biridir. Gübrələrin verilmə sistemində onların növləri, verilmə vaxtları, forma və optimal dozalarının müəyyən edilməsi mühüm rol oynayır. Üzvi və mineral gübrə normalarının kompleks öyrənilməsi, hər iki faktorun optimallaşdırılması məhsulun kəmiyyət və keyfiyyətini xarakterizə edir, torpaqların münbitliyi qorunur. Bütün göstərilənlər yeni tədqiqatların aparılması zərurətini aktual bir problem kimi qarşıya məqsəd kimi çıxarır. Tədqiqatın məqsədi – Lənkəran bölgəsi şəraitində üzvi və mineral gübrələrin müxtəlif norma və nisbətlərinin yeni səmərəli texnologiyalar əsasında limon bitkisinin böyüməsinə, inkişafına, məhsuldarlığına və məhsulun keyfiyyətinə təsirini öyrənməkdir. Mövzunun öyrənilməsində əsas məqsədlərdən biri də bitkilərdən yüksək və keyfiyyətli məhsul almaq üçün hər növün və sortun bioloji tələbinə uyğun ən müasir torpaqqoruyucu becərilmə sistemi tətbiq etməklə səmərəli gübrələmə sisteminin işlənilib hazırlanmasından ibarətdir. Stansionar təcrübələr bölmələr üzrə 2022-2024-cü illərdə Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının Yardımçı Təcrübə Bazasında sitrusaltı podzollu-sarı torpaqlarda aşağıdakı sxem üzrə aparılmışdır: 1)Nəzarət (gübrəsiz); 2) $P_{120}K_{90}$ +20t/ha kompost (fon); 3)PK+$N_{120}$ 4)PK+$N_{180}$ ; 5)PK+$N_{250}$ Təcrübə 5 variant və 4 təkrarda aparılmaqla hər

təkrarda 8 bitki və bütün təkrarlarda 32 bitki olmuşdur. Limon bağında cərgəarası 3 m, bitki arası 2 m-dir. Tədqiqat obyekti olaraq limon bitkisinin “Meyer” sortu seçilmişdır. Çöl-tədqiqat işləri və bitkilər üzərində müşahidələr, limonun becərilməsinə aid bütün aqrotexniki, entomoloji-aqrokimyəvi tədbirlər sitrus bitkilərinin, eləcə də limonun becərilməsinə dair tövsiyələrə və metodikaya uyğun olaraq yerinə yetirilmişdir (Babayev, 2010: 89-96; Uchety, 1987). Tarla təcrübəsinin bir sıra işlərinin paralel yerinə yetirilməsi, icranın aqrotexnoloji növbələşməsi tarla və laboratoriya şəraitində həyata keçirilmişdir. Odur ki, limon əkinlərinə veriləcək mineral, o cümlədən azotlu gübrələrin düzgün normalarının müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Belə ki, azotlu gübrələrin dozasını 120 kq-dan 250 kq-dək çoxaltmaq üzrə 3 ildə aparılan tədqiqatlar göstərir ki, hər hektara təsiredici maddə hesabı ilə 180 kq azot, 120 kq fosfor, 60 kq kalium 20 t/ha kompost fonunda gübrə verildikdə torpaqda limon bitkisi üçün əlverişli qida rejimi yaranır. Qidalanma şəraiti limon ağaclarının boy, inkişaf və məhsuldarlığına təsir edir. Təcrübədə müxtəlif variantlar üzrə alınmış məhsulun miqdarı həmin əhəmiyyətli təsiri daha aydın göstərir (cədvəl 1).

**Cədvəl 1.**

**Gübrə norma və nisbətlərinin “Meyer ağ çiçək” limon sortunun məhsuldarlığına təsiri (3-ildə orta. 2022-2024-cu illər)**

| № | Sort-formalar | Məhsul, kq/ha | Artım | |
|---|---|---|---|---|
| | | | Kq/ha | % |
| 1 | Nəzarət (gübrəsiz) | 13194 | - | - |
| 2 | $P_{120}K_{60}$+20t/ha kompost (fon) | 22204 | 9010 | 68,3 |
| 3 | Fon+$N_{120}$ | 35264 | 22070 | 167,3 |
| 4 | Fon+$N_{180}$ | 35722 | 22528 | 171,0 |
| 5 | Fon+$N_{250}$ | 34442 | 21248 | 161,0 |

https://doi.org/10.36719/2024/XI

Sortun təsərrüfat xüsusiyyətlərindən biri də meyvənin keyfiyyətli olmasıdır.

Aparılmış tədqiqatın nəticələri göstərir ki, azot gübrəsinin artan normasından asılı olaraq limon sortlarının meyvələri kimyəvi tərkibcə bir-birindən əsaslı sürətdə fərqlənir (cədvəl 2).

**Cədvəl 2. "Meyer ağ çiçək" limon sortunun keyfiyyət göstəriciləri (100ml şirə çıxımı) 2022-2024-ci illər. 3 ildə orta göstəricilər.**

| № | Sort-formalar | Ümumi şəkər | | Limon turşusu | | Vitamin C mq/% | | Efir yağı | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | qabıq | meyvə | qabıq | meyvə | qabıq | meyvə | qabıq | meyvə |
| 1 | Meyer ağçiçək | 5.91 | 1.92 | 0.31 | 5.52 | 138 | 55 | 2.0 | 0.20 |

Ən yaxşı nəticə isə hektara fon+$N_{180}$ kq verilən variantda "Meyer ağ çiçək" limon sortunda məhsulunun keyfiyyət göstəriciləri (100 ml şirə çıxımında) ümumi şəkər-qabıqda və meyvədə 5,91-1,92 %, limon turşusu 0,31-5,52%, "C" vitamini 138-55 mq /% və efir yağı - qabıqda 2,0% olmaqla meyvədə isə cüzi miqdar (0,20%) təşkil etmişdir (cədvəl-2). Tədqiqatın nəticəsinə əsasən qeyd etmək olar ki, limon bitkisinin məhsuldarlığını qida rejimi müəyyənləşdirir və mineral-üzvi gübrələrin elmi əsaslarla tətbiqi ilə onu yaxşılaşdırmaq mümkündür.

Müxtəlif dozalarda verilən azotlu gübrələrin variantlarını müqayisə edərək belə nəticəyə gəlmək olar ki, yüksək və keyfiyyətli məhsul əldə etmək üçün hər hektara təsiredici maddə hesabı ilə 180 kq azot, 120 kq fosfor, 60 kq kalium 20 t/ha kompost fonunda gübrə verilməlidir.

https://doi.org/10.36719/2024/XI

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının aqroiqlim atlası* (1993). (Ə.C.Əyyubovun redaktə heyəti ilə). Bakı, s.104.
2. Babayev, X.Y. (2021). *Sitrus bitkilərinin gübrələnməsinin elmi-praktik əsasları*. "Elm".
3. Babayev, X.Y. (2010). Lənkəran təbii vilayətinin iqlim xüsusiyyətləri və onların su ehtiyatlarına təsiri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri*. C. 3, s. 89-96.
4. *Uchety, nablyudeniya, analizy, obrabotka dannykh v opytakh splodovymii yagodnymi rasteniyami* (metodicheskie rekomendatsii) (1987). (Pod red. Karpechuka G.K. i Mel'nika A.V.). Uman C.-X. Ins-t.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 105-108
Modern Requirements in Science and Education XI Theses Collection / 105-108
https://doi.org/10.36719/2024/XI

**Hüseyn Kazımzadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseyn.kazimzada@adau.edu.az

# Dərmanların hədəfləndirilməsi

***Açar sözlər:*** *dərman maddələri, xəstəlik, əlavə təsirlər, hədəfləndirmə, dərman daşıyıcı sistemlər*
***Keywords:*** *medicinal substances, disease, additional effects, targeting, drug delivery systems*

Xəstəliklərin profilaktikası və müalicəsi məqsədilə yüzlərlə dərman maddəsi yaradılmışdır və tibb təcrübəsində istifadə edilir. Böyük bir hissəsi kimyəvi sintez yolu ilə əldə edilmiş bu dərman maddələrinin istifadəsi zamanı yaranan əsas problemlərdən biri onların orqanizmə göstərdikləri əlavə təsirlərdir. Xəstəlik zamanı istifadə edilən dərman maddələri orqanizmin yalnız xəstəlik olan orqan və toxumalarına deyil, sağlam olanlara da təsir edir. Beləliklə, bir xəstəliyi müalicə etməyə çalışarkən başqa xəstəliklərin ortaya çıxması halları yaranır.

Müasir tibb və əczaçılıq elmlərinin qarşısında duran vəzifələrdən biri də effektiv və təhlükəsiz dərman maddələrinin yaradılmasıdır. Bu məqsədlə dünya miqyasında çoxsaylı tədqiqatlar aparılmışdır və hələ də davam edir. Bəzi tədqiqatlar əlavə təsirləri az olan yeni dərmanların yaradılması əvəzinə, mövcud dərmanların göstərdiyi əlavə təsirlərin azaldılması istiqamətinə yönəlmiş və bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir. Dərmanların əlavə təsirlərinin minimuma endirilməsi məqsədilə aparılan tədqiqatlar nəticəsində “dərmanların hədəfləndirilməsi” sistemləri işlənib hazırlanmışdır.

Dərmanların hədəfləndirilməsi, onların xəstə hüceyrə, toxuma və orqanlara daha effektiv çatdırılmasını təmin edən xüsusi metodlardır.

**https://doi.org/10.36719/2024/XI**

Burada əsas məqsəd dərman maddələrinin arzuolunmaz əlavə təsirlərini azaltmaq, müalicənin effektivliyini artırmaq və təsir müddətini uzatmaqdır. Bu baxımdan dərmanların hədəfləndirilməsi mexanizmləri və metodlarının öyrənilməsi olduqca əhəmiyyətlidir.

Dərmanların hədəfləndirilməsi prinsipləri aşağıdakılardır:

1. ***Hədəfin tanınması.*** Hədəflənmiş dərman maddəsinin xəstə hüceyrələrdə olan xüsusi molekulları tanımasına əsaslanır. Məsələn, reseptorlar, fermentlər və ya zülallar.

2. ***Hədəfə yönəldilmə.*** Dərman maddələrini xəstə hüceyrə və toxumalara çatdırmaq üçün müəyyən daşıyıcı sistemlərdən istifadə edilir. Məsələn, liposomlar, hidrogellər, nanohissəciklər, xüsusi liqandlar və s.

3. ***Hədəflənmənin təmin edilməsi.*** Dərman maddəsi hədəfə çatdıqdan sonra effektin təmini üçün hədəf molekullarla qarşılıqlı təsirə girməlidir.

Dərmanların hədəfləndirilməsi zamanı xüsusi dərman daşıyıcı sistemlərdən istifadə edilir. Onların bəziləri ilə tanış olaq:

**Lipid əsaslı dərman daşıyıcıları** – liposomlar, niosomlar, transferosomlar, etosomlar, farmakosomlar, virosomlar, ufasomlar və kubosomlar kimi müxtəlif növləri vardır (Bhingare, Khadabadi, Shinde, 2014: 15-16).

**Eritrositlər** – dərman maddələrinin hədəfləndirilməsində bəzən xəstənin öz eritrositlərindən də istifadə edilir. Əvvəlcə eritrositlər *ex vivo* şəraitdə kapsullaşdırılır, daha sonra dərman maddəsi içərisinə daxil edilir. Onların əsas çatışmazlığı temperaturun təsirindən parçalanmalarıdır. Bu baxımdan 4°C temperaturda saxlanmalıdırlar (Muzykantov, 2010: 403).

**Mikrokürələr** – dərman maddələri polimerlərdən hazırlanmış kiçik sferik hissəciklərə doldurulur.

**Nanohissəciklər** – dərman maddələri nanoölçülü hissəciklərə doldurulur. Məsələn, nanokürələr, nanokapsullar, nanoborular, nanoməsamələr və s.

**Polimer mitselilər** – dərman maddəsini içərisində saxlayan hidrofob nüvə və onu əhatə edən hidrofil təbəqədən ibarət olurlar.

**Dendrimerlər** – ağacşəkilli budaqlanmış, 10-30 nm ölçülərdə olan üçölçülü daşıyıcı sistemlərdir.

**Mikrosüngərlər** – polimer əsaslı, mikroskopik ölçülü dərman daşıyıcı sistemlərdir.

**Mikroemlsiyalar** – bir-biri ilə qarışmayan iki mayenin əmələ gətirdiyi izotropik dispers sistemlərdir. Dərman maddəsinin həllolmasını artırması, hazırlanma və istifadəsinin rahatlığı dərman daşıyıcı sistem kimi istifadələrini asanlaşdırır.

**Hədəfləndirilmiş liqandlar** – dərman maddələrini xəstə hüceyrə, toxuma və orqanlara çatdırmaq üçün onlara bağlanan xüsusi liqandlar istifadə edilir (Prabahar, Alanazi, Qushawy, 2021: 348-349).

**Cədvəl 1. Hədəfləndirilmiş liqandların növləri və hədəfləri**

| Liqandın növü | Hədəf | Nümunələr |
|---|---|---|
| Antikorlar | Xüsusi hüceyrə səthi zülalları | Xərçəng hüceyrələrinə yönələn antikorlar |
| Peptidlər | Reseptorlar, fermentlər | İnsulinə bənzər boy faktoru (İGF) reseptorlarına yönələn peptidlər |
| Kiçik molekullar | Reseptorlar, fermentlər | Fol turşusuna bənzər kiçik molekullar |

## Ədəbiyyat

1. Bhingare, U., Khadabadi, S.S., Shinde, N. (2014). Pharmacosomes: a novel drug delyvery system. *International journal of pharmaceutical research and rllied sciences*. Volume 3, issue 1, p. 14-20.
2. Muzykantov, V.R. (2010). Drug delivery by red blood cells: vascular carriers designed by mother nature. *Expert opinion on drug delivery*. Volume 7, issue 4, p. 403-427.
3. Prabahar, K., Alanazi, Z., Qushawy, M. (2021). Targeted drug delivery system: advantages, carriers and strategies. *İndian journal of pharmaceutical education and research*. Volume 55, issue 2, p. 346-353.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 109-110
Modern Requirements in Science and Education XI Theses Collection / 109-110
https://doi.org/10.36719/2024/XI

**Vüsalə Ağamirova**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
aghamirovavusala@gmail.com
**Sevinc Mircəfərli**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
mirjafarlis@gmail.com

# Su resurslarının davamlı idarə edilməsi, idarəetmə strategiyaları və iqtisadi yanaşmalar

***Açar sözlər:*** *su ehtiyatları, iqtisadi yanaşma, davamlı inkişaf, suyun mühafizəsi, suyun davamlı idarəedilməsi*
***Keywords:*** *water resources, economic approach, sustainable development, water protection, sustainable water management*

Tezisdə su resurslarının davamlı, optimal və ədalətli idarə edilməsində yeni alternativ həll yollarını tapmağa kömək edən yanaşmalar araşdırılır. Su resurslarından daha səmərəli istifadə, suyun qorunması, suyun bərabər bölüşdürülməsi üçün iqtisadi yanaşmalar müəyyən edilir. Bundan əlavə, suyun davamlı idarəedilməsi zamanı kompleks yanaşma, uyğun strategiyaların nəzərə alınması, iqtisadi effektivlik, texnoloji inkişafa diqqət yetirilməsi və tələblərə uyğun olması əsas hesab olunan amillər nəzərə alınmalıdır. Ümumiyyətlə, suyun idarəedilməsi onun uzunmüddətli istifadəsini hədəfləyən yanaşmadır. Fərqli aspektlərdən olan yanaşmalar su resurslarının mühafizəsi və idarə edilməsi üçün müxtəlif strategiyaların formalaşmasına şərait yaradır, həmçinin davamlı gələcəyin qurulmasına kömək edir.

Məlumdur ki, Dünyada su ehtiyatları insan fəaliyyətinin artması nəticəsində ciddi təsirlərə məruz qalmışdır. Son 50 ildə qlobal su istehlakı 3 dəfə artmışdır. Su resurslarının yaxşılaşdırılması, onların tükənməsinin qarşısının alınması, yeni-

dən bərpası və  suyun təkrar istifadəsi kimi məsələlərin həlli çoxşaxəli yanaşma tələb edir. Suya olan tələbatın artmasının başlıca amillərindən biri əhalinin artımı ilə bağlıdır. Su ehtiyatlarının davamlı idarə edilməsi ətraf mühit və sosial rifah üçün mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının inkişafı, suya olan tələbat və suyun paylanması müxtəlifdir. Suyun idarə olunması davamlı inkişaf və gələcək üçün vacib amillərdən biri hesab olunur. Su ehtiyatlarından düzgün istifadə olunmaması və antropogen təsirlərin artması təbiətdə tarazlığın pozulmasına gətirib çıxardır.

Su ehtiyatlarının davamlı idarə edilməsi üçün müxtəlif iqtisadi və idarəetmə yanaşmaları mövcuddur. Su resurslarının davamlı idarəedilməsi zamanı onun tələblərə uyğun olması, həmçinin sosial-iqtisadi, ekoloji və texnoloji amilləri nəzərə alınmalıdır. Sudan istifadə və idarəetmə zamanı təbii iqlim şəraiti, maliyyə dəstəyi, planlama və şəffaflıq təmin edilməlidir. Son illərdə su ehtiyatlarının mühafizəsinə, inteqrasiyalı yanaşmasına maraq artmaqdadır. Bundan əlavə, iqlim dəyişikliyinin su resurslarına təsirini azaltmaq üçün bir sıra yanaşmalar da işlənib hazırlanmışdır. Əsas məqsədlərdən biri su resurslarının qorunması, təsirlərin nəticələrinin yüngülləşdirilməsi və sudan istifadənin optimallaşdırılmasının təmin edilməsidir.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 111-112
Modern Requirements in Science and Education XI Theses Collection / 111-112
https://doi.org/10.36719/2024/XI

**Rafiq İsmayılov**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
rafiqismayill@gmail.com

# Azərbaycanda suvarma texnologiyalarının iqtisadi inkişafa təsiri və əhəmiyyəti

***Açar sözlər:*** *suvarma texnologiyaları, su israfı, pivot sistemləri, kənd təsərrüfatı, iqtisadi səmərə*

***Keywords:*** *irrigation technologies, water waste, pivot systems, agriculture, economic efficiency*

Suvarma texnologiyaları kənd təsərrüfatının iqtisadi səmərəliliyində mühüm rol oynayır. Müasir suvarma sistemlərinin tətbiqi suyun effektiv istifadəsini təmin edir. Damla suvarma və pivot sistemləri kimi yenilikçi texnologiyalar bitkilərin böyümə şəraitini yaxşılaşdırır və istehsal xərclərini optimallaşdırır.

Azərbaycanın kənd təsərrüfatında müasir suvarma texnologiyaları, xüsusilə damcı suvarma və pivot sistemləri, suyun optimal istifadəsini təmin edir, su itkilərini minimuma endirir. Məsələn, Şirvan bölgəsində damcı suvarma sistemlərinin istifadəsi nəticəsində məhsuldarlıq artmışdır. Eyni zamanda, Gəncə bölgəsində pivot suvarma sistemləri suvarma prosesinin avtomatlaşdırılması ilə işçi qüvvəsi tələbatını azaltmışdır.

Ekoloji baxımdan da suvarma texnologiyalarının əhəmiyyəti böyükdür. Bu texnologiyalar torpaq eroziyasının qarşısını almaqla yanaşı, suyun torpaqda bərabər paylanmasını təmin edir və ətraf mühitin qorunmasına kömək edir. Damcı suvarma sistemi torpağın üst qatını zədələmədən, suyun istifadəsini təmin edir. Pivot sistemləri də suyun bərabər paylanmasını təmin edərək torpaq keyfiyyətinin qorunmasına kömək edir.

https://doi.org/10.36719/2024/XI

Bu, həmçinin ekosistemlərin qorunmasına və kənd təsərrüfatı sahələrində ekoloji tarazlığın təmin edilməsinə dəstək verir.

Gələcəkdə suvarma texnologiyalarının avtomatlaşdırılması və rəqəmsal idarəetmə sistemlərinin inteqrasiyası su ehtiyatlarının daha da effektiv idarə olunmasını mümkün edəcəkdir. Bununla yanaşı, iqlim dəyişikliklərinə uyğunlaşa bilən suvarma sistemlərinin tətbiqi kənd təsərrüfatlarının daha dayanıqlı fəaliyyət göstərməsini təmin edəcəkdir. Bu texnologiyaların inkişafı və geniş yayılması Azərbaycanın kənd təsərrüfatı sektorunun qlobal bazarda daha rəqabət qabiliyyətli olmasına və ölkənin ixrac potensialının artmasına şərait yaradacaqdır.

Dövlət dəstəyi və investorların marağı suvarma texnologiyalarının genişləndirilməsi və təkmilləşdirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu texnologiyaların genişləndirilməsi kənd təsərrüfatı istehsalının davamlı şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 113-115**
**Modern Requirements in Science and Education XI Theses Collection / 113-115**
**https://doi.org/10.36719/2024/XI**

**Nərgiz Budaqova**
Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu
n.budogova@gmail.com

# Xəzər dənizinin duzsuzlaşdırılmasının innovativ üsulları üzrə layihələrin iqtisadi əhəmiyyəti

***Açar sözlər***: *dəniz suyu, enerji səmərəliliyi, ekoloji təsir, tərs osmos, termodistillasiya, şirin su istehsalı*
***Keywords:*** *sea water, energy efficiency, environmental impact, reverse osmosis, thermodistillation, fresh water production*

Dəniz suyunun duzdan təmizlənməsi müasir su təminatı problemlərinə qarşı effektiv bir həll yolu təqdim edir. Bu proses, xüsusilə içməli su çatışmazlığı yaşayan bölgələrdə kənd təsərrüfatını dəstəkləyir, sənaye ehtiyaclarını qarşılayır və su resurslarına olan asılılığı azaldır. Eyni zamanda, bu texnologiya ekosistemlərin qorunmasına, torpaq duzlanmasının qarşısının alınmasına və şoran suların mühafizəsinə kömək edir.

Dəniz suyunun duzsuzlaşdırılması – əsasən quraq, səhralıq ərazilərdə, su qatlarının olmadığı yerlərdə təmiz su ehtiyatlarını artırmaq üçün əla bir yoldur. Proses duzların tərkibindəki miqdarının əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tutur: dəniz suyunun duzluluğu 35 g/l (dünya okeanının orta göstəricisi) təşkil edə bilər, lakin içməli su üçün bu miqdar litr başına 1 qramdan çox olmamalıdır.

Dəniz suyunun duzsuzlaşdırılması Azərbaycanda su ehtiyatlarının təmin olunması üçün böyük bir addım ola bilər. Bu, ölkənin iqtisadi inkişafına və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına böyük təsir göstərə bilər.

https://doi.org/10.36719/2024/XI

Azərbaycanın sosial-iqtisadi inkişafında su resurslarının daha səmərəli istifadəsi, su resurslarının təhlükəsizliyinin təmin edilməsi, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması və bu sahədə yeni texnologiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Dəniz suyunun duzdan təmizlənməsi qiyməti bir neçə amildən asılı olaraq dəyişə bilər, bunlar arasında seçilmiş təmizləmə texnologiyası, layihənin miqyası, yerləşmə yeri, enerji mənbələrinin mövcudluğu və digər amillər daxildir. Bu amilləri nəzərə alaraq, layihə planlaşdırılarkən qiymətlərin dəqiqləşdirilməsi üçün daha ətraflı araşdırma aparmaq vacibdir.

Dünyanın bir çox regionlarında şirin su ehtiyatlarının çatışmazlığı problemi hər keçən gün daha kəskinləşir. Xüsusilə, Xəzər dənizi sahillərində yerləşən bölgələr əhali və sənayenin su təminatı ilə bağlı artan problemlərlə üzləşir. Bu problemi həll etmək üçün mövcud variantlardan biri dəniz suyunu duzsuzlaşdırmaq və bu yolla şirin su əldə etməkdir.

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olaraq, duzsuzlaşdırma üçün potensial mənbə kimi nəzərdən keçirilir. Lakin belə layihələrin iqtisadi səmərəliliyi hələ də müzakirə mövzusudur. Duzsuzlaşdırmanın yüksək xərcləri və enerji tutumlu olması uzunmüddətli perspektivdə iqtisadiyyat və ekologiya üzərində ciddi təsir göstərə bilər.

Aparılan tədqiqatların nəticəsinə görə iqtisadi üsul olaraq ultrafiltrasiya (əks osmos) metodu ən effektiv metod hesab oluna bilər. Dəniz suyunun duzsuzlaşdırılması Azərbaycanda su ehtiyatlarının təmin olunması üçün böyük bir addımdır və bu, ölkənin iqtisadi inkişafına və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına böyük təsir göstərə bilər. Bu metodlar texnoloji cəhətdən davamlı və iqtisadi cəhətdən sərfəlidir, xüsusilə də uzunmüddətli perspektivdə.

Azərbaycanda su resurslarının daha səmərəli idarə olunması və su təminatının daha davamlı olması gözlənilir.

**https://doi.org/10.36719/2024/XI**

Xəzər dənizindən əldə edilmiş içməli su hesabına Abşeron yarımadasını içməli su ilə təmin etmək olar. Ancaq ilk növbədə Bakının Xəzər rayonunun su ilə təmin olunması daha yaxşıdır, belə ki, bu ərazilər həm uzaqdadır, həm də onların su mənbələri yoxdur. Bu ərazilərə suyun verilməsi xeyli baha başa gəlir. Bunları nəzərə alaraq, ilkin olaraq, diqqətin həmin yaşayış məntəqələrinin üzərinə cəmlənməsi daha məqsədəuyğundur.

Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 116-119
Modern Requirements in Science and Education XI Theses Collection / 116-119
https://doi.org/10.36719/2024/XI

**Xaqan İsazadə**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
xaqanisazade11@gmail.com
UOT 631.626.89.075

# Deformasiyaya uğramış çay məcrasının bərpası

***Açar sözlər:*** *məcra, çay, antropogen, deformasiya, bərpa, məcrabərpaedici qurğu*

***Keywords:*** *course, river, anthropogenic, deformation, restoration, recovery unit*

Tezis təsərrüfat fəaliyyəti və təbii təsirlər nəticəsində dayanıqlığını itirmiş çay məcrasının bərpa olunması məsələlərinə həsr edilmişdir. Dərinlik və plan üzrə deformasiyaya uğramış çay məcrasını bərpa etmək üçün konstruktiv cəhətdən daha sadə və iqtisadi baxımdan daha səmərəli olan məcrabərpaedici qurğu təklif edilmişdir.

Çayları, onların su toplayıcı hövzələrinə göstərilən antropogen və təbii təsirlər nəticəsində onların təbii dayanıqlığı itirilmişdir. Əsasən çayların su mühafizə zona və zolaqlarında, həmçinin onların yataqlarında həyata keçirilən təsərrüfat fəaliyyəti nəticəsində çay məcrasını və sahilləri deformasiyaya məruz qalmışdır. Çayların yataqları yuyulub 2m-dən 15m-ə qədər aşağı düşmüşdür, sahillərində yerləşən yaşayış məntəqələri və kommunikasiyalar təhlükə altında qalmışdır. Qeyd edilən fəsadları aradan qaldırmaq üçün dərinlik və plan üzrə deformasiyaya məruz qalmış çayların məcralarının bərpası olduqca vacibdir.

Təhlil və müzakirələr. Deformasiyaya uğramış çay məcralarını bərpa etmək üçün bir sıra məcrabərpaedici qurğular təklif edilmişdir.

Dərinlik eroziyasını aradan qaldırmaq və çay məcrasının dayanıqlığı üçün maili divarlı zaprud qurğusu məlumdur (Əhmədov və b., 2015: 274-285). Qurğunun çatışmayan cəhəti ondan ibarətdir ki, o mürəkkəb formaya malikdir və sahillərin mühafizəsi nəzərə alınmamışdır.

Yuyulub dərinə düşmüş çay yatağını bərpa etmək və çayın dayanıqlığını artırmaq üçün barraj tipli zaprud qurğusu da təklif edilmişdir (Müslümov və b., 2018: 250-254). Bu qurğunun çatışmayan cəhəti ondan ibarətdir ki, güclü sel axınları zamanı qurğunun çay daşlarından ibarət olan hissəsi qısa müddət ərzində palçıq və digər gətirmələr hesabına tutulur.

Qeyd edilən çatışmazlıqları nəzərə alaraq, deformasiyaya uğramış çay məcralarını bərpa etmək üçün dib torlu yeni məcrabərpaedici qurğu hazırlanmışdır (Həsənov, Qüdrətzadə, 2023: 159-163). Bu qurğu savay-dirəklərdən, gərilmiş polad kanatlardan, elastik tordan, ucu ilgəkli bərkidici ankerlərdən və guşə formalı sahilqoruyucu divardan ibarətdir (şək.).

Məcrabərpaedici və sahilqoruyucu qurğunun iş prinsipi belədir. Sel, daşqın və ənənəvi axınlar çayın məcrası ilə axaraq çayın deformasiyaya uğramış məcrasına daxil olur. Axınla nəql olunan asılı və dib gətirmələrin bir qismi birinci torda, digər qismi isə sonrakı torlarda tutulub saxlanılır. Dib və asılı gətirmələr torlar arasındakı sahələrdə tədricən çökərək, deformasiyaya uğramış çay yatağında yığılır və çayın məcrasını tədricən bərpa edir.

Qurğunun üstün cəhətləri ondan ibarətdir ki, o həm məcrabərpaedici, həm də sahilbərkidici qurğuları kimi işləyir, məlum qurğular ilə müqayisədə daha ucuz başa gəlir və konstruktiv cəhətdən olduqca sadədir, istismar xərcləri tələb etmir və s.

https://doi.org/10.36719/2024/XI




**Şək. Məcrabərpaedici və sahilqoruyucu qurğu: 1-tor; 2-tros; 3-svay-dayaq; 4-anker; 5–sahilqoruyucu divar; DSS-daşqın su səviyyəsi; NSS-normal su səviyyəsi; ÇBS-çayın bərpa olunan dib səviyyəsi; ÇDS-çayın deformasiyaya uğramış dib səviyyəsi.**

https://doi.org/10.36719/2024/XI

Dayanıqlığını itirmiş və deformasiyaya uğramış çay məcralarını bərpa etmək, həmçinin çay sahillərini bərkitmək və qorumaq üçün daha sadə, yüngül konstruksiyaya malik və ucuz başa gələn sahilqoruyucu və məcrabərpaedici qurğu hazırlanmışdır.

## Ədəbiyyat

1. Əhmədov, B.M., Ağayev, İ.H., Müslümov, A.M. (2015). Kürmükçayda tikilmiş sahilmühafizə qurğularının dayanıqlığının artırılması və iş rejiminin yaxşılaşdırılmasından ötrü hidrotexniki tədbirlər. *AzHvəM EİB-nin elmi əsərlər toplusu*. Elm, c. XXXIV, s. 274-285.
2. Müslümov, A.M., Mahmudova, M.İ., Rüstəmov, R.C. (2018). Göyçay çayında gedən məcra prosesləri və məcranın dayanıqlığının artırılması tədbirləri. AzHvəM EİB-nin elmi əsərlər toplusu. Elm, c. XXXVII, s. 250-254.
3. Hasanov, S.T., Gudratzade, Sh.V. (2023). Restoration of river courses that lost natural stability. *The Norwegian Journal of Development of the international Science*. №121/2023, pp.159-163.

**Elm və Təhsildə Müasir Tələblər XI Tezislər Toplusu / 120-122**
**Modern Requirements in Science and Education XI Theses Collection / 120-122**
**https://doi.org/10.36719/2024/XI**

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Şəbnəm Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
shebnememmedova18@gmail.com

# Tədrisdə bulud texnologiyasından istifadə

***Açar sözlər**: bulud, tədris, onlayn, texnologiya, platforma*
***Keywords:** cloud, education, online, technology, platform*

Bulud texnologiyası məlumatların, proqram təminatlarının və digər rəqəmsal resursların internet üzərindən uzaq serverlərdə saxlanılması, işlənməsi və istifadəsini təmin edən texnologiyadır. Burada resurslar fiziki olaraq istifadəçinin cihazında saxlanılmır. Resurslar uzaq serverlərdə saxlanılır. İstifadəçi istədiyi zaman internet vasitəsilə giriş edə bilər.

Bulud texnologiyasının yaranması internetin və kompyuter şəbəkələrinin inkişafı ilə əlaqədardır. 1960-cı illərdə John McCarrthy və məsləkdaşları tərəfindən hesablama xidmətlərinin uzaqdan idarə edilməsi ideyasını irəli sürdülər. 1990-cı illərdə Virtualizasiya Texnologiyasının yaranması ilə bulud texnologiyasının inkişafı sürətləndi. 2006-cı ildə Amazon şirkətinin Amazon WEB Services (AWS) platformasını təqdim etməklə, bulud texnologiyasının ticarət məqsədli istifadəsinə yol açmışdır. Sonralar isə Google, Microsoft, İBM kimi böyük şirkətlər də bu bazara qatıldılar. 2020-ci il pandemiya dövrünə təsadüf etdiyinə görə bulud texnologiyalarının əhəmiyyəti ciddi şəkildə artdı. Artıq bu dövrdə təhsil, səhiyyə və digər sahələrdə bulud texnologiyasından geniş istifadə olunmağa başlandı.

Bulud texnologiyasının tətbiq olunduğu sahələr aşağıdakılardır:

1.Maliyyə;

2.Səhiyyə;

3.Təhsil və başqa sahələr.

Tədrisdə bulud texnologiyalarından istifadə çox böyük imkanlara malikdir. Keçmişdə məktəblər informasiya saxlamaq üçün yerli serverlərə və böyük kompyuterlərə etibar edirdilər. Bu isə məhdud giriş və köhnəlmiş resurslar idi. Bulud texnologiyasından istifadə artıq hər şeyi dəyişir. Beləliklə, biz internet bağlantısı olan və hər yerdə əldə edilə bilən nəhəng onlayn yaddaş sahəsi qazanmış oluruq.

Tədrisdə bulud texnologiyasından istifadənin üstünlükləri aşağıdakılardır:

1.Sürətli quraşdırma; 2.Ölçülən resurslar; 3.Təhlükəsizlik; 4.Məkan azadlığı.

Bəs tədrisdə bulud texnologiyasının ən yaxşı tətbiqləri hansılardır?

İndi isə bunu araşdıraq. Bunlara aşağıdakılar aiddir.

Bulud əsaslı yaddaş. Dropbox və Google Drive kimi platformalar təhsil resursları üçün əlçatan yaddaş və təhlükəsizlik təmin edir. Müəllimlər və şagirdlər (tələbələr) asanlıqla materialları, tapşırıqları və multimedia fayllarını saxlaya və paylaşa bilərlər.

Onlayn əməkdaşlıq alətləri. Google sənədlər və Microsoft komandaları və Slack kimi bulud əsaslı alətlər layihələr və tapşırıqlar üzrə real vaxtda əməkdaşlığa imkan yaradır. Şagirdlər (tələbələr) məkanlarından aslı olmayaraq təqdimatlar, sənədlər və beyin fırtınası sessiyaları üzərində birlikdə işləyə bilərlər.

Öyrənmə İdarəetmə Sistemləri (LMS). Canvas, Blackboard və Moodle bulud əsaslı LMS platformalardır. LMS proqram təminatının hazırlanması müəllimlər və tələbələr arasındakı

https://doi.org/10.36719/2024/XI

ünsiyyət üçün mərkəzləşdirilmiş mərkəz təmin edən fərdi öyrənmə yolları yaratmağa yardım edir.

Virtual sinif otaqları. Zoom və Google Meet kimi bulud əsaslı video konfrans platformaları ilə virtual sinf otaqlarının təşkil edilməsi asanlaşdırılır. Ucqar yerlərdə yaşayan təhsilalanlar üçün bu proqramlar çeviklik və əlçatanlıq yaradır.

Müəllimlər üçün peşəkar inkişaf. Bulud əsaslı platformalar müəllimlər üçün onlayn kurs və vebinarlar təklif olunur. Bu da öz növbəsində davamlı öyrənməyə və təkmilləşdirməyə imkan verir.

Təhsildə bulud hesablaması tələbələrin öyrənmə və müəllimlərin öyrətmə üsullarını dəyişdirmək üçün güclü alətlər dəsti təklif edir. Əlçatanlığı, genişlənməsi və innovativ potensialı ilə bulud hər kəs üçün dinamik və cəlbedici öyrənmə təcrübəsi yarada bilər. Təhsilin gələcəyi Buluddadır!

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Teymur Abbasov**
Basic Principles of the Organization Innovation Activity ....... 7
**Şəhla Süleymanova**
Kiçik məktəbyaşlı şagirdlərdə bədii istedadın aşkara çıxarılmasının pedaqoji əsasları ............................................... 9
**Sevinc Vəliyeva**
Ekoloji təhsil və ekoloji məsuliyyət hissinin formalaşdırılmasının əhəmiyyəti ............................................ 13
**Sevinc Abdullayeva**
XX əsrdə Azərbaycanda demoqrafik vəziyyət ....................... 17
**Eynur Rüstəmov**
Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının hüquqi əsasları ............................................ 20
**Zita Hüseynova, Gülruyyə Məmmədova**
Aqrar sahədə xarici dilin tədrisinin müsbət xüsusiyyətləri .... 24
**Sevinc Abdullayeva**
Hərbçi şəxsiyyətinin formalaşmasına psixo-emosional halların təsiri ......................................................................... 26
**Rəcəb Bəyəliyev**
Dövlətin milli strategiyasında İlham Əliyevin rolu ............... 29
**Ramil Qasımov**
44 günlük müharibədə əldə edilmiş qələbənin başlıca səbəbləri ........................................................................... 33
**Kəmalə Xudaverdiyeva**
Mərkəzi Asiyanın türk dövlətləri və Ermənistan arasında əməkdaşlıq əlaqələri ............................................................. 37

**Elmar İsmayılzadə**
Geri qayıdışa əngəllər: post-münaqişə dövründə Bosniya və Herseqovinada qaçqınlar və məcburi köçkünlərin qarşılaşdığı çağırışlar ........ 41
**Günay Əkbərova**
Cəlal Bayar: İqtisadi inkişaf və demokratikləşmə yolunda ... 45
**İlkanə Pənahova**
Təhsildə etik və mənəvi dəyərlər ........ 47
**Zümrüd Zeynalova**
Hüseyn Cavid yaradıcılığının əsas ideyası ........ 53
**Tənzilə Qasımova**
Ana dilinin uşaqların inkişafında rolu ........ 57
**Nabat Əliyeva**
Dram janrının spesifik xüsusiyyətləri ........ 61
**Humay Hacıyeva**
Məktəb proqramlarında dil qaydalarının tədrisi üçün müasir texnologiyaların tətbiqi ........ 65
**Əli Qədirli**
Təlim priyomlarının təsnifatı və praktik əhəmiyyəti ........ 70
**Айтен Салехли**
Российско-сербское взаимодействие как гарант возвращения России на Балканы ........ 74
**Leyla Mahmudova**
The Role of Leadership in Promoting Play-Based Learning in Early Childhood Programs ........ 77
**Айтен Салехли**
Российско-сербское гуманитарное сотрудничество ........ 81

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Vüsal Rzayev**
Su təsərrüfatında yaşıl iqtisadiyyat:
yeni strategiya, innovativ yanaşmalar və tətbiqlər ........ 84

**İsa Hüseynov, Nisə İsayeva**
Kimyada xassə, zaman, fəza, məkan, sürət anlayışları üzrə biliklərin formalaşması ........ 88
**Nigar Sadıqova**
İqlim dəyişikliklərinin su iqtisadiyyatına təsiri: infrastrukturun və su resurslarının idarəetməsinin uyğunlaşması problemləri və perspektivləri ........ 92
**İsa Hüseynov, Könül Əmiraslanova**
Kimyanın tədrisində həll olma prosesləri üzrə biliklərin formalaşması ........ 95
**Xalıqverdi Babayev, Nahid Əzizli, Niyaz Tağıyev**
Limon bitkisinin məhsuldarlığına və məhsulun keyfiyyətinə mineral və üzvi gübrələrin təsiri ........ 100
**Hüseyn Kazımzadə**
Dərmanların hədəfləndirilməsi ........ 105
**Vüsalə Ağamirova, Sevinc Mircəfərli**
Su resurslarının davamlı idarə edilməsi, idarəetmə strategiyaları və iqtisadi yanaşmalar ........ 109
**Rafiq İsmayılov**
Azərbaycanda suvarma texnologiyalarının iqtisadi inkişafa təsiri və əhəmiyyəti ........ 111
**Nərgiz Budaqova**
Xəzər dənizinin duzsuzlaşdırılmasının innovativ üsulları üzrə layihələrin iqtisadi əhəmiyyəti ........ 113
**Xaqan İsazadə**
Deformasiyaya uğramış çay məcrasının bərpası ........ 116

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Şəbnəm Məmmədova**
Tədrisdə bulud texnologiyasından istifadə ........ 120

İmzalandı: 09.11.2024
Onlayn çap: 12.11.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 8 ç.v.
Sifariş: 809

---

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az